www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 sentyabr 2014-cü il Çərşənbə axşamı № 237 (5946) Qiyməti 40 qəpik

## Xəbər

### Məşhur teleaparıcı İlham Mirzəyevin heyrətamiz cinayət dosyesi...

yazısı səh.15-də

## Gündəm

### Azərbaycanın NATO-dan çəkinməsinin dörd səbəbi - şərh



Alyansa üzvlüyün ləngiməsi təkcə hakimiyyətin konyuktur maraqları ilə bağlı deyil; həm də acı Ukrayna "təcrübəsi"ni ciddiyə alan Bakı Moskva və Brüssel arasında hələ bir müddət də sıxılmış durumda qalmalı olacaq...

yazısı səh.8-də

### Müsavat Əmircana gedir

Partiyanın qurultayının mədəniyyət evində keçirilməsinə qərar verildi

yazısı səh.2-də

### Məmur övladlarına instagram zərbəsi...

Sosial şəbəkələr bəzi məmurların vəzifələrini itirmələrinə səbəb olub

yazısı səh.12-də

### Sevinc Babayevanın Elşad Abdullayevlə telefon danışığı yenidən gündəmdə

Hansında gerçəyi danışır - şəxsi müraciətində, yoxsa ABU rektoru ilə söhbətdə?

yazısı səh.3-də

### Tovuzda qədim şəhər aşkarlandı

Tapılan Abdal şəhərinin 2-3 min illik yaşı var; şəhər sasanilər tərəfindən dağıdılıb

yazısı səh.15-də

### Müxalifət İŞİD-ə qarşı koalisiyaya qoşulmağın tərəfdarıdır

yazısı səh.6-da

### Səfərini yarımçıq dayandıran BMT missiyasının hesabatında Azərbaycanı nə gözləyir?

yazısı səh.9-da

### AŞPA prezidenti Azərbaycandadır

Ann Brassör Bakıda görüşlər keçirir

yazısı səh.2-də

*İlqar Nəsibov:*

### "Ayılanda gördüm ki, başımın üstündə ağlayır"

yazısı səh.11-də

### Avropa Parlamentinin qətnaməsinin təsiri olacaqmı...

yazısı səh.6-da

## Azərbaycandan Avropaya böyük mühacir axını başlayıb

# ÖLKƏDƏN QAÇMANIN ARXASINDAKI BÖYÜK SİRR

QHT sektorunda aparılan həbslərdən sonra ölkədən qaçanların sayı kəskin artıb; Avropa paytaxtları mühacirlərimizə qucaq açıb; siyasi qaçqın statusunu almaq indi heyrət ediləcək dərəcədə asanlaşıb; səbəbi bu yazıda...



yazısı səh.11-də

## Abbas Abbasovla Ziya Məmmədovu birləşdirən dəyər - toyuqlar!

Sabiq vitse-premyerlə hazırkı nazirin ortaq "Mərcan" toyuq biznesi var

yazısı səh.11-də



### Nazir oğlu ilə Rauf Arifoğlunun məhkəmə çəkişməsinin tarixi bəlli oldu

yazısı səh.3-də



*Hadı Rəcəbli:*

### "Salyandan o yana nə var, yazırlar Hadı Rəcəblinindir"

yazısı səh.5-də



Qamət Süleymanov

### Sələfilərin lideri ehsana müdaxilədən danışdı

yazısı səh.4-də

**23 sentyabr 2014**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014

## ATƏT-in Varşava sammiti başladı

### Əhməd Şahidov: "Budəfəki müzakirələrdə insan haqları, demokratiya və ölkələrin ərazi bütövlüyü əsas prioritet olaraq seçilib"



**Sentyabrın 22-də Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik İnstitutlar və İnsan Haqları Ofisinin təşkilatçılığı ilə növbəti zirvə toplantısı start götürüb. ATƏT üzvü olan ölkələrin nümayəndə heyətlərinin, səfirlərin, habelə QHT rəhbərləri və tanınmış diplomatların qatıldığı bu toplantıda əsasən insan haqları və demokratiya məsələləri müzakirə olunur, fundamental azadlıqlar, azad media, sərbəst toplaşmaq azadlığı, dini etiqad azadlığı və milli azlıqların hüquqları haqqında danışılır, ayrı-ayrı hesabatlar dinlənilir. Budəfəki toplantıda Ukraynada baş verən son hadisələr ətrafında qızğın müzakirələrin gedəcəyi də gözlənilir.**

Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidovun da qatıldığı bu toplantıda Azərbaycanla da bağlı məruzələrin dinlənəcəyi gözlənilir. Bununla bağlı məlumat verən ADİHİ rəhbəri Əhməd Şahidov öz çıxışlarında Cənubi Qafqaz regionunda demokratiya, insan haqları fundamental azadlıqlar mövzusunu qabardacağını, habelə Dağlıq Qarabağ konflikti barədə geniş məlumat verəcəyini bildirdi.

Qeyd edək ki, ATƏT-in zirvə toplantısı oktyabrın 3-nə qədər davam edəcək.

❑ **E.SEYİDAĞA**

## "İsmayıllı işi" üzrə təqsirləndirilən şəxslərin apelyasiya şikayətinə baxılır

### Sentyabrın 24-də hakim qərarı elan edəcək; Tofiq Yaqublunun səhhətində problemlər yaranıb

**Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL Hərəkatının sədri İlqar Məmmədov başda olmaqla, İsmayıllı hadisələrinə görə həbs edilənlərin apelyasiya şikayətlərinə baxılır. Sentyabrın 24-də Şəki Apelyasiya Məhkəməsində növbəti proses keçiriləcək. Hakimin hökm oxuyacağı gözlənilir.**

T.Yaqublunun vəkili Nemət Kərimli sentyabrın 24-də yekun qərarın elan olunacağını bildirdi: "Son durum ondan ibarətdir ki, məhkəmə müşavirəyə gedib. Sentyabrın 24-də yekun qərar elan olunacaq. Hakim bildirdi ki, proses təxirə salınsa, sizə xəbər edəcəm. Amma hələ ki bizə heç bir məlumat verilməyib. Bu baxımdan 24-də son qərarın elan olunacağı gözlənilir. Tofiq bəy məhkəmədə son çıxışını etdi. Bildirdi ki, həbsi siyasi xarakterlidir. Qanunsuz, ədalətsiz qərar olduğunu söylədi".

**Tofiq Yaqublunun qızı Nigar Yaqublu atasının səhhətində problemlər olduğunu bildirdi:** "Atamla birlikdə məhkəmələri olan məhbuslar artıq son sözlərini deyiblər. Ayın 24-də hakim hökmü elan edəcək. Səhhətində bəzi problemlər var. Amma saxlanma şəraitindən heç bir şikayəti yoxdur. Məhkəmənin tez yekunlaşmasını istəyir".

Xatırladaq ki, İsmayıllı hadisələrinə görə həbs edilən Tofiq Yaqublu 5, İlqar Məmmədov 7, digər təqsirləndirilən şəxslər 4-8 il arası azadlıqdan məhrum ediliblər.

❑ **Cavanşir ABBASLI**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# AŞ PA prezidenti Azərbaycandadır

## Ann Brassör Bakıda görüşlər keçirir

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti xanım Ann Brassör Azərbaycanda səfərdədir. APA-nın məlumatına görə, artıq A. Brassör Bakıda vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşüb.**




Dünən həmçinin baş prokuror Zakir Qaralov da Ann Brasörlə görüşüb.

Musavat.com-a Baş Prokurorluqdan daxil olan məlumata görə, Azərbaycan Respublikası ilə AŞ PA arasında əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiyini bildirən baş prokuror ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində mütərəqqi qanunvericilik aktlarının qəbul edilməsi, bu islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün normativ-hüquqi bazanın yaradılması, son illər prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, korrupsiyaya qarşı mübarizə sahəsində mühüm qanunverici və praktiki tədbirlərin həyata keçirilməsi, ölkə həyatının bütün sahələrində şəffaflığın artırılmasına istiqamətlənmiş institusional islahatların aparılması barədə ətraflı məlumat verib.

AŞ PA ilə Azərbaycan arasında sıx əməkdaşlıqdan və bu əlaqələrin daha da inkişaf etdirilməsindən məmnunluğunu ifadə edən qonaq ölkəmizdə məhkəmə-hüquq sistemində həyata keçirilən islahatları, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işləri yüksək qiymətləndirib.

Daha sonra tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sentyabrın 23-də isə qonaq Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov, parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri və Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti ilə görüşlər keçirəcək.



## Vəkil Leyla Yunusla görüşə bilməyib

**Xalid Bağırov Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusla görüşə bilməyib.**

Sentyabrın 22-də Bakı İstintaq Təcridxanasına baş çəkən vəkil Xalid Bağırov Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusla görüşə bilməyib. Vəkil "Media forum" saytına bildirib ki, nəzarətçilər Leyla Yunusun xəstə olduğunu və görüşə gəlmək istəmədiyini bildiriblər: "Leyla xanımla telefon əlaqəsi saxlamaq istədiyimi bildirdim, lakin nəzarətçilər bunun da mümkün olmadığını dedilər. Leyla Yunusun saxlandığı kamerada yaranmış son durum fonunda vəkillə görüşə gətirilməməsi, onunla telefon əlaqəsi saxlanmasına imkan verilməməsi ciddi narahatlıq yaradır".

Leyla Yunus iyulun 30-da həbs edilib. Onun həyat yoldaşı, Sülh və Demokratiya İnstitutunun eksperti Arif Yunus isə avqustun 5-də tutulub. Onlar dövlətə xəyanətdə və maliyyə cinayətlərində ittiham olunurlar.




## "Bakcell" "AppLab" adlı innovativ mobil developer layihəsinə start verib

### Layihə "Qualcomm" şirkəti ilə birgə həyata keçirilir

**"Ölkənin ilk mobil operatoru olan "Bakcell" şirkəti gələcək nəsil texnologiyaları sahəsində dünya lideri olan "Qualcomm" şirkəti ilə birgə əməkdaşlıq çərçivəsində "AppLab" adlı innovativ mobil developer layihəsinə start verir". Bu barədə sentyabrın 22-də keçirdiyi mətbuat konfransında "Bakcell"in baş icraçı direktoru Riçard Şirer bildirib.**

R.Şirer qeyd edib ki, bu layihənin məqsədi sahibkarların və proqram tərtibatçılarının öz ideyalarını daha sürətlə həyata keçirməsinə, Azərbaycan və beynəlxalq bazarlar üçün istifadəyə tam hazır mütərəqqi mobil tətbiqetmələr yaratmalarına kömək göstərən effektiv alətlərin təmin edilməsidir. "AppLab" ideyaların, mobil təqdimetmələrin və texnologiyaların pilot variantından istifadəyə buraxılan tam hazır varianta qədər çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra modelidir".

R.Şirer bildirib ki, "Qualcomm" **şirkəti ilə mühüm layihələr həyat keçirilib:** "Biz bu il əməkdaşlığımızı ölkənin telekommunikasiya sektorunda olduqca əhəmiyyətli hadisə hesab edilə bilən müxtəlif maraqlı layihələr çərçivəsində genişləndiririk. "Bakcell" həmçinin son 3 ildə Azərbaycanın gənc developerlərinə dəstək göstərmək üçün ilk dəfə həyat keçirilən layihələrin tərəfdaşı olub. İndi biz maraqlı ideyaları olan gənclərə "AppLab" layihəsi kimi gözəl bir fürsəti böyük məmnuniyyətlə təqdim edirik. Proqram inkişaf etdirmə prosesində "Bakcell" və "Qualcomm" şirkətləri tərəfindən onlara böyük dəstək göstəriləcək və biz inanırıq ki, bu layihə onların çox xoşuna gələcək".

"Qualcomm" şirkətinin əməkdaşı Ziad Mater və "Bakcell"in təmsilçisi Mark Zırka mobil texnologiyaların insan həyatının mühüm hissəsinə çevrildiyini, insanların altıncı hisslərinə çevrildiyini vurğulayaraq, texnoloji inkişafın gündəlik həyatımızın bütün aspektlərinə təsir etdiyini vurğulayıblar. Bildirilib ki, yeni layihə sahibkarlıq üçün əsas platformadır. Həmçinin həmin gün "Bakcell" layihə ilə bağlı olan ofisin də açılışını edib.

❑ **RÖYA**
**Foto müəllifindir**

## Müsavat Əmircana gedir...

### Partiyanın qurultayının mədəniyyət evində keçirilməsinə qərar verildi

**Müsavat Partiyası tarixi seçimlə üz-üzədir. Qarşıdan 27 sentyabr partiyanın VIII qurultayı gəlir. Tarixi günə artıq az müddət qaldı. Başqanlıq uğrunda 4 namizəd ( Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı, Səxavət Əlisoy) arasında gedən rəqabət günü-gündən artmaqdadır. Yaranan həyəcan pik nöqtəyə çatıb.**

Qurultayı keçirmək üçün Bakı Şəhər İcra hakimiyyəti Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Evini təklif edib. 4 ildir ki, yer ucbatından təxirə salınan Müsavat qurultayının bu dəfə keçiriləcəyinə hər kəsdə inam böyükdür. Gedən proseslər bunu açıq şəkildə göstərir. Onu da qeyd etmək lazımdır ki, seçki öncəsi indiyə qədər namizədlər arasında gedən sağlam rəqabətlə Müsavat Partiyası növbəti demokratik ənənənin əsasını qoyur.

Dünən Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin iclası keçirilib və qurultayın Səttar Bəhlulzadə Mədəniyyət Evində keçirilməsinə qərar verilib. Bu barədə məlumat verən Müsavat başqanının müavini Gülağa Aslanlının sözlərinə görə, Nizamnaməyə dəyişikliklər artıq müzakirə olunub və proqrama dəyişikliklər başa çatacaq: "Təbii ki, hər gün yeni bir texniki iş ortaya çıxır. Amma demək olar ki, 90 faiz qurultaya hazırlıq işləri başa çatıb".

Onu da qeyd edək ki, Müsavat Partiyası yeni qaydalara uyğun olaraq, Səttar Bəhlulzadə adına Mədəniyyət Evi ilə danışıqlara başlamaq üçün Mədəniyyət və Turizm İdarəsinə müraciət etmişdi.

**G. Aslanlı müraciətin nəticələri barədə də danışıb:** "Dünən səhər idarəyə getdim. Onlar gün ərzində cavab veriləcəyini bildirdilər. Amma mədəniyyət evinin rəhbərliyi artıq zəng edib ki, müqavilənin şərtlərini qəbul etməyə hazırıq və gəlin müqavilə imzalayaq".

**Başqan müavini təbliğat kampaniyasının başa çatacağı günü də açıqlayıb:** "Başqanlığa namizədlərin təbliğat və təşviqat kampaniyası qurultayda namizədlərin irəli sürülməsi haqqında yekun qərarla tamamlanır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Nazir oğlu ilə Rauf Arifoğlunun məhkəmə çəkişməsinin tarixi bəlli oldu

## Baş yazar "Bu, Azərbaycana, onun beynəlxalq reytinqinə xələl gətirən bir işdir", deyir

**Sentyabrın 26-da, saat 11.30-da Xətai Rayon Məhkəməsində Anar Məmmədovun Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında şikayəti üzrə hazırlıq iclası keçiriləcək. R.Arifoğlunun hüquqlarının müdafiəsi vəkillər Elçin Sadıqov və Cavad Cavadov tərəfindən həyata keçiriləcək.**

Daha bir yenilik isə "Yeni Müsavat" qəzetinin "məşhur ayı məsələsi" ilə bağlı Nizami rayon icra şöbəsinə qarşı qaldırdığı kasasiya şikayəti üzrə işin taleyidir. Sözügedən proses də oktyabrın 9-da Nizami Rayon Məhkəməsində, hakim Aslan Karbalıyevin sədrliyi ilə keçiriləcək.

Xatırladaq ki, nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir. Şikayət ərizəsinə 8 sentyabr 2014-cü il tarixində, saat 11.45-ə Xətai Rayon Məhkəməsinin hazırlıq iclasında baxılacağı nəzərdə tutulsa da, baş yazara bu barədə sənədlər sentyabrın 11-də, məhkəmədən 4 gün sonra çatdırılıb.

**Baş yazar müxbirimizə açıqlamasında bildirdi ki, A.Məmmədovun qaldırdığı şikayət üzrə məhkəmənin heç bir perspektivi yoxdur. Onun fikrincə, bu, Azərbaycana, onun beynəlxalq reytinqinə xələl gətirən bir işdir:** "Məmmədovların gözlərini örtən nifrət və kin onlara sağlam düşünmə imkanı vermir. Onların atdıqları addım siyasi səhvdir, Azərbaycan hakimiyyətinə, onun prezidentinin siyasətinə ciddi bir zərbədir. Çünki indiyə qədər Azərbaycan hakimiyyəti bütün beynəlxalq müstəvilərdə iddia edirdi və indi də iddia edir ki, "Diffamasiya haqqında" Qanunun qəbul olunmasına heç bir ehtiyac yoxdur. Çünki Azərbaycanda diffamasiyaya görə məhkəmə prosesləri illərdir ki, keçirilmir. Heç kim indiyə qədər həbs olunmayıb. Amma indi Məmmədovlar məhz diffamasiya ilə ölkənin ən böyük qəzetinin baş redaktorunu həbs etdirmək istəyirlər. Və bununla bağlı məhkəməyə müraciət ediblər".



**R.Arifoğlu bildirdi ki, hər kəsin məhkəməyə müraciət etmək hüququnu tanıyır. Amma o, bütün hallarda hesab edir ki, Azərbaycana zərərli olan prosesin gerçəkləşməsinə, eyni zamanda özünün də həbsinə imkan verməmək üçün hüquqi müstəvidə mübarizəni davam etdirmək lazımdır:** "Amma təəssüflə onu qeyd etməliyəm ki, son bir ay onu göstərdi ki, Azərbaycanın məhkəmə sistemi - xüsusən Nizami Rayon Məhkəməsindən söhbət gedir - Məmmədovların əlində "Yeni Müsavat"a qarşı bir təsirli silaha, vasitəyə, cəza makinasına çevrilib. Və Məmmədovlar nə deyirsə, məhkəmə onu da həyata keçirir. Misal üçün, biz "Yeni Müsavat" qəzetinin borcları ilə bağlı qalmaqalı misal göstərə bilərik. Belə ki, "Yeni Müsavat" qəzetinin borclarının bağışlanması ilə bağlı Anar Məmmədov və onun vəkili məhkəməyə müraciət etsə də, onun vəkili məhkəməyə müraciət etməsinə baxmayaraq, düz 5 aydan sonra imtina qərarı dəyişdirildi. Və məhkəmənin verdiyi 4 min manatlıq cərimə qanunsuz və absurd olaraq icraya yönəldildi. Təbii ki, bundan da narahatçılığımız var. Ona görə də geniş ictimaiyyəti və media cameyəsini bu prosesə diqqət etməyə çağırırıq. Və bununla bağlı lazım olan müdafiə addımlarımızı da atacağıq".

❑ **Sevinc TELMANQIZI**

# Sevinc Babayevanın Elşad Abdullayevlə telefon danışığı yenidən gündəmdə...

## Hansında gerçəyi danışır - şəxsi müraciətində, yoxsa ABU rektoru ilə söhbətdə?

**"Yeni Müsavat" qəzetinin ötən sayında "Mandat alveri" qalmaqalının əsas fiquru, 2012-ci il dekabrın 26-da İstanbulda dünyasını dəyişən Sevinc Babayevaya aid olduğu bildirilən səs yazısı barədə yazmışdıq. 18 dəqiqəlik səs yazısında S.Babayeva ABU-nun sabiq rektoru Elşad Abdullayev barədə danışıb, eləcə də onun itkin düşmüş qardaşı Mahir Abdullayevin haqqında bilinməyənləri açıqlayıb.**

Sözügedən danışıqda S.Babayeva işarə verib ki, M.Abdullayevin ortadan yox olmasında qardaşı E.Abdullayevin də izlərini axtarmaq lazımdır. Bundan başqa, o, M.Abdullayevin MTN zabiti olması barədə deyilənləri də yalan adlandırıb. Mərhum S.Babayeva onun heç vaxt rəsmi formada olmadığını, işə gedib-gəlmədiyini, bütün gün ABU-dakı otağında oturduğunu deyib.

Səs yazısının yayımlanması ilə bu istiqamətdə suallar da artıb. İlk növbədə hələ tam çözülməmiş, qaranlıq məqamları ilə diqqət çəkən "mandat qalmaqalı"nda cəmiyyətin bilmədiyi xeyli ilginc məqamların olduğu bir daha üzə çıxıb. Redaksiyamıza göndərilən səs yazısı S.Babayevanın 3 saatlıq danışığının xırda bir hissəsidir. Cəmi 18 dəqiqəsi "Yeni Müsavat"a çatdırılıbsa, yerdə qalan 2 saat 42 dəqiqəsində hansı "bomba"ların olduğu və bunun nə zaman ortaya çıxacağı da sual doğurur. Ekspertlər iddia edir ki, S.Babayeva sağlığında baş verənləri audioyazıya qeyd etməklə özünü "qarantiya" altına almağa cəhd edib. Xatırladaq ki, bu səs yazısı ilə yanaşı, S.Babayeva daha öncə həm də məktub yazıb, eləcə də Respublika Prokurorluğuna müraciət yollayıb. Bu barədə "Mandat alveri" qalmaqalı davam edən günlərdə "Yeni Müsavat" geniş yazılar yazıb.



Elşad Abdullayev



Sevinc Babayeva

Əməkdaşımız son səs yazısı ilə bağlı E.Abdullayevin, eləcə də onun vəkili Adil İsmayılovun mövqeyini öyrənməyə cəhd etsə də, heç biri ilə danışmaq mümkün olmayıb.

Bu səs yazısından sonra isə redaksiyamızın ünvanına xatırlatma xarakterli daha bir səs yazısı göndərilib. Həmin səs yazısı S.Babayeva ilə E.Abdullayev arasında telefon danışığından ibarətdir. Xatırladaq ki, ilk dəfə bu səs yazısı 2013-cü ilin 20 yanvar tarixində yayılmışdı.

**Həmin söhbət zamanı S.Babayeva E.Abdullayevi inandırmağa çalışır ki, artıq G.Əhmədovanın əvvəlki nüfuzu yoxdur. Oğlunun maşınla qəzaya yol verdiyini deyən S.Babayeva heç kimin ona kömək etmədiyini də bildirib:** "Oğlunu məhkəməyə verdilər. Gülər bu oyunda "iqrok"a çevrilmək istədi, alınmadı. Ona dəfələrlə dedim ki, pulunu qaytar. Deyir, əcəb eləmişəm, pul məndə deyil, yiyəsindədir, onun yiyəsi bilməlidir ki, bu nə iş görür".

### Ekspertlər sual verir, ortada qaranlıq məqamlar var

**"Prezidentin başının üstündən işlər görürlər", deyən S.Babayeva G.Əhmədovanın E.Abdullayevə qəzəbləndiyini də bildirir:** "Qardaşının qayınatasını işdən çıxarmısan deyə lap dəli olub. Sənin üstünə gəlmək istəyirdi".

**E.Abdullayev bu hədəyə G.Əhmədovaya ünvanlanmış bir söyüşlə cavab verir. S.Babayeva isə onu inandırmaq üçün G.Əhmədovanın ailə durumu ilə bağlı detallı bilgilər verir:** "Gülərin gömrükdə işləyən qardaşı Vüqar deyir ki, bacım hələ də evində rahat yata bilirmi. Deyirəm, yatır da. Qorxusundan oğlanlarını çıxarır şəhərdən. Qotur bir bacısı var. Sutenyor kimi göndərir kişilərin yanına. "Nissan" firmasından maşın alıb, 4 min manat verməlidir, onu vermir. Ora da 4 min atıb".

**Söhbət zamanı E.Abdullayev bir neçə dəfə S.Babayevaya xəbərdarlıq edir ki, G.Əhmədova onu öldürtdürə bilər. S.Babayeva isə öz növbəsində güc nazirliklərinə bu barədə ərizə yazdığını, hamını bundan xəbərdar etdiyini deyir:** "MTN-ə ərizə ilə müraciət etmişəm. Yazmışam ki, kimsə pul yeməlidir, mən niyə arada qalmalıyam. Sən küçədən keçən deyilsən ki, pulunu atsın, qaytarmasın".

**Ardınca S.Babayeva G.Əhmədova ilə bağlı daha əsəbi tonda danışır. "Avtobus sürücüsünün qızını adam edəndə belə olar" deyən S.Babayeva keçmiş rəfiqəsinin qorxaq olduğunu da vurğulayır:** "Bu, bloka girəndə də qorxur. Qorxağın yekəsidir. Dedim, pulunu qaytarmırsınız, nazir müavinləri, komitə sədrlərinin yeri boşalıb, get bunu bir yerə düzəlt. O variantı da demişəm ona. Görürəm nəticəsi yoxdur. Sonra da demişəm, özünü yox, ailəsindən bir nəfəri işə qoy".

**Dialoq sonra belə davam edir:**

**E.Abdullayev:** - Sabah gəlib deyər səndən pul almışam? Sənə hər şey edər.

**S.Babayeva:** - Mən iki dənə generala düşmüşəm. Onun kürəkəni, qızı ilə danışmışam. Erməni şeydir, qaçar burdan. Bu, təsdiq olunub ki, "atanşik"dir. KQB-dən bir nəfərə də atıblar.

**E.Abdullayev:** - Səni vurub öldürəndən sonra ərizəyə baxan kimdir?

**S.Babayeva:** - Bunun haqqında demişəm ki, Gülərin nənəsi ermənidir, qanı təmiz deyil. Ata nənəsi ermənidir. Şuşanikdir adı. Bu, pis adamdır. Mən hamıya danışmışam.

**E.Abdullayev:** - Bunu görüşdüyün adamlara da deyə bilərsən?

**S.Babayeva:** - Mən o qadından qorxuram bəyəm? Mən elmlər namizədi, iki institut qurtarmışam, deputat ola bilmədim. Amma o, APİ Lenini qurtarıb, heç aspirant da ola bilmir. Avtobus şoferi, konduktor qızı necə deputat, ailə olub? "Falşivi" ailədir bunlar. Bu neynib ki, iqtidar seçib? Müxalifətçidən xəbər gətirir.

**S.Babayeva sözügedən danışıqda G.Əhmədova ilə münasibətlərinin pis olmasının səbəblərinə də toxunub. Deyib ki, deputat onun haqqında hardasa xoşagəlməz sözlər danışdığı üçün araları dəyib:** "Oğlunu "narxoz"a qoymalı idim. Pulunu verdim, dedim, get. Ərim xərçəngdir, deyir hamısı buna acısın. Dünən çıxıb ANS-ə, namusdan-qeyrətdən danışır. İki qardaşının işi prokurorluqdadır. İki qızı bədbəxt edib, işi prokurorluqdadır. Ac adamdır, bilir ki, bu il deputatlıqda sonuncu ilidir. Ona görə kimdən nə gəldi qoparır".

E.Abdullayev yenə də S.Babayevaya "həyatı ilə çiling-ağac oynadığı üçün" xəbərdarlıq edir. S.Babayeva isə G.Əhmədova barədə danışmaqda davam edir. Onun bu qədər pul yığsa da heç də yaxşı yaşamadığını, həyat yoldaşı ilə istirahət etmək üçün putyovka düzəltdiyi halda cəmi 10 gün istirahət edib qayıtdığını deyir. S.Babayeva müxalif qəzetlərindən birinin də (adını çəkir) G.Əhmədovaya işlədiyini iddia edir.

Göründüyü kimi, bu məsələdə S.Babayevanın dedikləri ilə bağlı ciddi fikir ayrılıqları var. Hər iki səs yazısı mərhuma məxsus olsa da, bunlardan hansının reallığı əks etdirdiyi sual doğurur.

**Bundan başqa, "Yeni Müsavat" aydınlaşdırdı ki, M.Abdullayevin MTN sıralarında çalışmaması ilə bağlı S.Babayevanın dedikləri həqiqəti əks etdirmir. ABU rektorunun itkin düşmüş qardaşı ölmədən önçəki son 2-3 ildə MTN-in akademiyasında müəllim olaraq çalışıb, özü də MTN zabiti olub.**

❑ **S.TELMANQIZI**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014

# Sələfilərin lideri ehsana müdaxilədən danışdı



Hacı Qamət

## Hacı Qamət: "Yas məclislərində süfrə toydan fərqlənmirdi, bircə spirtli içki və musiqi çatışmırdı"

**"Əbu Bəkr" məscidinin imamı, sələfilərin lideri Hacı Qamət Süleymanov "Yeni Müsavat"ın suallarını cavablandırıb. Hacı Qamət yas və toy mərasimlərində israfçılığa qarşı mübarizədən, şəriətin buyurduqlarından və sələfilərin buna necə əməl etməsindən söz açıb. Eyni zamanda İŞİD-in fəaliyyətinə münasibət bildirib.**

***- Hacı, hökumətin yas məclislərində ehsan israfçılığına qarşı tədbirlərini necə qiymətləndirirsiniz?***

- Əslində bu mübarizə tədbirlərinə çoxdan başlamaq lazım idi. Mən belə düşünürəm ki, çox gözəl addımdır, yalnız təqdir etmək olar. Çünki yas məclislərində kifayət qədər ehsanla bağlı artıq xərc çəkilirdi. Hətta vəziyyət o yerə çatmışdı ki, yas məclislərində süfrə toydan fərqlənmirdi, bircə spirtli içki və musiqi çatışmırdı. Ona görə də hökumət səviyyəsində əl qoyulub və düzgün edilib. İsrafçılığın qabağını almağın ayrı yolu qalmamışdı.

Fikirləşirəm ki, bunun həm dövlətin iqtisadiyyatına, həm xalqın cibinə zərəri var. Əgər bu, hər iki tərəfə ziyan edirsə, niyə davam etməlidir? Biz tərəfdarıyıq ki, yas məclisləri nə qədər sadələşdirilsə, ehsan süfrələri israfçılıq edilmədən təşkil olunsa, bir o qədər yaxşıdır.

***- Ümumiyyətlə, yas mərasimi necə olmalıdır və sələfi təriqətində hansı formadadır?***

- Bunu sələfi və ya şiəyə ayırmaq lazım deyil. Quranda buyurulub ki, vəfat etmiş şəxslə bağlı dörd addım vacibdir; mərhumu yumaq, kəfənləmək, cənazə namazı qılmaq və dəfn etmək. Dəfn mərasimindən sonra mərhumun qonşuları ailəsinə yemək bişirib gətirirlər, yəni təziyə gətirirlər. Ancaq Azərbaycandakı yas mərasimlərində olan israfçılığı qətiyyən dinlə bağlamaq olmaz. Bu, daha çox formalaşmış bir adətə çevrilib. Sovet hökuməti dövründə ənənəsi belə qoyulub, bu günədək davam edir. Sələfilərin yas məclisinə gəldikdə, yuxarıda qeyd etdiyim dörd vacib məqam yerinə yetirilir. Ondan sonra kim bacarırsa, şəriətə uyğun hərəkət edir. Ancaq kimsə yemək verir, çadır quraşdırır, kimsə bacarmır, qohum-əqrəbanın sözünə görə elin adəti ilə gedir. Eləsi də var ki, necə buyurulubsa, ona riayət edir. Bir az fərdi məsələyə çevrilib. Ancaq indi dövlət səviyyəsində israfçılığa qarşı tədbirlərin başlanması gözəl addımdır. Mən elə bilirəm ki, xalqın da ürəyincə olar. Əgər icra nümayəndələri tərəfindən yas məclislərinə müdaxilə olunursa, düz edilir. Hərdən lazımdır ki, inzibati üsullar tətbiq olunsun, bu, millətin xeyrinə görədir.

***- Məzar daşlarının qoyulmasında yol verilən israfçılığın da qabağını almaq istəyirlər, başdaşı necə olmalıdır ki?***

- Bu istiqamətdə də tədbirlər çoxdan görülməli idi. Çünki ehsan süfrələri kimi bu işdə də həddən ziyadə çox pul xərclənir. Elə qəbirlər var ki, 20 min manat xərc çəkirlər. Bu düzgün deyil. İslamda buyurulub ki, mərhum üçün adi, sadə başdaşı olmalıdır. Əgər imkanın çoxdursa, bu pulu bir yetimin müalicəsinə xərclə, kiməsə əl yetir. Yoxsa qəbir daşına şəkil qoymaq, bahalı daşdan məzar düzəltdirmək olmaz. İslamda deyilir ki, şəkil olmaz. Sadəcə, vəfat etmiş adamın ad-soyadı qeyd olunmalıdır. Əvvəllər belə idi, dədə-babalarımızın başdaşında sadə formada ad-soyad yazılardı. Sonra dəbə mindirdilər, cürbəcür başdaşı qoyuldu. Üstəlik, belə işlər insanların vaxtını aparır. Bu vaxta qədər şeyxin də israfçılıqla bağlı çıxışı olub. Ancaq indi dövlət səviyyəsində iş aparılır.

### "İŞİD cahil, aldadılmış dəstələrdir və İslama bağlılığı yoxdur..."

***- Toy mərasimlərində də israfçılığa qarşı mübarizəyə başlamaq istəyirlər, bəs dini toylar necə keçirilir?***

- İndi görün vəziyyət hansı səviyyəyə çatıb ki, toy mərasimlərində olan israfçılığın da qabağını dövlət səviyyəsində almaq istəyirlər. Bu, mütləq lazımdır. İnsanlar zərər edir, süfrəyə qoyulan yeməklərin hamısı istifadə olunmur. Bu qədər məsrəf lazım deyil. Dini toylarda isə şəriətə görə, qadınlar və kişilər ayrı zallarda olurlar. Kişilərin məclisində musiqi, donuz əti, içki olmur. Qalan halal nə varsa olur. Kişilər yeyib-içirlər, təbrik edib gedirlər. Qadınlar isə başqa zalda olurlar, qadın xanəndə çağırıb, musiqi dinləyirlər.

***- Hacı, qadınlar demişkən, dünya mediası İŞİD-in yezidi kürd qadınları, şiə qızları əsir götürüb qul bazarında satdıqlarını yazır. Bu, informasiya savaşıdır, yoxsa həqiqət?***

- Əvvəla, bütün dünyanın bu dəqiqə danışdığı İŞİD-in İslamla bir bağlılığı yoxdur. Bəlkə də medianın yazdığı kimi, belə hallar var. Ancaq onlar cahil, aldadılmış dəstələrdir. Onların elədikləri də cihad deyil. İŞİD-in hansısa qüvvələrə bağlantısı var. Ola bilməz ki, Əbu Bəkr əl-Bağdadi Amerika həbsxanasından çıxsın, bu qədər cahil uşaqları başına yığsın, sonra İraqın və Suriyanın yarısını zəbt etsin. İndiki zəmanədə bu, inanılmazdır. Sadəcə, böyük maraqların oyununda bir hissədir.

Artıq İŞİD neçə ölkəyə fəsad verib. Hətta bu dövlətlərin xalqına yaratdığı problemlər belə olmayıb. Qəddafi, Səddam, Əsədin dövründə əmin-amanlıq olub. Vətəndaş evindən çölə çıxanda bilirdi ki, sağ-salamat qayıdacaq.

Amma bu gün bilmir başına nə iş gələcək. Evdən çıxanda vidalaşıb ayrılırlar. Hətta İŞİD, "əl-Qaidə" kimi təşkilatların içindən onların siyasəti ilə razılaşmayıb çıxanlar, yeni dəstələr yaradanlar var.

❑ **Emil SALAMOĞLU**

# "Qubad İbadoğlunun başqanlığı olmasa, Müsavatın fəaliyyəti..."



Əhliman Abbas

## Əhliman Abbas: "Partiyanın keçirdiyi bütün seçkilər şəffaf, demokratik və çoxluğun fikrini ifadə edəcək formatda olub"

**Müsavat Gənclər Təşkilatının (MGT) sədri Əhliman Abbas partiyanın qurultayı qabağı musavat.com-un suallarını cavablandırıb. MGT sədri təşkilat, partiyada gözlənilən başqanlıq seçkisi və partiyanın yaxın gələcəkdəki vəziyyəti ilə bağlı gözləntilərini açıqlayıb.**

***- Siz sədr seçiləndən sonra sanki Müsavat Gənclər Təşkilatı zəiflədi. Bu, yanlış təsəvvürdür, yoxsa əsası var?***

- Mən hesab edirəm ki, bu, yanlışdır. Yəni MGT-nin zəifləməsi ilə bağlı hər hansı bir fakt, və yaxud da təşkilatda əvvəl mövcud olub, indi mövcud olmayan məsələlər, arqumentlər ortaya qoyulsa, bu, müzakirədir. Ancaq hesab edirəm ki, hazırda təşkilatda heç bir zəifləmə və yaxud da hər hansı sizin dediyiniz məsələlərlə bağlı bir fakt ortada yoxdur. Əksinə, Müsavat Gənclər Təşkilatı həm intellektual tərəfdən, həm təşkilati tərəfdən ciddi şəkildə inkişaf edib, ciddi şəkildə məsafə qət edib.

***- Müsavatçı gənclərin önəmli hissəsi Tural Abbaslını dəstəkləyir, onun sədrliyini müsbət xatırlayırlar. Bunun səbəbi nədir?***

- Axı bu sual... yəni... Siz bu qənaətə haradan gəlirsiniz? Yəni hər hansı bir ad çəkə bilərsiniz, yəni filan adam və yaxud da filan qruplar Tural Abbaslını dəstəkləyir? Yəni bir faktla belə sual ortaya qoysanız, mən cavablandıra bilərəm. Amma bu sualın da heç bir fakta dayanıqlığı yoxdur. Müsavat Gənclər Təşkilatında ola bilsin ki, bir nəfər, iki nəfər təşkilat üzvündən Tural bəyi dəstəkləsin. Ola bilsin, mən bilmirəm. Ancaq müsavatçı gənclərin böyük əksəriyyəti Tural Abbaslını dəstəkləyir demək çox ciddi şəkildə yanlış təsəvvürdür. Yanlış fikirdir.

***- Aydındır. Mən desəm ki, müsavatçı gənclərin önəmli hissəsi Əhliman Abbası dəstəkləyir, nəyə əsaslanıb bunu deyim? Buna əsaslanacaq faktlar varmı? Hər hansı bir sorğu-filan...***

- Sədr olaraq deyirsiniz? Gənclər Təşkilatının təxminən 9 ay bundan qabaq konfransı və seçkisi keçirilib. Orada təşkilatın üzvləri öz mövqeyini ifadə edib. Bu qənaətlə demək olar ki, müsavatçı gənclərin böyük hissəsi Əhliman Abbası dəstəkləyir. Mən arqument qoydum.

***- Bu, ciddi arqument hesab olunur?***

- Seçki nəticəsindən daha ciddi arqument nə ola bilər?

***- O seçkinin nəticələri zaman-zaman dartışılır və şübhə altına alınır.***

- Mən ortaya fakt qoyuram, protokol nəticəsi qoyuram. Bildirirəm ki, bu faktlara əsasən bunu hesab etmək olar.

***- O zaman sizlər niyə gənclər təşkilatının üzvləri olaraq əvvəlki seçkinin nəticələrinə etiraz etdiniz və yeni seçki keçirilməsinə nail oldunuz. Burada səbəb nə idi?***

- Mən heç bir nəticəyə etiraz etməmişəm. Müsavat Gənclər Təşkilatının keçirdiyi birinci konfransın nəticələri ləğv olunanda mən İlgiltərədə idim, ölkədə deyildim. Mən heç bir nəticəyə-filan etiraz etməmişəm. Birinci keçirilən konfransı Müsavat Divanı müzakirə edib və təqdim olunan faktlar əsasında hesab edib ki, seçkidə müəyyən qədər texniki və yaxud da digər formada qüsurlar olub. Məqbul hesab olunub ki, seçki yenidən keçirilsin.

***- Sizin Qubad bəyi dəstəkləməyiniz, ona dəstəyiniz nə ilə bağlıdır? Gənclik radikal olur adətən, amma Qubad bəy daha çox mötədil siyasətin tərəfdarıdır...***

- Radikal terminini siyasətə hakimiyyət gətirib. Hesab edirəm ki, siyasətdə radikal termini o qədər də uyğun termin deyil. Radikallar terrorçular, hər hansı ekstremist qruplar olur. Siyasətdə radikal termini uyğun deyil.. Mən sizin fikrinizi tutdum. Fikrinizə uyğun da cavabınızı verim... Biz hesab edirik ki, hörmətli Qubad bəy Müsavat Partiyasının bundan sonrakı dönəmdə güclənməsində, daha da inkişaf etməsində, eyni zamanda Müsavatın tez bir zamanda hökumət qurmasında, tez bir zamanda iqtidar olmasında, eyni zamanda azadlıqların gətirilməsində lazımi potensialı gətirə biləcək şəxsdir. Yəni buna da bizim arqumentlərimiz var. Qubad bəyin cəmiyyətdə olan nüfuzu, şəxsi keyfiyyətləri, hansı ki, siyasətçidə, Müsavat başqanında mütləq onlar olmalıdır, onun ictimai nüfuzu, onun biliklər, intellekti Qubad bəyi Müsavat başqanlığına ən uğurlu insan kimi təqdim edir.

***- Bəs İsa Qəmbərsiz Müsavatı necə təsəvvür edirsiniz?***

- İsa Qəmbərsiz Müsavat yoxdur. Əvvəlcə bir redaktə edim. Xahiş edirəm, mənim dediyim bütün cümləri orada qeyd edəsiz. Bu sualınızla razı deyiləm. İsa Qəmbər Müsavat Partiyasında fəaliyyətini davam etdirəcək. Müsavat Partiyasında yenidən siyasət aparacaq. İsa Qəmbərsiz Müsavatı hələ ki təsəvvür etmirəm.

***- Sizcə, qurultaydan sonra Müsavatda vəziyyət necə olacaq, partiya zəifləyəcək?***

- Bu, seçkinin nəticələrinə bağlıdır. Mən bir insanı Müsavat başqanına daha uğurlu görürəm. Hesab edirəm ki, o insanın başqanlığında Müsavat daha da irəli gedəcəksə, bunun əksi olan formatda gözlədiyim uğurlar, bizim qurduğumuz, dediyimiz mövqe baş tutmaması halı olacaq. Mən hesab edirəm ki, Qubad bəyin başqanlığı olmasa, Müsavat Partiyasının fəaliyyəti başqa bir variantda daha uğursuz ola bilər. Eyni zamanda kimlərinsə gözləntiləri var ki, Müsavat Partiyası qurultaydan sonra dağılacaq, bölünəcək, bunlar da əsassızdır. Seçkilərin nəticəsindən asılı olmayaraq, Müsavat Partiyası həmişə bütövlükdə fəaliyyətini davam etdirir. Təşkilatda heç bir bölünmə olmayacaq. Eyni zamanda namizədlərdən kimin seçilməsindən asılı olmayaraq, Müsavat Partiyasının kursunda dəyişiklik baş verməyəcək. Çünki Müsavat Partiyasının kursunu müsavatçılar müəyyən edir. Ona görə də Müsavat Partiyasının taleyi ilə bağlı bütün narahatlıqlar əsassızdır. Qurultaydan sonra Müsavat Partiyası daha da güclənəcək, daha da möhkəmlənəcək, hökumətə qarşı, özü də ki, qeyri-demokratik rejimə qarşı fəaliyyətini daha da gücləndirəcək və hesab edirik ki, tezliklə də ölkəyə azadlıqları, demokratiyanı gətirməyi bacaracaq.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014

**Mətbuatın yazdığına görə, Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli aldığı əmək haqqının aşağı olmasından şikayətlənib. Komitə sədrinin maaş azlığından şikayətlənməsi bir sıra şərhlərə yol açıb. Ancaq komitə sədri "Yeni Müsavat"a müsahibəsində yazılanları təkzib etdi.**

# "Heç kimə deməmişəm ki, maaşım azdır..."

## Hadı Rəcəbli: "Salyandan o yana nə var, yazırlar Hadı Rəcəblinindir, indi mən neyləyim?!"

***- Hadı müəllim, doğrudanmı bu gün parlamentin komitə sədri olaraq siz dolana bilmirsiniz?***

- Mən uzun illər mətbuatla əlaqədə olmuşam. Elə bir söz deməmişəm. Jurnalistlər müraciət edəndə çalışıram ki, onlara müsahibə verim. Ancaq belə də olmaz axı, mən intervü verirəm, fikrimi kontekstdən çıxarırlar, sonra məcbur olub təkzib edirəm. Vallah, belə jurnalistika, belə yoldaşlıq olmaz. Hadı Rəcəbli harda və haçan deyib ki, əmək haqqım mənə çatmır? Hadı Rəcəbli belə deyə bilməz. Deyə bilər ki, tələbatla təminat düz mütənasib deyil. İnsan təmin oluna-oluna onların tələbatı artır. Mən bunları mətbuatda deyirəm, bu barədə televiziya çıxışlarım olub. Sevinirəm ki, dövlətimiz o qədər inkişaf edib ki, insanlarımızın rifahı yaxşılaşıb. Yaxşılaşa-yaxşılaşa da tələbatı artıb. Bunu mən deyə bilərəm. Amma sən götür yaz ki, Hadi Rəcəbli deyir maaşım mənə çatmır...Mən belə şey deməmişəm axı... Mətndə başqa şeydir, amma başlığa çıxarıblar ki, Hadı Rəcəbli maaşından narazıdır. İntervüdə olmayanı başlığa çıxararlarmı? Belə Allahsızlıq olarmı? İnan, bundan sonra adam deyir daha heç kimə müsahibə verməyim. Mən bu mövzunu ortaya atanların əməllərini pisləyirəm. Bu, ədalətsiz mövqedir. Olmayan bir məsələni qəzetlərin, saytların başlığına çıxarmaq, facebookda oynatmaq düz iş deyil. Mənim açıqlamamı oxuyan görür ki, onun içində elə fikir yoxdur.

***- Deyəsən, maaşınız 1950 manatdır...***

- Ola bilər bir az da çox olsun. Söhbət ondan getmir. İnsan təmin olunduqca tələbatı artır, bu, qanunauyğunluqdur. Mən də bunu demişəm.

***- Bundan əvvəl də oxşar söhbətlər yayılmışdı. Deməli, siz birmənalı şəkildə dolanışıqdan şikayətçi deyilsiniz?***

- Dünyasında narazı qala bilmərəm. Necə yəni? Mən 45 manat əmək haqqına işləmişəm. 12 yaşından fəhləlik eləmişəm. O adamlar ki, haqqımda yazır, onlar məni tanımırlar. Adamların tələbatı ilə təminatı fərqlidir axı. Hər bir adamın əmək haqqı uyğundur. Kvalifikasiya, 19 bənd, tarif cədvəli, ixtisaslı-ixtisassız adam məsələsi var.

***- Ümumiyyətlə, siz parlamentin komitə sədri olaraq ölkədə sosial-iqtisadi vəziyyəti necə dəyərləndirirsiniz?***

- Yaxşı dəyərləndirirəm. Ona görə ki, durum yaxşılaşdıqca insanların arzuları artır. Vaxtilə 4 saat elektrik enerjisi istəyən camaat indi su, kanalizasiya xətti, yol çəkilir. Bunlar ola-ola yeni arzular yaranır, mən bundan danışıram. Bu da təbiidir, qanunauyğunluqdur. Get Amerikada soruş, deyəcək maaşım çatmır, milyonçudan soruş, deyəcək vallah filan şeylərə pul

### "Palıd onların gözlərinə girsin!"

çatdıra bilmirəm. Biz bundan danışmışıq, deməmişik ki, Hadının pulu çatmır. Mən maaşımla o qədər xeyriyyəçilik eləmişəm, bunu camaat bilir. Adamlara kömək edirəm, adamlar maaşımı soruşurmu?

***- Bu zaman da ortaya suallar çıxır ki, əgər kimsə yalnız maaşa baxırsa, xeyriyyəçiliyi hansı pulla edir?***

- Elə o maaşın hesabına da etmək olar. Qənaət elə, əlini sıx, bu maaşdan da xeyriyyəçilik elə. Hadı müəllimin bahalı maşınları yoxdur, əynindəki kostyumları hamı görür, bahalı qalstuk geymir. Hadı müəllim öz maaşı ilə dolanan adamdır. Sən məni hardasa görmüsənmi ki, "İnfiniti"də gəzim?

***- Görməmişəm, yeri gəlmişkən, nə sürürsünüz?***

- Heç nə. Mənim şəxsi maşınım yoxdur, xidməti avtomobildir.

***- Tez-tez Palıddan yazırlar...***

- Palıd onların gözlərinə girsin! (gülür) "Palıdlı sahə"ni biri yazıb, çörəyi dizi üstündə olan adamdır. Elşad, mənim adıma heç bir biznes yoxdur. Bunu birmənalı qeyd edirəm. Harda istəsəniz yazın, deyin. Salyandan o yana nə var, yazırlar Hadı Rəcəblinindir, indi mən neyləyim?

***- Ancaq adətən mal-mülk başqasının adına yazılır...***

- Görürsən, indi də belə deyirsən. Belə çıxır ki, camaat məni kasıb görmək istəyir? Gah deyirlər maaşı çatmır, gah da deyirlər ki, filan obyektləri var. Onda necə danışaq?

***- Mən mətbuatda yazılanlar barədə soruşuram ki, səmimi cavab verəsiniz...***

- Mən də səmimi cavab verdim ki, qardaş, mən heç bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmuram, heç bir biznesim yoxdur. Sən parlamenti görürsən, 125 nəfər var. Birinci ora kim işə gəlib-gedir? Kim birinci o binaya girir, axşam çıxır?

***- Mən orda olmuram axı, hardan bilim.***

- Gərək biləsən. Hər halda, müşahidələrin olmamış deyil. Hadı Rəcəbli səhər saat 10-un yarısı işə gəlir, 7 radələrində işdən gedir. İndi sən bütün parlamentə baxandan sonra Hadı Rəcəblini onlarla müqayisə edə bilərsən də.

***- Deməli, Hadı Rəcəbli parlamentin ən intizamlı deputatıdır?***

- Bu, bir. İndi sən dedin onu. İkincisi, sosial durumuna baxanda kimdir orda ən ortabab, ən orta deputat? O da Hadı Rəcəblidir. Bəs mətbuat niyə olmayan şeyi çıxarır, yazır? Sensasiya xətrinə belə şeylər yazmaq düzgün deyil axı.

***- Bəlkə elə öz çevrənizdən kimlərsə sizə qarşıdır deyə, vaxtaşırı adınız hallanan xəbərlər mətbuata ötürülür...***

- Yox, mən kimə pislik eləmişəm axı? Başımı aşağı salıb işimlə məşğulam.

***- Bəs "Palıdlı sahə" kimindir?***

- Başqasının. Həsənqulunun, mən nə bilim kimindir.

***- Yəni sizin ailə üzvlərinə aidiyyəti yoxdur?***

- Yox, ailə üzvlərimə də aid deyil. Axı "Palıdlı sahə"dən başqa şeylər də yazırlar, sən oxumursan? Hadı müəllimi mətbuat hər cür tənqid edə bilər, amma Allahsızlıq olanda pis oluram da. Milli Məclisdə kimin nəyi var, hamı bilir. Amma yazanda ki, Hadı müəllimin "Palıdlı sahə"si var, bu, ədalətsizlik olur. Sən başqasını da görməlisən axı.

***- Milli Məclisdə sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara sözünüz nədir?***

- Bunlar zirək, bacarıqlı adamlardır da.

***- Bəs, qanun pozuntusu?***

- Qanunu pozana qanunla cavab verilsin. Qanunu pozmamaq da mümkündür.

***- Son vaxtlar xeyir-şər məclisləri ilə bağlı müzakirələr gedir. Toya gedəndə nə qədər nəmər salırsınız?***

- Bax, indi sən məndən bunu soruşursan. Onu da müqayisə elə ki, pensiyaçı toya nə qədər pul salır, Hadı Rəcəbli nə qədər salır. Mən miqdarını bilməyəcəyəm.

***- Burda nə sirr var ki?***

- Məsələn, mən bir dəstə gül aparıram. Görürsünüz o məsələlərdə də yanlışlıqlar var.



**"Hadı müəllimin bahalı maşınları yoxdur, əynindəki kostyumları hamı görür, bahalı qalstuk geymir. Hadı müəllim öz maaşı ilə dolanan adamdır. Sən məni hardasa görmüsənmi ki, "İnfiniti"də gəzim?"**

***- Toy və yas məclislərinin qanunla tənzimlənməsi fikrinə necə yanaşırsınız?***

- Mən o məclislərdəki ifratçılığa pis baxıram, gərək örnək məsələlər, iradlar, qınaqlar ola. Mən də təntənəli məclislərin olmasını qınayıram, buna pis baxıram. Ancaq mən bunun qanunla tənzimlənməsinin tərəfdarı deyiləm. Məsələn, ola bilər qəbiristanlıqlar qanunla tənzimlənsin, amma yeməyi, süfrəni necə tənzimləyərsən? Qəbiristanlıqlar haqqında Məclisə layihə gəlsə, onu müdafiə edəcəyəm. Amma hüzr yerlərini qanunla tənzimləmək olmaz. Şəriətdə demirlər ki, sən bananları bir-biri ilə öpüşdür, qoy yas məclisinə. Bu məsələlər şəriət qaydaları ilə tənzimlənir. Qadağa qoyan düz eləmir, qanunları pozur, belə olmaz! Sən necə deyə bilərsən ki, süfrəyə nə ver? Biri yağı çox, digəri az verər, biri həyət toyuğu alar, digəri fabrik toyuğu, bunları tənzimləmək olmaz. Başqa ölkələrin belə qanunları var, amma bizə uyğun deyil.

***- Siz övladlarınıza toy eləyibsiniz...***

- Dörd balama toy eləmişəm, hamısı cəmiyyətdə gedən proseslərdən fərqli olub. Öz toyum da fərqli olub. Çalışmışam ki, balalarımın toyu da fərqli olsun.

***- Fərq nədə idi?***

- Ya yemək-içmək barədə fərqli olub, ya tərtibatında, dəvət olunan qonaqlarında fərq olub.

***- Maraqlısı odur ki, sizin fikirləriniz çox hallarda uzun müddət müzakirələrə səbəb olur, xeyli yazılar yazılır. Səbəbini özünüz düşünübsünüzmü?***

- Çünki sosial məsələlərdən danışıram. Mənim danışdığım məsələ əhalinin böyük hissəsinə təsir edir. Danışarkən mən diqqətli oluram e, gərək mətbuat da diqqətli olsun ki, aləm qarışmasın. Ona görə də mən jurnalist həmkarlarımdan xahiş edirəm ki, bu məsələlərdə diqqətli olsunlar. Xahiş edirəm, iri hərflərlə yazın ki, mən heç kimə deməmişəm ki, maaşım azdır...

***- Hadı müəllim, deputatlığı məmur postuna dəyişmək istəyiniz yoxdur ki?***

- Mənim 67 yaşım var, vəzifələrin ən yüksəyini də görmüşəm. Mən deputatlığı özümçün ən yüksək vəzifə hesab edirəm. Partiyama, namizədliyimi irəli sürən adamlara dərin minnətdarlığımı bildirirəm. Mən şükranlı adamam. Çox razıyam, maaşımdan da, tutduğum vəzifədən də, mövqedən də. Çalışaram vəzifəmin öhdəsindən layiqincə gəlim. İnan ki, hara məsləhət olsa, orda bir az da yaxşı işləyərəm.

***- 2015-ci il parlament seçkilərinə qatılacaqsınız?***

- Partiya məsləhət bilsə, hə, yox, məsləhət bilməsə, qatılmayacağam. Mən partiyamın dəstəyi ilə güclüyəm. Seçki daha çox partiyaların dəstəyindən asılıdır.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014



# Əslində ölkənin bir nömrəli problemi...

**Xalid KAZIMLI**

**Bu günlərdə Sulutəpədə, Xırdalan pivə zavodunun qarşısındakı piyada keçidi üçün nəzərdə tutulmuş zolağın və bu sətirlərin müəllifinin bir addımlığında yol qəzası baş verdi. Xoşbəxtlikdən, tələfat və xəsarət olmadı, eləcə iki avtomobil bərk əzildi.**

Hadisədən beş saniyə əvvəl heç kəs güman etməzdi ki, qəza baş verəcək. Düzdür, qəzalar adətən belə baş verir, bir-iki saniyənin içində olur-bitir. Amma burada tam gözlənilməzlik oldu: yol bomboş idi, maşınlar bu yaşayış məntəqəsinin içi üçün nəzərdə tutulmuş sürət həddini 20-30 km/saat aşmaqla hərəkət edirdilər. Bizim sürücü sürət həddini keçmirdi. Qəza baş verən nöqtəyə yaxınlaşanda məlum oldu ki, piyada keçidinin zolaqlarının üstündə bir qadın var və o, əks tərəfə keçmək istəyir. Sürücümüz avtomobili əylədi. Qadın hərəkətə gəldi. Bizdən yanda hərəkət edən başqa avtomobil də zolağın önündə dayanmalı oldu və heç iki saniyə keçmədi ki, əvvəlcə asfaltı sürtən təkər ciyiltisi, sonra toqquşma tappıltısı və dəmir sürtünməsi səsi gəldi. Yana baxdıq və gördük ki, düz yanımızda dayanan maşının arxası, ona çırpılan avtomobilin isə qabaq nahiyəsi əzilib yaman günə qalıb. Biz tələsmədən çıxıb getdik, beş saniyə əvvəl tələsənlər isə maşından enib günahın kimdə olduğunu ayırd etməyə girişdilər.

Bizi aparan taksi sürücüsü yolda tələsməyin ziyanlı olduğu barədə qısa nitq irad edəndən sonra əlavə etdi: "Mənim altmış yaşım var, həmişə maşını belə sürmüşəm, bir dəfə də olsun qəzaya düşməmişəm".

Əlbəttə, bunu ağsaqqal sürücü deməden də yüz minlərlə adam əzbərdən bilir. Ancaq bir həqiqəti bilməklə ona riayət etmək arasında çox fərq var. Nə yazıq ki, insanlar adi həqiqətləri anlamır, təhlükəsizlik və başı salamat saxlamaq qaydalarına riayət etmirlər. Bu anlayışsızlığın və riayətsizliyin statistikası qorxuncdur: ölkəmizdə ildə 1100-ə yaxın insan həyatını yol qəzalarında itirir, üç o qədər adam yaralanır, on o qədər insan əzizlərini itirərək faciə yaşayır.

Yol qəzalarının çox olduğu başqa ölkələrdə bəlkə də qəzanın törənməsində başqa səbəblər (avtomobili içkili idarə etmək, təhlükəli yollar, səriştəsizlik və s.) var, bizdə isə qəzalara əsas səbəb sürətdir. Tələskən, hövsələsiz adamlar heç cür sürət həddinə riayət etmirlər, etmək istəmirlər.

Yuxarıda nəql etdiyim əhvalatda qəzadan yayınmağın yolu 60 km/saat sürətilə hərəkət etməkdir. Belə olanda bu yolda piyadalara da, yola çıxmaq istəyən digər maşınlara da yol vermək asan olur və bu, istənilən sürücünün ən çoxu, bir dəqiqə vaxtını alır. Ancaq bu yolda yazılmamış bir qayda var: əksəriyyət avtomobilini saatda 90-100-lə sürür və yavaş hərəkət edənlərə acıqları tutur, işıq və səs siqnalı ilə onları yoldan sıxışdırmaq istəyir. Qəzaya düşən iki sürücü məhz onlardan idi - tələsənlərdən. Hazırda onların hər ikisi maşın ustalarının yanındadırlar.

Ancaq heç kəs düşünməsin ki, bu, o adamlara dərs olacaq. Xeyr, olmayacaq. Həmin şəxslər düzəlmiş avtomobillərinə oturan kimi yenə də sürətlə sürməyə başlayacaqlar. Bu ölkədə qəbul olunmuş idarəetmə üsulu budur - sürət və sürət.

Bu üzdəndir ki, ölkədə faciəvi qəza xəbərlərinin ardı-arası kəsilmir. Bu il yol qəzalarında ölənlərin sayı artıq 1000 nəfərə yaxınlaşmaqdadır. İlin sonuna qalan 100 gündə onların sayının keçənilki göstəriciyə çatmasa da, 1000-i aşacağı şübhə doğurmur.

Demək, kimlərsə bilə-bilə ölümünə tələsir və özləri ilə neçə-neçə günahsız sərnişin aparırlar.

Tərs kimi, bu qırğının qarşısını almaq mümkün deyil. Biz böyük ölçüdə avtomobil idarə etməyi bacarmayan camaatıq. Hələ qəzaların mühüm bir hissəsinin qarşısını yollardakı sıxlıq, tıxaclar alır. Məsələn, Biləcəri enişindən Xırdalana qədər olan magistral azacıq seyrək olan kimi orada ən azı gündə üç yol qəzası baş verir.

Xaricdə yaşayan dostlar bildirirlər ki, bir sıra Avropa ölkələrində sürücülük vəsiqəsi almaq universitet diplomu almaqdan çətindir. Hər adama, hər sürücüyə vəsiqə vermirlər. Bu, yalnız 15-20 cəhddən sonra, sürücülüyün incəliklərini mükəmməl öyrəndikdə baş verir. Ona görə də həmin ölkələrdə il ərzində yol qəzasında ölənlərin sayı 40-a çatmır *(bizim bir ayda ölənlərin sayı qədər).*



# Avropa Parlamentinin qətnaməsinin təsiri olacaqmı...

**Avropa Parlamentinin Azərbaycanda insan haqları və demokratiya ilə bağlı ötən həftə qəbul etdiyi qətnamənin vəziyyətə hansısa təsirinin olub-olmayacağı, qətnamədəki 18 tələb və tövsiyəyə rəsmi Bakının əməl edib-etməyəcəyi maraqla izlənməkdədir.**

**Müsavat Partiyası başqanının müşaviri Mustafa Hacıbəyli** "Yeni Müsavat"a bu barədə açıqlamasında bildirdi ki, Avropa Parlamentinin qətnaməsi xüsusi bir xəbərdarlıqdır və hakimiyyət üçün bir siqnaldır. Hakimiyyət nəzərə almalıdır ki, bu qətnamələrin ardınca sanksiyalar da gələ bilər. Ona görə də qətnamədəki tələb və tövsiyələrə əməl edilməlidir: "Mən inanıram ki, hakimiyyət bu qətnamədən nəticə çıxardaraq siyasi məhbus məsələsinin həlli istiqamətində addımlar atacaq. Ayrıca belə bir məlumat da var ki, hakimiyyətlə Avropa Şurası rəhbərliyi arasında siyasi məhbusların azad edilməsi ilə bağlı hansısa razılaşma var. Mən ümid edirəm ki, o razılaşma ilə bağlı məlumatlar, həm də Avropa Birliyinin son qətnaməsi hakimiyyəti təcili tədbirlər görməyə vadar edəcək".

**"Hakimiyyət təmsilçilərinin qətnaməyə sərt mövqe sərgiləmələri qətnamədəki tələblərə əməl edilməyəcəyinin anonsu sayıla bilərmi" sualına isə Mustafa Hacıbəyli belə cavab verdi:** "Sərt açıqlamalar əslində bu qətnamənin ciddiliyindən irəli gəlir. Hakimiyyət bu qətnamənin ciddi olduğunu başa düşür və onun ayrı-ayrı nümayəndələri emosiyalarını gizlədə bilmirlər. Amma hər nə qədər sərt açıqlamalar versələr də, məncə, hakimiyyətin öz maraqlarına uyğun qərarlar verməsinə bu açıqlamalar mane olmayacaq".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev isə moderator.az-a açıqlamasında bildirib ki, məlum qətnamənin Azərbaycan hakimiyyətinin davranışında hansısa dəyişikliyə səbəb olacağına inanmır:** "Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsi "növbətçi" xarakterli qətnamədir. Bu səbəbdən də bunun hansısa nəticə verəcəyinə inanmıram. Düşünmürəm ki, bu qətnamədən sonra hakimiyyətin fəaliyyətində müsbət yöndə hansısa dəyişiklik müşahidə edilsin. Bu qətnaməni əsas götürüb Qərb-hakimiyyət qarşıdurmasına ümid edənlərin gözləntisi özünü doğrultmayacaq. Azərbaycan hakimiyyəti kifayət qədər praqmatik hakimiyyətdir. Avropa da kifayət qədər praqmatikdir. Sistemli düşüncəyə malikdirlər. Hesab edirəm ki, tərəflər bir-birini başa düşür və qarşılıqlı güzəştlərə gedəcəklər. Bu həmişə olub və bu məsələdə yeni bir şey deyil".



**Mustafa Hacıbəyli:**
"Bu, xüsusi bir xəbərdarlıqdır və hakimiyyət üçün siqnaldır"



**Mehman Əliyev:**
"Bunu əsas götürüb Qərb-hakimiyyət qarşıdurmasına ümid edənlərin gözləntisi özünü doğrultmayacaq"

**Qərb-hakimiyyət münasibətlərinin mülayimləşəcəyi zamanla bağlı konkret proqnoz verən M.Əliyev ABŞ və Avropa Birliyinin Azərbaycanla bağlı məsələdə vahid mövqe sərgilədiyinə də diqqət çəkib:** "Hesab edirəm ki, tərəflər arasında münasibətlər yaxın gələcəkdə müəyyənləşəcək. Təxminən 2015-ci ilin fevral ayında münasibətlərdə mülayimləşmə müşahidə ediləcək. Yanvarda Avropa Şurasında sessiya var. Avropa Birliyi ilə Azərbaycan arasında sazişin imzalanması gözlənilir. ABŞ-ın yeni səfiri gəlir və yeni bir mərhələ başlayır. O da elan edib ki, münasibətlərdə insan hüquqları mühüm yer tutacaq. Əsrin müqaviləsinin 20 illiyi ilə bağlı göndərilən təbrik məktubunda da bu, qeyd olunur. Görünən odur ki, ABŞ və Avropa Birliyinin məsələyə vahid yanaşması var. Bununla hesablaşmamaq mümkün deyil. Bu baxımdan yəqin ki, Azərbaycan hakimiyyəti də adekvat addımlar atmağa hazırlaşır. Yaxın gələcəkdə tərəflərin ciddi müzakirələrə start verəcəyini qaçılmaz hesab edirəm".

**Almaniyada yaşayan "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin rəhbəri, tanınmış hüquqşünas Əlövsət Əliyev isə bildirib ki, hakimiyyət qətnaməni bənd-bənd müzakirə etməli və qeyd olunan problemlərin həllinə nail olmalıdır:** "Hakimiyyət təmsilçiləri "bu, növbəti qərəzli münasibətdir" deməklə münasibətləri daha da pisləşdirir. Hakimiyyət hər bənddə göstərilən tövsiyənin mövcud olmasını təsdiq etməli, onların aradan qaldırılmasına nail olmalıdır. Əks halda, Azərbaycanda vəziyyət ağırlaşmaqda davam edəcək, Azərbaycana münasibət də daha da pisləşəcək".

❑ **E.SEYİDAĞA**

# Müxalifət İŞİD-ə qarşı koalisiyaya qoşulmaq tərəfdarıdır

## Demokratik düşərgə belə hesab edir ki, Azərbaycan da təhlükəsizlik və kəşfiyyat sahəsində koalisiya ilə əməkdaşlıq edə bilər

**ABŞ hökuməti İŞİD-lə mübarizə məqsədilə geniş koalisiya qurulması cəhdlərini davam etdirir. ABŞ-ın ciddi təşkilatçılığı ilə sentyabrın 26-da keçirilən Paris konfransından sonra Fransa hərbi hava qüvvələri İŞİD mövqelərini bombalamağa başlayıb. Bu, artıq beynəlxalq koalisiyanın yarandığını təsdiqləyir. ABŞ hökuməti 40-a yaxın dövlətin İŞİD-ə qarşı müharibə koalisiyasına qoşulacağını elan edib.**

Türkiyə, məlum olduğu kimi, Mosul konsulluğu əməkdaşlarının girovluqda olduğunu əsas gətirərək koalisiyada olmaqdan imtina edib. Ancaq ötən şənbə günü girovlar azad edildiyi üçün qonşu ölkə ilə bağlı yeni durum yaranıb. Qardaş ölkənin koalisiyada iştirak edəcəyini proqnozlaşdıran çoxsaylı ekspertlər var.

Azərbaycanın yeni koalisiyaya qoşulub-qoşulmayacağı ilə bağlı hökumət hələ ki susur. Doğrudur, Azərbaycan hökuməti ABŞ-ın daha əvvəl yaratdığı beynəlxalq antiterror koalisiyasında iştirak edib. Ancaq hazırda durum bir az fərqlidir. Üstəlik, hələlik Bakıya bu barədə rəsmi təklifin olub-olmadığı da aydın deyil.

**Siyasi şərhçi Elxan Şahinoğlunun proqnozlarına görə, Azərbaycana İŞİD-ə qarşı beynəlxalq koalisiyaya qoşulmaq təklifi gəlsə, böyük ehtimalla Azərbaycan İŞİD əleyhinə koalisiyaya aktiv üzv kimi olmasa da, hansısa şəkildə qoşulacaq:** "İŞİD terrorunun Azərbaycana da təsiri var. Azərbaycan vətəndaşları Suriyada İŞİD tərkibində döyüşür. Bundan başqa, ölkə daxilinə təsirləri var, dini radikalizm artır. Bu mənada, fikrimcə, Azərbaycan hakimiyyətində də İŞİD narahatlığı var, düşünürəm ki, artıq hökumət içində müzakirələr gedir. Ancaq Azərbaycanın koalisiyanın aktiv üzvü kimi hərbi əməliyyatlara qatılacağını, Amerika və Fransa kimi bombardman həyata keçirəcəyini güman etmirəm. Koalisiyada bir aktiv üzvlər, bir də passiv üzvlər olacaq. Fikrimcə, Azərbaycan da təhlükəsizlik, kəşfiyyat sahəsində koalisiya ilə əməkdaşlıq edə bilər".

Bəs Azərbaycan müxalifəti bu barədə hansı fikirdədir? Azərbaycana anti-İŞİD koalisiyasına qoşulmaq təklifi gələcəyi halda Azərbaycan təklifi qəbul etməlidirmi?



**KXCP sədri Mirmahmud Mirəlioğlu hesab edir ki, Azərbaycan dövlətinə İŞİD-ə qarşı beynəlxalq koalisiyaya qoşulmaq təklifi olacağı ehtimalı azdır. Əgər təklif olarsa, Azərbaycanın öz strateji müttəfiqləri ilə birlikdə həmin koalisiyada iştirak eləməsi ziyanlı deyil:** "Amma bundan öncə Azərbaycanın İŞİD-lə bağlı görməsi vacib olan işlər var. O da vətəndaşlarının İŞİD-də iştirakını sıfıra endirməkdir. Bunu da təbliğatla reallaşdırmaq mümkün deyil. Bəllidir ki, Azərbaycan vətəndaşları sırasından da İŞİD-ə qoşulanlar var. Odur ki, birinci iş bu prosesin qarşısını almaqdır".

**Müsavat Partiyası başqanlığına namizəd Arif Hacılı bildirdi ki, İŞİD təkcə indi fəaliyyət göstərdiyi ərazilər üçün deyil, bütövlükdə Avrasiya materiki üçün təhlükədir. O cümlədən Azərbaycan üçün də təhlükədir:** "Ona görə də əgər Azərbaycan dövlətinə İŞİD-ə qarşı koalisiyaya qoşulmaq təklif olunarsa, hesab edirəm ki, Azərbaycan bu koalisiyaya qoşulmalıdır".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014

**Bu gün cəmiyyətdə aktual problemlərdən biri qadınların zorakılığa məruz qalmasıdır. Kütləvi informasiya vasitələrinin problemin həlli istiqamətində cəmiyyətə təsir imkanları xeyli genişdir. İstənilən sahədə mövcud olan problemin həm aktuallaşdırılmasında, həm də həlli istiqamətində KİV-in rolu danılmazdır... Amma gəlin baxaq görək bu geniş imkanlardan Azərbaycan televiziyalarında nə dərəcədə faydalı istifadə olunur?**

# "Özləri də bilmədən problem yaradacaq amilləri təbliğ edirlər"

## Həcər Abbaslı: "Qadınlara qarşı zorakılığın aradan qalxması üçün Ümid Partiyası mükəmməl proqrama malikdir"



Heç olmasa bir ciddi proqram göstərə bilərsinizmi ki, orda qadınların üzləşdiyi problemlər barədə ciddi müzakirələr aparılsın? Əksər proqramlarda şou yaratmaq naminə səhv örnəklər göstərir və özləri də bilmədən problem yaradacaq amilləri təbliğ edirlər. Demək olar ki, bir neçə ciddi media orqanını çıxmaq şərti ilə qəzet, jurnallarda da vəziyyət eynidir. Onlar sadəcə qadınlara olan zorakılığın təbliği ilə məşğuldurlar. Sensasiya yaratmaq naminə ucuz reklamdan istifadə edirlər. Əslində bunun cəmiyyətə nə qədər ziyan vurduğunun fərqində belə deyillər. Hesab edirəm ki, KİV nümayəndələri cəmiyyətdə mövcud olan qadınlara qarşı zorakılığa münasibəti dəyişməyə qadirdirlər. Əgər media qurumları öz dinləyici və tamaşaçılarının sayını artırmaq üçün sensasiya naminə belə faktlara müraciət edəcəksə, onda zorakılıq problemi getdikcə kəskinləşəcək. Çünki əksər bu cür verilişlərdə KİV işçilərinin qeyri-obyektiv şərhlərinə görə həm açıq kütlə arasında zorakılığa məruz qalan qadınların adları hallanır, həm də "ədəbsiz davranışda" günahlandırılırlar. Eyni zamanda bu cür ictimai verilişlərdə mütəxəssis kimi qeyri-peşəkar və sahə üzrə təcrübəsi olmayan, ictimaiyyətdə mənfi imicə malik olan şəxslərdən istifadə olunur ki, bu da problemin aktuallığını daha da artırır. Əslində qadın zorakılığı ilə bağlı ictimai verilişlər zamanı daha çox problemi yaradan amillər və onların həlli yolları müzakirəyə çıxarılmalı, müzakirələr zamanı qurbanlarla davranışda maksimum ehtiyatlı olmalı, problemin təbliğinə və onların mənəvi-psixoloji travma almasına yol verilməməlidir.

Qəzet, jurnal və televiziyalarda qadın zorakılığı ilə bağlı efirə verilən verilişlərə və yazılan yazılara əsasən demək olar ki, daha çox kimsəsiz, təhsilsiz və erkən yaşda nikaha daxil olan qadınlar zorakılığa məruz qalırlar. Bundan başqa ailə münaqişələrinin, nikahların pozulması və qadın zorakılığının baş verməsində sosial problemlər də ciddi rol oynayır.

Prezidentin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb, amma ötən bu 8 il ərzində ortaya ciddi nəticə qoya bilməyib. Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən icra orqanıdır. Odur ki, problemlərin həlli istiqamətində ciddi tədbirlər görmək də onun vəzifəsidir. Komitənin hesabatlarında gördüyü işlər də hamısı görüntü naminə edilir. Komitə beynəlxalq təşkilatlar qarşısında dövlətin bu istiqamətdə götürdüyü öhdəliyi tam yerinə yetirmir. Düşünürəm ki, dövlət, qadınlara münasibətdə zorakılığı pisləməli və heç bir adət, ənənə, dini bəhanələrə istinad etməyərək, zorakılığın ləğv olunmasına dair öhdəliklərin yerinə yetirilməsindən boyun qaçırmamalıdır. Dərhal mümkün olan bütün siyasi vasitələrdən istifadə edərək, qadınlara münasibətdə zorakılığın aradan qaldırılması üçün qadınlara qarşı zorakılıq tətbiq edilməsinin əleyhinə çıxış etməlidir. Bundan başqa qadınlara qarşı zorakılıq hallarının qarşısının alınması, faktların tədqiqatı, belə aktların dövlət və ya fərd tərəfindən icra olunmasına baxmayaraq, milli qanunvericiliyə uyğun olaraq cəzalanmasına xüsusi diqqət yetirməlidir. Belə faktların cəzasız qalması qadınlara qarşı zorakılıq hallarının yayılması təhlükəsini artırır.

Bu səbəbdən səlahiyyətli qurumlar qadın zorakılığı ilə bağlı verilişlərə həssas yanaşmalı, monitorinqlər aparılmalı, zorakılığı təbliğ edən proqramların qarşısı alınmalıdır. Bu cür proqramla efirə çıxan media orqanlarına xəbərdarlıq edilməli və qınanmalı, KİV-ə nəzarətin hüquqi tərəfindən istifadə edilməli, bu istiqamətdə peşəkar mütəxəssis və psixoloqların iştirakı ilə maarifləndirici ictimai verilişlər tez-tez efirə verilməli və məqalələr çap olunmalı, problemin həllində vətəndaş cəmiyyətinin rolu artırılmalıdır.

Hesab edirəm ki, qadınlara qarşı zorakılığın aradan qalxması üçün Ümid Partiyası ailə, qadın və uşaq problemi üzrə mükəmməl proqrama malikdir və bu proqramı tətbiq etməklə problemi kökündən həll etmək mümkündür. Bu səbəbdən proqramın əsas müddəalarından bəzilərini oxucuların nəzərinə çatdırıram. Dövlətin kiçik modeli olan ailənin planlaşdırılması istiqamətində xüsusi dövlət proqramı hazırlanmalıdır. Xüsusilə qız uşaqlarının təhsildən kənarlaşdırılması siyasəti əngəllənməli, qız uşaqlarının vaxtından əvvəl ərə verilməsinə qarşı xüsusi siyasət müəyyənləşdirilməli, maariflənmə işi həyata keçirilməli, uşaq zorakılığını əngəlləmək üçün vətəndaş cəmiyyətlərinə xüsusi dövlət dəstəyi həyata keçirilməli, ictimai nəzarət mexanizminin imkanlarından yararlanacaq, qaynar xətlər təşkil edilməli, hüquq mühafizə orqanları və vətəndaş cəmiyyətlərinin işi əlaqələndirilməli, yetim, kimsəsiz uşaqların uçotu aparılmalı, onların xüsusi internat məktəblərinə yerləşdirilməsinə dövlət nəzarəti həyata keçirilməli və küçə uşaqları anlayışı birdəfəlik cəmiyyətimizdən çıxarılmalıdır. Habelə, qadınların ictimai-siyasi həyatda iştirakını təşviq edəcək xüsusi proqram hazırlanamalı, dövlət və özəl sektorda qadınların işlə təmin edilməsi və cəmiyyətin tam hüquqlu üzvləri kimi fəaliyyət göstərmələri üçün gender bərbərliyi saxlayan işçi sayı faizlə müəyyənləşməli, qadın intiharlarının, namus və adət cinayətlərinin minimuma endirilməsi üçün təşviqat işləri ilə yanaşı vətəndaş cəmiyyətinin rolu artırılmalıdır. Hüquq-mühafizə orqanlarının bu sahədə işi yenidən təşkil olunmalı, kimsəsiz qadınların qeydiyyatı aparılmalı və onlara dövlət qayğısı həyata keçirilməli, qadınlara qarşı ayrı-seçkiliyin olmaması üçün əmək müqavilələrində işə götürənlər üzərinə xüsusi öhdəlik qoyulmalı, qadınlara qarşı şiddət, cinsi , iqtisadi, siyasi ayrı-seçkiliyi rədd edən təşviqat materialları hazırlanmaqla yanaşı, xüsusi hüquqi baza da işlənməlidir.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**




# Ümid Partiyası Naxçıvanda seçkilərə hazırlaşır

**Digər bölgələrdə olduğu kimi Ümid Partiyası Naxçıvan Muxtar Respublikasında da bələdiyyə seçkilərinə hazırlaşır. Muxtar Respublikanın rayonlarında namizədlərlə görüşlər keçirilir, partiyanın seçkilərə qatılmasının əhəmiyyəti və səbəbləri namizəd olacaq şəxslərə izah olunur, bələdiyyələrin statusu və görüləcək işlər, eləcə də yarana biləcək problemlər müzakirə edilir, ilkin namizədlərin siyahısı hazırlanır.**

Bu barədə Ümid Partiyası sədrinin müavini, eyni zamanda Naxçıvan Muxtar Respublikası təşkilatının sədri Faiq Əliyev məlumat verib.

F.Əliyev deyib ki, Ümid Partiyası MR təşkilatı yarandığı gündən fəaliyyətini durmadan davam etdirir: "Bölgədə siyasi fəaliyyət göstərmək nə qədər çətin olsa da, biz siyasi proseslərin dayanmaması, daha da sürətlənməsi üçün çalışırıq. Çünki partiya sədrimiz İqbal Ağazadənin qeyd etdiyi kimi, demokratikləşmə bir prosesdir. Prosesin dayanmasına imkan vermək olmaz. Bölgədə olan ictimai-siyasi vəziyyəti nəzərə alaraq maksimum fərdi qaydada aktiv insanlarla görüşlər keçirir, onları siyasi proseslərə qoşmağa çalışırıq. Eyni zamanda namizəd olacaq partiya üzvləri ilə görüşür, partiyanın seçkilərə qatılmasının səbəb və məqsədini açıqlayırıq.

Bələdiyyə seçkilərinə hazırlığa bu ilin əvvəlindən başlamışıq. Keçirilən hər bir seçkiyə partiyamızın təşkilatlanması və güclənməsi baxımından bir fürsət kimi baxırıq. Çalışırıq ki, qanunun bizə tanıdığı bütün imkanlardan maksimum istifadə edərək, təşkilatımız olan rayonlarda bütün bələdiyyə subyektləri üzrə özəklərimizi və seçki qərargahını yaradaq. Daha çox böyük bələdiyyələri hədəfləmişik. Naxçıvan şəhər bələdiyyəsində 17 bələdiyyə üzvü var və 17 namizədlə mübarizə aparmağı qarşıya məqsəd kimi qoymuşuq. Namizəd olacaq şəxslərin siyahısı artıq hazırdır. Doğrudur, bələdiyyələrin statusunun olmaması səbəbindən insanlar bu seçkiyə həvəssiz yanaşır. Ancaq biz bütün mümkün variantlardan və imkanımız çatan resurslardan istifadə edərək dayanmadan mübarizə aparmaq əzmindəyik.

Hakimiyyətin uzun illər apardığı seçki siyasəti, seçkilərin saxtalaşdırılması da insanların ruhdan düşməsinə, seçkilərlə dəyişikliyə inamını azaldıb. Planlı siyasətin nəticəsidir ki, insanlar prosesə qoşulmaq istəmir. Amma insanları seçkilərdə iştiraka inandırmaq, proseslərə, aktiv siyasi fəaliyyətə qoşmaq siyasi partiya kimi bizim vəzifələrimizdən biridir. Proses getməyəcəksə, insanlar aktiv siyasətə qoşulmayacaqsa, Azərbaycanın demokratikləşməsi ləngiyəcək. Bu səbəbdən prosesin getməsi, insanların prosesə qatılması və partiyanın daha çox namizədlə seçkilərdə iştirakı üçün əlimizdən gələni edirik".



# Qardaşlaşmış siniflər

**Zamin HACI**
zaminhaci@gmail.com

**Şanlı hökumətimizin insan azadlıqlarını, insan hüquqlarını tam boğandan sonra öz qayda-qanunlarını hər bir sahəyə itələyəcəyi labüd idi. Bu mənada, son dövrlərin ehsan, yas qanunları, toy adətləri və sairə vurnuxmalarını anlayışla qarşılayırıq. Demək istəyirlər ki, siz nə qanırsınız evlənməyi, yaşamağı, ölməyi, biz sizin üçün hamısını cızıqla müəyyən edəcəyik, həmin cızıqdan qırağa çıxmaq istəyənlər isə vətən xaini və ermənidən-zaddan elan olunacaqdır.**

İştah diş altındadır, xalqı ki yerə yıxıb anasını ağladırsan, ondan sonra hər cür eksperimentlərə meydan açılır. Hələ bunlar yaxşıdır, Mao müəllim çinlilərə sərçə ovladırdı, deyirmiş sərçələri qırıb qurtarsaq kommunizm yaranacaqdır. Bəlkə bizdə də bir "Antibildirçin" kampaniyasına ehtiyac vardır. Toyda bildirçin verənləri tutub dama salmaqla ümumxalq nifrətini körükləmək, sonra bu nifrətin alovunda qazanxana açıb bütün Əhmədlini istiliklə təmin etmək mümkündür.

Yas yerlərində artıq deyilənə görə israfçılıq yoxdur, camaat ancaq xurma yeyib limonla çay içir, durur gedir. Mollalar üçün uniformalar hazırlanıb, müəllimələr də ağ köynək və mavi qalstuk bağlayırlar. Respublika səviyyəsində xalqın biliklərini artırmaq üçün prezident yanında Bilik Fondu da yaradılmışdır. Bunun vəzifəsi isə xalqı bilikləndirməkdir, hökumətin gördüyü işləri qara, bisavad camaata başa salmaq üçündür.

Ey gidi dünya, cəmi 20-25 il bəs elədi ki, biz təzədən sovet hökumətinə qayıtdıq. Bax, elə bu Bilik Fondunun gördüyü-görəcəyi işlərə baxanda mənim yadıma sovetin "Bilik" cəmiyyəti, orda aparılan yaxşı yeyintilər düşür. Büdcədən pul gəlirdi, qardaşlar da yeyirdilər, ildə bir-iki broşür buraxırdılar, kapitalizmi-zadı guya biabır edirdilər. Axırda biliksizlərin bu cəmiyyəti də SSRİ kimi rədd olub getdi.

Amma belə çıxır getməyibmiş, hardasa tində-bucaqda, pusquda dayanıb fürsət gözləyirmiş. Hələ bir "Təşviqatçı" jurnalı da var idi, yanılmıramsa Azərbaycan KP MK-nın orqanı idi. Arxa səhifəsində əlində raket tutub dünyanı dağıtmaq istəyən Sem dayının karikaturaları olardı. O jurnalı da bərpa edib Əli Əhmədovun redaktorluğu ilə buraxsalar çox yerinə düşərdi.

Bilik Fondunun ilk aksiyası o qədər gülməli idi ki, bir neçə cümlə yazmağa ehtiyac var. Bunlar işlərinə Azərbaycan məktəblərini... qardaş eləməkdən başlayıblar. Layihənin adı da elə bu cürdür: "Qardaşlaşmış məktəblər". Guya layihə çərçivəsində, misal üçün, Ağstafa məktəblisi Lənkərandakı hansısa məktəbə aparılır, onlar da bunların məktəbinə gəlir, olurlar qardaş. Düşük, mənasız bir şeydir, yenə həmin sosialist ənənəsindən irəli gələn, sürü formalaşdırmağa yönəlik aksiyadır. Azərbaycan məktəbliləri onsuz qardaşdır, bunu xarici məktəblərlə eləsələr yenə mənalı görünərdi. O cümlədən, məlum deyil məktəbliləri ora-bura daşımağın xərci hansı büdcədən ödənilir, bunun təhsil və tərbiyə prosesinə xeyri nədir. Sanarsan turizm şirkəti açıblar. Məktəbdə normal dərs keçmək yerinə bir yerlərindən cürbəcür hoqqalar uydururlar.

Yeri gəlmişkən, sovet dövründə qardaş şəhərlər aksiyası var idi, heç bir ictimai-siyasi, sosial yükü olmayan hərəkət idi. Axırda o aksiyadan Bakıda "Dakar meydanı", "Neapol dairəsi" tipli absurd məkanlar qalıb. İndi kim deyə bilər ki, Seneqalın paytaxtı Dakarın Əhmədli ilə hansı əlaqəsi vardır? Üstəlik, zənci görəndə "ul-lyu-lyu" eləyib vəhşi kimi ətrafında hoppanan bir toplumun guya Afrika zəncilərinin azadlıq hərəkatını dəstəkləməsi absurd bir şeydir, gedin özünüzə kələk gəlin.

Bu gülməli aksiyada bir qəribə tendensiya da tərəfimizdən müşahidə edilib. Keçmiş təhsil naziri Misir Mərdanov 2011-ci ildə Şimali Kipr məktəbləri ilə qardaşlaşmış məktəblər layihəsi eləmək istəyirdi. İndi 2014-cü ildə Azərbaycan məktəbləri səviyyəsinə düşüblər. Belə ehtimal etmək olar ki, yapizm 3-4 il də davam etsə, hər məktəbdə "qardaşlaşmış siniflər" proyektinə ehtiyac duyulacaq. Vəziyyət bu dərəcədə gərgindir. Uşaqlar bir-birinin gözünə sirkul soxurlar.

# Azərbaycanın NATO-dan çəkinməsinin dörd səbəbi - şərh

## Alyansa üzvlüyün ləngiməsi təkcə hakimiyyətin konyuktur maraqları ilə bağlı deyil; həm də acı Ukrayna "təcrübəsi"ni ciddiyə alan Bakı Moskva və Brüssel arasında hələ bir müddət də sıxılmış durumda qalmalı olacaq...

**Azərbaycanla NATO-nun münasibətlər tarixi 20 ildən artıq bir dövrü əhatə edir. 1994-cü ilin əvvəlində, alyansın Brüssel sammitində NATO ilk dəfə olaraq Avropanın digər ölkələri üçün "Açıq qapı" siyasəti elan elədi və blokun Şərqə doğru genişlənməsinin əsasını qoydu. Həmin sammitdə alyans üzvləri "Sülh naminə tərəfdaşlıq" planı qəbul etdilər və ATƏT strukturlarına daxil olan dövlətlərin hamısına NATO-ya inteqrasiya prosesinə başlamağı təklif elədilər.**



Qısa müddətdə Şərqi Avropanın və keçmiş SSRİ-nin 30 ölkəsi, o sırada Azərbaycan 4 may 1994-cü il tarixdə həmin plana qoşuldu. Məhz bu tarix alyansla ölkəmizin tərəfdaşlıq münasibətlərinin başlanğıcı kimi əlamətdardır.

Bakı ilə Brüsselin 20 illik tərəfdaşlıq əlaqələrini, ələlxüsus da son illərin əməkdaşlıq təcrübəsini qiymətləndirərkən belə qənaət hasil olur ki, Azərbaycan rəhbərliyi əgər bir yandan, Şimali Atlantika bloku ilə əlaqələri qiymətli sayırsa da, digər yandan, NATO-ya inteqrasiya prosesinin dərinləşməsi və sürətlənməsində bir elə maraqlı da deyil. Bu günədək Azərbaycan iqtidarı nəinki NATO-ya üzv olmaq haqda hansısa rəsmi müraciətlərdən yayınır, həm də prosesin yeni inteqrasiya mərhələsinə - alyansla intensiv dialoq fazasına keçməsini hər vəchlə ləngidir.

Beləcə, bir çox başqa xarici siyasət məsələlərində olduğu kimi, ölkə rəhbərliyi vaxtı uzadır və olduqca ehtiyatlı və qeyri-müəyyən bir mövqeyə üstünlük verir. Bu mövqeyi məşhur uşaq oyunundakı sözlərlə belə ifadə eləmək olar: "Bəli və yox - amma danışmamaq". Məsələ ondadır ki, rəsmi Bakı NATO-ya inteqrasiya prosesindən tamamilə yayınmaq da istəmir - bu, ölkənin marağında deyil və eyni zamanda hakimiyyətin özü üçün böyük risk vəd edir. Ötə yandan, NATO-nun xeyrinə birmənalı seçim eləmək və inteqrasiya ilə bağlı tələsmək də istəmir, çünki o halda bu, Moskva və Tehranla münasibətlərin arzuolunmaz şəkildə pisləşməsinə gətirə, Qarabağ nizamlanmasına gözlənilməz təzirlər göstərə və Bakının konyuktur siyasi manevr imkanlarını əhəmiyyətli dərəcədə daraldardı.

Üstəgəl, strateji perspektivdə, "NATO standartları" həyatın bütün sferalarına daxil olduqca, bu, mövcud hakimiyyət sisteminin siyasi özünüqorunması üçün real problemlər yarada bilər. O üzdən gah qabağa, gah da geriyə addımlar atılır. Özü də belə imitasiyalı manevrlər üçün dünyada və postsovet məkanında konfrontasiyalı hadisələrin hazırkı konteksti çox geniş imkanlar yaradır.

Bununla belə, son zamanlar xüsusən də "Ukrayna olayları" və "Rusiya hədələri" amili ciddiyə alınmaqla NATO-Azərbaycan qarşılıqlı münasibətlər məsələsi yenidən fəal müzakirə predmetinə çevrilib və daha böyük siyasi maraq kəsb edir.



> **"Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın ərazi bütövlüyünə Kremlin neoimperiya planlarından qaynaqlanan real təhlükələrə qarşı NATO hələ ki dəqiq zəmanətlər və real kontur-tədbirlər proqramı təklif eləmək iqtidarında deyil..."**

Yada salaq ki, ta son anadək NATO-ya üzvlüyə əsasən Gürcüstan, Ukrayna və Moldovanın adı hallanırdı *(GUAM ölkələri arasında)*, Azərbaycan isə nə özü israrlı səylər göstərirdi, nə də məqsədli şəkildə onu ikinci plana saxlayan Brüssel Bakını tələsdirirdi.

Dünyada və postsovet məkanında Qərb-Rusiya qarşıdurması ilə, Güney Qafqazda dominantlıq uğrunda geosiyasi mübarizənin kəskinləşməsi və regionun geostrateji önəminin artması ilə xarakterizə olunan mövcud situasiya kontekstində NATO bölgənin açar ölkəsi olan Azərbaycanla əməkdaşlığa daha böyük və ciddi diqqət ayırmağa başlayıb. Belə təəssürat yaranır ki, Vaşingtonla Brüssel Azərbaycanın alyansa üzvlük prosedurunu tezləşdirməkdən daha çox, - onlar başa düşürlər ki, üzvlük böyük risklərlə bağlıdır və uzun zaman apara bilər, - rəsmi Bakının öz siyasi mövqeyində NATO-ya inteqrasiya və üzvlüyün xeyrinə aydın işarənin verilməsində maraqlıdır. Başqa sözlə, Azərbaycanın geosiyasi və energetik əhəmiyyəti nəzərə alınmaqla bu gün Bakıdan əsla NATO-ya ərizə deyil, NATOyönlü aydın və sabit mövqe tələb olunur.

Rəsmi Bakı isə hər vəchlə belə bir əsas sualdan yayınmaqda davam edir: o, NATO üzvü olmaq istəyirmi və bu məqsədin reallaşması üçün aktiv şəkildə "işləməyə" hazırdımı? Həmçinin müəyyən qədər belə bir qəribə situasiya da davam etməkdədir: Azərbaycan hakimiyyəti daim Avroatlantika məkanına inteqrasiya kimi strateji kursa sadiq qaldığını, Brüsselə əməkdaşlıqda maraqlı olduğunu bəyanlasa da, eyni zamanda öz mövqeyini birmənalı şəkildə müəyyənləşdirməkdən və NATO-ya üzvlükdə maraqlı olduğunu rəsmən səsləndirməkdən imtina edir. Alyansın Uels sammiti Azərbaycanla blok arasında telləri bir qədər möhkəmlətsə də, hələ ki Bakının Brüsselə əməkdaşlığı sürətləndirməsi və dərinləşdirməsi üçün nə dərəcədə hazır olmasına şübhələri aradan qaldırmadı.

Azərbaycanın bu məsələdə öz mövqeyini aydın şəkildə ifadə eləməkdən qaçması və NATO-ya üzvlüyə tələsməməsinin kifayət qədər ciddi səbəbləri var. Əvvəla, rəsmi Bakı siyasi reallıqları və riskləri nəzərə alaraq NATO-ya üzvlük üçün əlverişli geosiyasi şərait təmin edilənədək özünün nüfuzlu qonşuları olan Rusiya və İranla münasibətləri pozmaq istəmir. Bakı, habelə Gürcüstan və Ukraynanın acı təcrübəsinə əsaslanaraq NATO-dan öz təhlükəsizliyinin, suverenliyi və ərazi bütövlüyünün xarici təhdidlərdən qorunması üçün daha dəqiq zəmanətlər gözləyir və bunlar olmadan özünü əlavə risklərə atmağı arzulamır.

İkinci tərəfdən, qeyri-müəyyən vəziyyətin qalması və ehtiyatlı balanslı siyasətin izlənməsi bu gün sözsüz ki, konyuktur manevr sərbəstliyini saxlamağa çalışan Bakının praqmatik maraqlarına tam cavab verir. NATO ilə tərəfdaşlığın dərinləşməsi və təşkilata üzvlük prosedurunun sürətlənməsi ölkədə həm də sistemli dəyişiklikləri, o cümlədən liberal islahatları, demokratikləşmə və korrupsiya ilə real mübarizəni diktə edir ki, rəsmi Bakı əlbəttə ki, hələlik bunda həvəsli deyil.

Azərbaycan üçün həlledici olan Qarabağ məsələsində alyansın əlahiddə və amorf mövqeyi də Azərbaycan cəmiyyəti və rəsmi Bakının NATOyönlü mövqeyinin güclənməsinə xidmət eləmir. Sonuncu motivi - əgər o, həqiqətən mövcuddursa - tamamilə məntiqli saymaq lazım gəlir. Düzdür, Uels sammitində alyans ölkələri Ukraynanın, Gürcüstanın, Moldova və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədilər və bu, nikbinlik yaradır. Di gəl ki, sadalanan ölkələrin suverenliyi və ərazi bütövlüyünə Moskvanın neoimperiya planlarından qaynaqlanan real təhlükələrə qarşı NATO hələ ki dəqiq zəmanətlər və real kontur-tədbirlər proqramı təklif eləmək iqtidarında deyil. Odur ki, Bakının ehtiyatlı, balanslı və gözləmə mövqeyini anlamaq olar.

❑ **Analitik xidmət**

# Con Kerrinin məktubu

**Azərbaycan hakimiyyəti sərt beynəlxalq tənqidlərlə üzləşdiyi bir zamanda ABŞ dövlət katibi Con Kerri prezident İlham Əliyevə "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyi ilə əlaqədar təbrik məktubu göndərdi.**



Məktubda ABŞ-ın enerji ehtiyatlarının inkişafına, Avropa və dünyanın enerji təchizatına töhfə vermək üçün səy göstərən və həmçinin güclü, müstəqil dövlətə çevrilən Azərbaycanla hərtərəfli əməkdaşlıq etdiyi qeyd edilir.

Sonda dövlət katibi insan hüquqları və demokratiyanın müdafiə olunması zərurətini vurğulayır.

"Azərbaycan 96 il öncə ümumbəşəri demokratik dəyərlərə sadiqlik göstərən ilk müsəlman dövləti olaraq insan haqları və əsas azadlıqlar sahəsində lider rolunu oynamışdır. Demokratik inkişaf sayəsində Azərbaycan sözügedən lider dövlət rolunu özünə qaytara bilər. Bizim münasibətlərimizin qərarlaşdığı üç sütun - təhlükəsizlik, enerji və iqtisadi əməkdaşlıq və nəhayət, demokratiya və vətəndaş cəmiyyətinin inkişafı Azərbaycanın daha güclü, daha sabit və daha tərəqqili olması üçün mühümdür", deyə məktubda qeyd edilir.

Avropa Parlamentinin Azərbaycan hakimiyyətini kəskin tənqid edən sənədindən sonra ABŞ dövlət katibinin rəsmi Bakıya doğru reveransı birmənalı qarşılanmadı. Ağ Evin Azərbaycan iqtidarına jestinin nüfuzlu hüquq müdafiəçilərinin həbsi ilə demək olar ki, eyni vaxta təsadüf etməsi düşündürücüdür.

Vaşinqtonun mövqeyi ilə Avropa Parlamentinin rəsmi Bakıya münasibətinin təzad təşkil etməsi barədə də düşünməyə dəyər.

Vurğulayaq ki, son illər ərzində Azərbaycan hakimiyyətinə beynəlxalq qurumlar tərəfindən edilən təzyiqlər, nəinki heç bir müsbət nəticə vermir, əksinə, rəsmi Bakının öz siyasi rəqiblərinə qarşı daha sərt və amansız davranması ilə sonuclanır. Rəsmi Bakı anlayır ki, Azərbaycanın əlverişli geosiyasi məkanda yerləşməsi, zəngin enerjidaşıyıcılarına malik olması iqtidarın manevr imkanlarını genişləndirir. Azərbaycan hakimiyyəti "beynəlxalq auksion"un getdiyini bildiyindən, "bazar şərtlərini" öz xeyrinə dəyişmək istəyir. Bir halda ki, əsas "alver predmeti" enerjidaşıyıcılarıdır, deməli, insan haqları ilə bağlı tələblər nəzərdən belə keçirilməməlidir.

Digər tərəfdən, beynəlxalq təşkilatların tələbləri qarşısında geri çəkilmək, Azərbaycan iqtidarının zəifliyi barədə ictimai rəy formalaşdıra bilər ki, bu da rəsmi Bakı üçün "arzuolunmaz verdikt" kimi qiymətləndirilə bilər.

Belə idarəçilik müxalif düşüncənin özünü aradan qaldırır. Fikir plüralizmi olmayan cəmiyyətlərin isə gec-tez iflasa uğraması qaçılmaz olur. Sağdan, soldan siyasi rəqiblərdən "təmizlənmə" mübarizəni hakimiyyət dəhlizlərinə transfer etmiş olur.

Nəzərə alsaq ki, beynəlxalq qurumların hesabatlarında Azərbaycanda ayrı-ayrı maliyyə qruplaşmalarının əllərində silahların toplaşması fikri vurğulanır, belə idarəçiliyin nələrə gətirib çıxara biləcəyini proqnozlaşdıra bilərik. Təhlillərdən çıxan nəticələr isə son dərəcə bədbin proqnozlara əsas verir.

Deyilənlərə onu da əlavə etmək olar ki, siyasi məhbus problemi, yalnız həmin şəxslərin azadlıqdan əsassız yerə məhrum edilmələri ilə sonuclanmır, eyni zamanda cəmiyyətin təhlükəsizliyini sual altında qoyur. Demokratik mübarizənin heç bir perspektiv vəd etmədiyini, hətta təhlükəli olduğunu düşünənlər, daha riskli addımlara üstünlük verə bilərlər. Bu isə cəmiyyətin iflasını sürətləndirə bilər. Elə Con Kerrinin məktubunda da demokratiya və vətəndaş cəmiyyətinin inkişafından söz gedirdi...

❑ **Azər RƏŞİDOĞLU**

# Səfərini yarımçıq dayandıran BMT missiyasının hesabatında Azərbaycanı nə gözləyir?

## "Müəyyən sövdələşmə var və baş verənlər onun nəticəsidir"

**Xəbər verdiyimiz kimi, İşgəncələrin qarşısının alınması üzrə Birləşmiş Millətlər Təşkilatının Alt Komitəsi (İQAT) Azərbaycanda cəzaçəkmə müəssisələrində qarşılaşdığı maneələr üzündən səfərini dayandıraraq, ölkəni tərk etmək qərarına gəlib.**



Bu barədə "Turan"a BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycandakı ofisindən məlumat daxil olub.

Məlumata görə, Azərbaycanın rəsmi qurumları cəzaçəkmə yerlərinə məhdudiyyətsiz girişlə əlaqədar vəd versələr də, nümayəndə heyətinin həmin müəssisələrin bir neçəsinə ümumiyyətlə daxil olmasına imkan verilməyib. Daxil ola bildikləri cəzaçəkmə müəssisələrində də öz vəzifələrini tam yerinə yetirmələrinin qarşısı alınıb.

Nümayəndə heyəti sentyabrın 14-də fəaliyyətini dayandırıb, lakin bəzi üzvlər Bakıda qalaraq topladığı məlumatlar əsasında Azərbaycan rəsmiləri ilə müvafiq danışıqları davam etdiriblər.

**BMT missiyasının Azərbaycandakı işini yarımçıq qoyaraq ölkəni tərk etməsinə münasibət bildirən İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov qeyd edib ki, onların həbsxanalarda istədikləri yerə buraxılmaması ölkənin imicini korlayan bir hadisədir:** "İstənilən dövlət BMT-nin İşgəncələrə qarşı Konvensiyasına qoşulubsa və ratifikasiya edibsə, bu komitənin ekspertləri istənilən vaxt Azərbaycana gələ bilər və heç bir məhdudiyyət, heç bir şərt qoyulmadan, xəbərdarlıq edilmədən ölkənin qapalı cəzaçəkmə müəssisələrində, saxlanma yerlərində monitorinq apara bilərlər. Yalnız Azərbaycan hökumətinə məlumat verə bilərlər ki, biz gəlirik".

**Elçin Behbudov onu da qeyd edib ki, BMT missiyasının üzvləri həddindən artıq konfidensial iş aparırlar:** "Onlar çox zaman xəbərdarlıqsız gəlirlər, ixtiyarları var ki, eyni cəzaçəkmə müəssisəsinə gün ərzində 3 dəfə baş çəksinlər, istədikləri insanla görüşsünlər. Onlara heç bir şərt, məhdudiyyət qoyula bilməz. Onların həbsxanalara buraxılmaması ölkənin imicini korlayan hadisədir. Belə hadisə olmamalı idi. Onlar qayıdan kimi Azərbaycan haqqında hesabat hazırlayacaqlar, ölkəni tənqid edib bütün dünyaya yayacaqlar. Bu Azərbaycana lazım idimi? Məndə olan məlumata görə, Daxili İşlər Nazirliyi tərəfindən onlara heç bir məhdudiyyət qoyulmayıb. İstər rayonlarda, istərsə də paytaxtda bütün polis idarələrində monitorinq keçirib, razılıqlarını bildiriblər. Penitensiar Xidmət tərəfindən də BMT missiyasına qarşı belə bir hərəkət olmamalı idi".

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri bildirdi ki, Azərbaycan 1996-cı ildə BMT-nin İşgəncələrə qarşı Konvensiyasına qoşulub, Milli Məclis tərəfindən həmin konvensiya ratifikasiya olunub:** "Burada göstərilir ki, hər hansı dövlət tərəfindən işgəncə faktı aşkarlanarsa dövlət həmin faktı araşdırmalı və cavab verməlidir. Hansı dövlət həmin konvensiyaya qoşulubsa, bu komitənin ekspertləri həmin dövlətə məlumat verib, saxlanma yerlərinə xəbərdarlıq etmədən ölkəyə səfər edə bilər və cəzaçəkmə, saxlanma müəssisələrində monitorinqlər apara bilərlər".

**Azərbaycan tərəfinin beynəlxalq missiyanın nümayəndələrinə qarşı bu hərəkətinə münasibət bildirən "Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bildirib ki, Azərbaycan hökumətinin xarici təşkilatlarla hər hansı anlaşması var ki, bu kimi hallarda beynəlxalq konvensiyalarla hesablaşmır:** "Birincisi, Azərbaycan tərəfi bu addımı səbəbindən heç bir təzyiqlər və ya təpkilərlə qarşılaşmayacaq. Çünki baş verənlər ABŞ hökumətinin marağında deyil. Son aylar baş verənləri nəzərə alsaq, QHT-lərə basqılar, sonra həbslər, jurnalistlərin həbsləri və sair, demək olar ki, ən gərgin dövr geridə qalıb və artıq danışıqlar dövrü başlayıb. Müxtəlif revanşlar, tərəflərin bir araya gəlməsi, kompromisə can atması prosesi normal vəziyyətə gətirib çıxarmağa xidmət edir. Təbii ki, buna hələ vaxt var, ancaq proses ona doğru gedir".

**Mehman Əliyevin sözlərinə görə, beynəlxalq təşkilatlara qarşı bu cür davranmaqla Azərbaycan tərəfi göstərir ki, öz qərarlarında israrlıdır:** "Azərbaycan tərəfi mesaj verir ki, mövqeyini dəyişmək niyyətində deyil, onun mövqeyi ilə hesablaşmaq lazımdır. Ancaq Azərbaycan elə bir ölkə deyil ki, bura beynəlxalq güclərin təsiri olmasın. İstənilən halda bir günə istənilən razılaşmanı əldə edə bilərlər. O qədər nəhəng ölkələr var ki, beynəlxalq güclərin qarşısında dura bilmirlər. Azərbaycanla həmin güclər arasında müəyyən sövdələşmə var və baş verənlər də onun nəticəsidir".

❑ **Nərgiz LİFTİYEVA**

# Bu şəhəri dolaşarkən...



**Hüseynbala SƏLİMOV**

**Bakı özü bir mövzudur. Bu haqda çoxdan yazmaq istəyirdik. Əslində yeni Bakı və bakılılar mövzusu daimi mövzulardan biri olmalıdır. Məsələ bundadır ki, şəhər təkcə uca binalara görə şəhər adlanmır. Haradasa ümumi ölkə fonundan seçilən bir şəhər mədəniyyəti və bir şəhər mühiti olur.**

Bu mühit illərlə formalaşır, şəhərə yeni gələn insanlar illərlə onu mənimsəməyə çalışırlar... Bu yaxınların söhbətidir. Bir gənc metronun foyesində mobil telefonla elə ucadan danışırdı ki, ötüb-keçən yalnız ona baxırdı.

Doğrusu, telefonla danışanda niyə görə qışqırmağın lazım gəldiyini mən hələ də bilmirəm. Üstəlik, həmin gənc qışqıra-qışqıra elə sözlər deyirdi ki, adam o sözləri astadan da deməyə çəkinir...

Sovet Bakısını da xatırlayırıq. Bu heç də nostalgiya deyil. Əsla. Amma o vaxt Bakıda kimsə ucadan, qışqıra-qışqıra danışanda deyirdilər ki, bu adam əyalətdən gəlmədir. Əksər hallarda da bu sosial "diaqnoz" düz çıxırdı. İndi bir qədər başqa məqamdır.

Bu illər ərzində çox küləklər əsdi, çox yağışlar yağdı. Elə Bakının da təkcə xarici görkəmi deyil, həm də məzmunu dəyişdi. İndi nəsillikcə bakılı olduğunu deyə bilən adamların sayı o qədər də çox deyil...

Amma bu yazıda məqsəd təkcə əyalət-mərkəz söhbətinə qapılmaq deyil. Bakılılar xarici görkəmə və "aksesuarlar"a görə biri-birindən o qədər də fərqli təsir bağışlamırlar. Zahirən insanlar hamısı demək olar ki, eyni görkəmdədir...

Amma müasir Bakıdan danışanda müasir informasiya texnologiyalarının gətirdiyi problemləri də qeyd etməmək olmur. Birini əvvəldə dedik. Amma o elə bir problemdir ki, ondan bir cümlə ilə ayrılmaq olmur.

Bəli, insanlar küçədə, avtobusda, metroda nəinki ucadan danışmağı, hətta qışqırmağı özlərinə ar bilmirlər. Halbuki bizə uşaq yaşlarından öyrədirdilər ki, ictimai yerdə ucadan, qışqıra-qışqıra danışmaq olmaz...

Bu hələ hamısı deyil. Qatarın, avtobusun içinə diqqət yetirsən, hamının əlində bir telefon görərsən. Bütün diqqətləri də oradadır... Bəzən elə olur ki, gənclərin, cavanların başı telefona elə qarışır ki, qarşılarında ayaq üstə dayanan qocanı, hamilə qadını və ya qızı görmür, durub onlara yer vermirlər...

Bəlkə bu da bir ayrı müzakirənin mövzusu olmağa layiqdir. Məsələ bundadır ki, Azərbaycanda bir teleofonomaniya yaranıb.

Bir də görürsən ki, başı telefona qarışmış gənc az qalır lap adamın üstünə çıxsın, onu tapdasın... Nə ictimai yer bilirlər, nə də avtomobillərin hərəkətinə fikir verirlər, nə də ki, böyük-kiçik tanıyırlar...

Özlərini də müasir, az qala "avropalı" hesab edirlər. Amma mədəni insan həmişə özünə və ətrafına diqqətli olur. Təəssüf ki, getdikcə insanlar bu qayda haqda olduqca az düşünür, əksər hallarda isə onu yada salmırlar...

Bakılılar elə düşünür ki, Bakının paytaxt olması artıq hər şey deməkdir. Amma heç də belə deyil. Sovetlərin vaxtında insanlar Leninqradı mədəni bir paytaxt hesab edir, Moskvaya isə "böyük kənd" deyirdilər.

Bu kəndə qarşı həqarətli münasibət deyil. Amma şəhər hər halda kənddən fərqli olmalıdır. Ən böyük dərdlərdən biri də şərq bazarlığının geniş yayılması və az qala bütün şəhəri bürüməsidir. Guya ki, ucuzluq yaratmaq məqsədi ilə hər yerdə ticarət yarmarkaları açırlar.

Əslində orada satılan mallar digər yerlərdəkindən heç də ucuz deyil. Onların şəhərə verdiyi görkəm isə sözün əsl mənasında faciədir - meyvə-tərəvəz yerə tökülüb, ayaqlar altında əzilərək ətrafı bərbad vəziyyətə salıb...

Biri-birinə toxunan, az qala biri-birini itələyən insanların səsi-küyü də ki, bir başqa məsələ...

Kimə lazımdır bu? Şəhərdə böyük marketlər var. Orada hər şeyin satışını təmin etmək heç bir problem deyil. Hələ onu demirik ki, marketlərdə mallar da bəzi hallarda bazarlardan ucuz olur...

Bazar heç də o demək deyil ki, orada hər şey ucuzdur. Onsuz da məhsul yetişdirənlər, əsl kənd adamları özləri bazarda oturmur, buna onların sadəcə, vaxtı yoxdur. Qiymətlər də ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, az qala kəllə-çarxa vurur...

Nəticədə şəhər çirkabdan, nəqliyyatın sərbəst hərəkəti üçün problemlərdən başqa heç nə qazanmır. Amma təəssüf ki, şəhər rəhbərliyi bütün bu məsələlərə diqqət yetirməyə çalışmır...

Adam bir az xəyala dalanda gözləri önünə "O olmasın, bu olsun" filmindəki bazar gəlir. Bəli, bircə qoçular çatışmır...

Belə getsə, onlar da olacaq...

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014




**Tərcümeyi-hal:**

**Fərman Nəbiyev Mingəçevirdə doğulub, BDU-nun jurnalistika fakültəsinin məzunudur. 20 yaşından mətbuatda çalışır. İnsan hüquqları və sosial mövzularda çoxsaylı araşdırmaları var. 1999-cu ildən "Mingəçevir işıqları" qəzetinin baş redaktoru, 2005-ci ildən Mingəçevir Valideynlər Assosiasiyasının prezidenti, 2009-cu ildən Mingəçevir Media Mərkəzinin rəhbəridir. 2010-cu ildə Əməkdar jurnalist adını alıb.**

**Evlidir, 2 qız, 1 oğul atasıdır. Həyat yoldaşı ixtisasca musiqi müəllimidir, 15 ildir ki, onunla birgə qəzetdə və QHT sektorunda çalışır.**

# Azərbaycan mediasında gender bərabərliyi

R

*Gender mövzusuna marağının səbəbi:*

*Öz evində haqqı qorunan və hüququnu müdafiə etməyi bacaran insan (fərqi yoxdur, qadın, kişi, ya uşaq olsun) kənara çıxanda da aciz qalmayacaq. Beləcə qarşılıqlı hörmətə, qanuni normalara söykənən bir vətəndaş cəmiyyəti və nəhayət, sivil dünya qura biləcəyik.*

*Gənc bir qadın Mark Tvendən soruşur:*

*-Sizə elə gəlmirmi ki, ən yaxşı hakim qadınlar ola bilər?*

*-Təkcə hakim yox, - deyə Mark Tven etiraz edir, -həm də ən yaxşı cəllad!*

**Bir çox Azəbaycan kişiləri alimenti ödəmir**

Dörd ilə yaxın evlilik həyatını arxada buraxan Samirə Əhmədova üç ildir ki, məhkəmələrdə qalıb. 20 yaşında aldadılaraq qaçırılanda, Moskvaya aparılanda və bir il sonra körpəsini dünyaya gətirəndə bir ömür yolunu sona qədər bu yeni ailə ilə gedəcəyini düşünürdü: "Uşağa öz soyadımı verdim, çünki ərim rəsmi nikaha girmədi. O və valideynləri tez-tez məni təhqir edir, hətta döyürdülər. Bir gün məni notariusa gətirdilər, qızım üçün etibarnaməyə imza atmağı tələb etdilər. Sonra da məni anamı görmək adı ilə zorla "bir həftəliyə" Mingəçevirə yola saldılar. Axırda bildim ki, uşağımı əlimdən almaq üçün bunu ediblərmiş..."

**Samirə xanımın hüquqi nümayəndəsi İnqilab Həsənovun fikrincə, bir çox hallarda qadınlarımız zorakılığa məruz qalanda səslərini çıxarmır, illər keçəndən sonra isə faktı sübuta yetirmək çətin olur. Onun dediyinə görə, 2012-ci ilin əvvəlində uşaq tələbi ilə bağlı Gəncə şəhərində qeydiyyatda olan Rasim Bəxtiyar oğlu Kazımova və onun valideynlərinə qarşı iddia qaldırılıb:** "Proses bir ildən artıq çəkdi, nəhayət, balanı anaya qovuşdura bildik. Bundan sonra Samirə Əhmədovanın əmlak və aliment tələbləri də təmin olundu. Təəssüf ki, Samirənin keçmiş əri də bir çox Azərbaycan kişiləri kimi alimenti ödəmir. Bununla bağlı soydaşlarımızın daha çox məskunlaşdıqları Rusiya ilə ikitərəfli müqavilənin olmaması problemlər yaradır".

**Milli Məclisdə qadınlar 16% təşkil edir**

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı (NHMT) İctimai Birliyinin hesabatına görə Azərbaycanda gender bərabərliyində nisbətən qənaətbəxş sahə müvafiq hüquqi bazanın mövcudluğundadır, lakin müxtəlif qanunlar, o cümlədən gender bərabərliyi ilə bağlı qanun çox vaxt faktiki olaraq işləmir:** "Təəssüf doğuran haldır ki, hətta Azərbaycanın ali qanunverici orqanında belə qadınlar az təmsil olunublar. Hazırda Azərbaycan parlamenti üzvlərinin yalnız 16%-i, başqa sözlə desək, 20 nəfəri qadınlardan ibarətdir. Halbuki BMT üzvü olan dövlətlərin qadınların vəziyyətinə həsr olunmuş 1995-ci il Pekin konfransında qəbul olunmuş sənəddə göstərilir ki, qərarların qəbulunda cinslərdən birinin iştirak payının 30%-dən az olmadığı təqdirdə cəmiyyətin gender problemlərini həll etmək mümkündür".

"İslam qaydalarına görə kişi güclü cins deyil, qadın da zəif cins deyil". Bu fikir isə İran prezidenti Rohaniyə məxsusdur. Onun sözlərinə görə, qadınlara bərabər imkanlar, müdafiə və sosial hüquqlar yaradılmalıdır.

**Qadın kişinin görəcəyi işi görə bilərmi?**

**Qadınla kişi arasındakı fərqlilikdən bəhs edən İlqar Kamil yazır ki, İslama görə qadın işləyə, pul qazana bilər, sadəcə bu, onun borcu deyil, lütfüdür:** "İslam təlimlərinə əsasən, evin maddi təminatı kişinin vəzifəsidir, qadınsa evi eşqlə, məhəbbətlə təmin etməlidir. Yerdəyişmələr baş verəndə, məsuliyyətlər qarışanda ailə dağılır, məhvə sürüklənir".

**"Gənclərin Sosial İnkişafına Dəstək" İctimai Birliyinin sədri Rövşən Bağırov da eyni cür düşünür. O, cəmiyyətdə kişilərlə qadınların hüquq bərabərliyinin tərəfdarı olsa da, başqa cür bərabərliyi qəbul etmir:** "Çünki bu, ən azından fiziki baxımdan ola bilməz. Qadın kişinin görəcəyi işi görə bilməz. Belə olduğu halda hansı bərabərlikdən söhbət gedə bilər? Mən qadınların işləməyinin əleyhinə deyiləm, sadəcə rəhbər ola bilməz qadın. Qadından idarəedən çıxmaz. Bu, Avropanın ortalığa atdığı bir temadır, bizim cəmiyyət üçün çox təhlükəli bir məsələdir. Ailə institutunu bizdə dağıtmaq istəyirlər".

**"Sonra deyirlər ki, qadınlar bacarmırlar..."**

**"Qadınları məhz qadın olduqlarına görə vəzifəyə qoymaq olmaz". Bu fikri Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova səsləndirib. O, mediainfo.az-a açıqlamasında vurğulayıb ki, bəzən qadın olduğuna görə qadın irəli çəkilir:** "Bir çox rayon icra hakimiyyətlərində belə bir proses getdi. Sıravi bir müəlliməni icra hakimiyyətində müavin təyin edirlər. Amma bir şey nəzərə alınmır ki, idarəetmə özü bir elmdir. O pilləyə çatmaq üçün hələ idarəetmənin aşağı pilləsində olmaq lazımdır, öyrənmək lazımdır, sonra yüksək pilləyə çıxıb kiməsə dərs vermək olar. Qadın irəli çəkilir, amma işinin öhdəsindən gələ bilmir, o kənarlaşdırılır, sonra deyirlər ki, qadınları irəli çəkirik, onlar bacarmırlar".

**Psixoloq Azad İsazadə problemin kökünü kişilərə təklif olunan imkanların qadınlar üçün eyni dərəcədə əlçatan olmamasında görür:** "Onların hüquqlarını tələb etmələri çox vaxt uğursuzluqla nəticələnir".

**Mülkiyyətə sahib olmayan Azərbaycan qadını**

**Bir çox ekspertlər mülkiyyətə sahib olmağı vətəndaş azadlığının, şəxsiyyətin müstəqilliyinin əsas göstəricisi hesab edirlər. Media və Demokratiya İnstitunun direktoru Mehriban Vəzirin qənaətinə görə, bu cəhətdən ötən əsrin əvvəllərində Azərbaycan qadınının vəziyyəti indikindən yaxşı idi. Belə ki, o dövrdə qadın daha çox xüsusi mülkiyyətə sahib idi və bu mülkiyyəti üzərində hüquqları tanınırdı:** "Atanın mülkiyyəti övladlar arasında bölünürdü, amma ananın mülkiyyəti toxunulmaz sayılırdı. Heç kimin ona müdaxilə etməyə ixtiyarı çatmırdı, ana onu oğluna, gəlininə, hətta kimə istəsə verə bilərdi".

M.Vəzirin fikrincə, bu gün Azərbaycanda bütün mülkiyyət müəyyən zümrənin əlindədir, onların 96%-i isə kişilərdir, qalan 4%-inin də 95 %-i formal olaraq qadınlara məxsusdur, amma reallıqda qadınların ona əli çatmır.

Kişi və qadınlar arasında resurs və imkanların *(iqtisadi iştirak və imkanlar, təhsil dərəcəsi, siyasi səlahiyyət, sağlamlıq və həyatdaqalma)* necə bölüşdürülməsi Dünya İqtisadi Forumunun hər il Qlobal Gender Bərabərliyi hesabatında əksini tapır. Ötən ilin oktyabrında yayılan hesabatda 136 ölkə arasında İslandiya 1, Finlandiya 2, Norveç 3, İsveç 4-cü yerdə qərarlaşıb: "Cənubi Qafqaz ölkələri arasında lider Gürcüstandır (86). Sonra Ermənistan (94) və Azərbaycan (99) gəlir".

**Günahkar xəstə və həkim deyil**

Azərbaycanda ana və uşaq ölümünün səviyyəsi Avropa ölkələrində olduğundan dəfələrlə çoxdur. Londonda qərarlaşan "Uşaqları qoruyun" yardım təşkilatının məlumatında Azərbaycan anasının vəziyyəti 178 ölkə arasında 99-cu yerlə qiymətləndirilib. Azərbaycanda 2010-cu ilin statistikasına görə hər 1000 doğuşa 1 ana ölümü düşür. Müqayisə üçün ərazisi və əhalisi Azərbaycan qədər olan Avstriyada vəziyyət Azərbaycandan 18 dəfə yaxşıdır: Avstriyada hər 18000 doğuş 1 ana ölümü ilə nəticələnir.

**Mingəçevir Valideynlər Assosiasiyasının icraçı direktoru Yeganə Nəbiyeva deyir ki, neftlə zəngin olan ölkədə maliyyə kasadlığı üzündən kasıb qadınların evlərdə və ya acınacaqlı şəraiti olan xəstəxanalarda doğmağa məruz qalmalarına Azərbaycan mediası lazımınca diqqət ayırmır:** "Onlar xəstəni və ya həkimi günahkar kimi təqdim edir, amma həmin insanları bu vəziyyətə salan hökuməti pozitiv öhdəliklərini yerinə yetirmədiyinə görə ciddi tənqid etmirlər".

**Gender bərabərliyində medianın rolu**

Gender bərabərliyi üçün medianın rolunu necə artırmaq olar? Bu sualla bir neçə QHT və media nümayəndəsinə müraciət etdik. "İdeal Gənclər" İctimai Birliyinin sədri Teymur Əzizov bildirdi ki, media rəhbərləri arasında qadınların sayı artmalıdır, qərarvermə prosesində qadınların kişilərdən asılılığı azalmalıdır. "Gənc Liderlər" Təhsil, Təlim və İnkişaf İctimai Birliyinin rəhbəri Səbinə Ələkbərovanın dediyinə görə, qadınların pozitiv imicini təbliğ etmək, uğur hekayələri yazmaq olar. «Oksfam» təşkilatının Media, Kommunikasiya və Kampaniya üzrə məsul işçisi Ceyran Bayramova gender mövzusunda məqalələrin professional səviyyəsini artırmağı, jurnalistlər üçün təlim və seminarlar, gender mövzusunda məqalə, araşdırma və foto müsabiqələr təşkil etməyi vacib sayır.

Müstəqil jurnalist Vəfa Fərəcovanın fikrincə, media qurumları hüquq-mühafizə, icra, təhsil və səhiyyə orqanları ilə birgə vəziyyəti yerində araşdırmalıdır. "RUH" Jurnalistləri Müdafiə Komitəsinin icraçı direktoru Əvəz Rüstəmov isə düşünür ki, ictimai sektorda fəallıq artırılmalıdır ki, jurnalistlər də həmin fəallığı işıqlandırmaqla prosesə töhfə vermiş olsunlar.

**❑ Fərman NƏBİYEV**

Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən «Counterpart İnternational»ın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsi üçün hazırlanıb.

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014

## Azərbaycandan Avropaya böyük mühacir axını başlayıb



# Ölkədən qaçmanın arxasındakı böyük sirr

### QHT sektorunda aparılan həbslərdən sonra ölkədən qaçanların sayı kəskin artıb; Avropa paytaxtları mühacirlərimizə qucaq açıb; siyasi qaçqın statusunu almaq indi heyrət ediləcək dərəcədə asanlaşıb; səbəbi bu yazıda...

**Azərbaycandan Avropaya yeni miqrant axını başlayıb. Bu barədə redaksiyamıza diplomatik mənbələrdən məlumat daxil olub. Həmin məlumata görə, bu axının miqyası 2003-2005-ci illərlə müqayisə oluna bilər. Mənbə iddia edir ki, mühacir statusu almaq istəyənlərin əksəriyyəti QHT sektorunda çalışanlar, müxalifət partiyalarının fəalları, onların ailə üzvləri və bəzi jurnalistlərdir.**

"Xüsusilə Azərbaycanda QHT sektorunda həbslərdən sonra mühacir statusu üçün müraciət edənlərin sayı kəskin artıb. Onlar əsasən Gürcüstan və Türkiyədən keçməklə Avropaya-İsveç və İsveçrəyə daha çox üstünlük təşkil edir-gəlirlər. Bir çox tanınmış və ölkə həyatındakı ictimai proseslərdə fəal iştirak edən QHT rəhbərləri çoxdandır ki, Azərbaycandan sözün birbaşa mənasında qaçıblar. Onlar ən müxtəlif ölkələrdə gizləniblər və Azərbaycanla yalnız xüsusi hallarda və ən yaxınları vasitəsilə əlaqə saxlayırlar. Bir sıra QHT təmsilçiləri isə o dərəcədə konspirativ davranırlar ki, onların hətta ailə üzvləri də harada olduqlarını bilmirlər.

**Mənbəmiz deyir ki, Avropada bu adamları başa düşürlər:** "Qərb institutlarını Azərbaycanda təmsil edənlər hədəfə alınıblar və Avropa onlara qarşı başlayan prosesi dayandıra bilmir. Ona görə də Avropa İttifaqı və digər Qərb paytaxtları qərar veriblər ki, Azərbaycandan qaçan mühacirlərə daha diqqətli yanaşsınlar, nəinki İraqdan, Suriya və başqa bu kimi ölkələrdən. Azərbaycandan qaçanlar bizimkilərdir... "

"Onların bir çoxu ailə üzvləri ilə birgə gəlirlər" deyən, mənbəmiz onu da vurğulayıb ki, siyasi qaçqın statusunu almaq indi heyrət ediləcək dərəcədə asanlaşıb. Vaxtilə ölkədən gedənlər xüsusi kamplarda *(düşərgələrdə)* yerləşdirilirdilərsə, uzun-uzadı sorğu-suallar və araşdırmalar, məhkəmələr tələb olunurdusa, indi bu iş hətta bir həftə ərzində belə həll oluna bilər. Doğrudur, miqrant düşərgələri yenə də prosedurda var; 1 həftə də olsa, qaçqınlar düşərgəyə təslim olur; lakin işin sensasional tərəfi budur ki, artıq bir sıra tanınmış azərbaycanlıya Bakıda ikən, yaxud da Tiflisdə siyasi mühacir statusu verilir. Bu barədə "Yeni Müsavat" qəzetində təkzibolunmaz faktlar var. Lakin həmin statusu alanların bir neçəsi hələ də Bakını tərk etmədiyi üçün onların adlarını açıqlamırıq.

Bu mövzuda daha bir sensasiya nöqtəsi isə budur ki, bugünlərdə Tiflis şəhərində Azərbaycanın bir sıra QHT təmsilçilərinin, jurnalistlərin və siyasi fəalların treninqləri keçirilib. Həmin treninqi Avropaya aid qurumlardan biri maliyyələşdirib. Orada Bakıdan gedən səfirlər də iştirak ediblər. Və treninq iştirakçılarına açıq deyiblər ki, kim istəsə, Azərbaycana qayıtmaya da bilər. Bu təklifi qəbul edənlər olub və geniş ictimaiyyət yaxın günlərdə Avropaya sığınan daha bir neçə azərbaycanlı tanınmışın adlarını eşidəcək.

**Təbii ki, fürsətdən və yaranmış durumdan istifadə edənlər də var. Avropanın Azərbaycan mühacirlərinə qucaq açdığı bir məqamda heç bir təhlükə obyekti olmayanlar da ölkədən çıxmağa başlayıblar. Avropadakı stajlı mühacirlərdən gələn bilgilərə görə, müxalifət partiyalarının sıravi üzvləri bütöv ailələr və hətta tayfalar halında Avropaya axışırlar:** "Onlar təmsil olunduqları partiyaların nə zamansa öz ölkələrində iqtidar ola biləcəyinə ümidlərini itiriblər. Üstəlik, 21 illərini də itiriblər. Bu səbəbdən də xoşbəxtliyi Avropada aramaq fürsətini buraxmırlar. Burada isə Azərbaycan mühacirləri üçün "asan xidmət" təmin olunub. Hətta Çexiya kimi ölkələr də Azərbaycandan qaçan QHT təmsilçilərini qəbul edir, qoruyur və sığınacaq verir".

Bu məqamda bir qeydi yazaq ki, hakimiyyətlə hüquqi problemləri olan bəzi şəxslərin, eləcə də siyasi fəalların Avropaya bu cür və birbaşa axınının əsas səbəblərindən biri də Gürcüstanın Azərbaycanla viza rejiminə keçməsidir. Yaxın günlərə qədər həbs ehtimalından çəkinən QHT fəalı, yaxud jurnalist, partiya funksioneri hər şey aydınlaşana qədər Tiflisdə gizlənə bilirdisə, indi bu, problemlidir. "Yeni Müsavat" bir müddət əvvəl iki ölkənin hökumətləri arasında viza rejiminin pərdəarxası məqamlarına toxunarkən qeyd etmişdi ki, yeni razılaşma Gürcüstanda olan mühacirlərin ölkəyə məcburi qaytarılmasını da nəzərdə tutur.

Yazıda qeyd olunurdu ki, viza rejiminin tətbiqi ilk növbədə siyasi təqiblə üzləşən və Tiflisə sığınan fəalların, müxalif yazarların, Qərbin donor təşkilatları ilə əməkdaşlıq edən QHT üzvlərinin işini çətinləşdirəcək.

"Ayna-"Zerkalo" qəzetlərinin əməkdaşı Rauf Mirqədirovun həbs edib Azərbaycana təhvil verdikdən sonra Türkiyə də ölkəmizdən getmək istəyənlər üçün etibarlı sığınacaq hesab olunmur. Təbii ki, Avropaya indiki kütləvi axının səbəbləri sırasında Azərbaycana qonşu iki ölkənin hökumətin "qara siyahısında" olanların üzünə qapadılması da var. Tiflis və Ankara indi ölkəni siyasi problemlərə görə tərk etmək niyyətində olanlar üçün yalnız müvəqqəti sığınacaq rolunu oynaya bilər. Məqamı gəlmişkən, onu da qeyd edək ki, jurnalist Mirqədirovun ailəsi - həyat yoldaşı və uşaqları İsveçrəyə sığınıblar və ən qısa müddətdə siyasi mühacir statusu alıblar.

Bu məlumatları şərh edən beynəlxalq icmalçılardan biri "Yeni Müsavat"a deyib ki, Azərbaycandakı indiki vəziyyət nə olsa belə, 2003-cü illə müqayisə oluna bilməz və indiki kütləvi axının digər səbəbləri də var: "Avropa Parlamentinin hakimiyyəti sərt tənqid edən qətnaməsindən sonra Azərbaycandan gedənlərin siyasi oturum alması daha da asanlaşacaq. Belə görünür ki, burada Avropa qurumlarının da xüsusi marağı var. Sanki hansısa gizli qüvvələr bu axının daha da sürətlənməsini istəyirlər. Hakimiyyətin ölkədaxili siyasəti aydındır və əlbəttə ki, qanunsuz həbslərdən tutmuş, müxalifət fəallarının təqibi kimi faktlar var. Amma siyasi mühacirət üçün müraciət edənlər sırasında eləələri var ki, heç Azərbaycanda bir müxalifət liderinin adını belə əməlli bilmir. Bu səbəbdən də bu axının yaratdığı bəzi haqlı suallar və qaranlıq məqamlar var".

❑ **Xəbər xidməti**



## Abbas Abbasovla Ziya Məmmədovu birləşdirən dəyər - toyuqlar!

### Sabiq vitse-premyerlə hazırkı nazirin ortaq "Mərcan" toyuq biznesi var

Baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovla nəqliyyat naziri Ziya Məmmədovun dostluq münasibətləri hər kəsə bəllidir. Onları birləşdirən, dostluqlarına yol açan eyni komandada təmsilçilikləri ilə yanaşı, həm də biznes maraqlarıdır. Azərbaycanda çalışan və çalışmış məmurların satıla bilən bütün heyvan növlərinə sevgiləri də bineyi-qədimdən məlumdur.

Bizim məmur kontingentinin demək olar tamamının heyvandarlıq təsərrüfatı var. Respublikanın dağlıq rayonlarının yaylaqları nazirlərin, komitə sədrlərinin qoyun sürülərinin ixtiyarındadır.

Bugünlərdə Bakı mağazalarından birində "Mərcan" adlı toyuğu satıcının bəh-bəhlə tərifləməsi yeni məhsul növü, onun istehsalçısı haqda məlumat toplamağıma səbəb oldu. Toyuğu "Ay pipiyi qan xoruz, gözləri mərcan xoruz" - deyib istehsal edən nəqliyyat nazirinin ailə şirkətidir - "Garant Holdinq". Bu istiqamətdə internetdə axtarış aparıb mövzu haqda bir qədər də məlumat toplamağa qərar verdik. Nə qədər qəribə olsa da, ilk nəticələr sırasında yer alan "Hərəkat dövründə Abbas Abbasovun ləqəbi nə olub?" sərlövhəli yazı diqqətimizi cəlb etdi. Yazıda sabiq müdafiə naziri Rəhim Qazıyev ötən əsrin 90-cı illərinin əvvəllərində Abbas Abbasovla görüşündən danışır.

**Həmin yazıdan sitat:** "Görüşdük. Dedi ki, adım Abbasdır *(Abbas Abbasovu nəzərdə tutur -E.H)*. Sadıq Murtuzayevi *(Abşeron rayonunun o dövrdəki 1-ci katibi)* xeyli təriflədi. Bəlli oldu ki, yenicə Özbəkistandan qayıdıb. Sadıq Murtuzayev onu Xırdalanda yerləşən quşçuluq fabrikinə direktor təyin edib. O, mənə 50 min rubl pul verdi və bildirdi ki, yenə yardım edəcəm. Mən Əbülfəz Elçibəylə görüşdüm və dedim ki, Sadıq Murtuzayev adam göndərib, həmin şəxs də hərəkata 50 min rubl yardım edib. Pulları da qoydum Bəyin qabağına. Bəy dedi ki, pullar səndə qalsın. Cəbhə bölgəsinə, həmçinin hərəkata sərf elə. Mən Bəyə dedim ki, Sadıq Murtuzayevin göndərdiyi bu adam quşçuluq fabrikində işləyir. Onun hərəkata yardım etməsi gərək bilinməsin. Hətta ona kod adı da seçdik: "Quş".

A.Abbasovun quşçuluqla məşğul olmasını Müsavat Partiyasının Sabunçu təşkilatının sədri Rafiq İsmayıl da bugünlərdə "Yeni Müsavat"a müsahibə verərkən demişdi. Bildirmişdi ki, A.Abbasov Azərbaycanda vəzifə tutana qədər sovetlər dönəmində Özbəkistanda Quşçuluq Komitəsinin sədri vəzifəsində çalışıb. Onun dostu, nəqliyyat naziri Ziya Məmmədovun Ucarda quşçuluq ferması inşa etdirməsində A.Abbasovun rolunun nə dərəcədə olduğu bilinmir. Amma belə görünür ki, sabiq baş nazir müavini ilə indiki naziri birləşdirən dəyərlərdən biri də toyuq-cücə sevgisidir.

❑ **E.HÜSEYNOV**

# "Ayılanda gördüm ki, başımın üstündə ağlayır..."

### İlqar Nəsibov baş vermiş döyülmə əməliyyatından və cinayət işindən danışdı

### "Bu işdən hər cür nəticə gözləyirəm"

**Xəbər verdiyimiz kimi, bu il avqusutun 21-də bir qrup şəxsin fiziki təzyiqinə məruz qalaraq ağır xəsarətlər alan hüquq müdafiəçisi İlqar Nəsibova qarşı cinayət işi qaldırılıb. İ.Nəsibova fiziki zorakılıq edənlərdən biri Fərid Əsgərova qarşı irəli sürülən bədənə az yüngül xəsarət yetirilməsi (Cinayət Məcəlləsinin 227.1-ci maddəsi) ilə bağlı ittihamı indi hüquq müdafiçəsinin özünə tətbiq edirlər. Bu haqda İ.Nəsibova sentyabrın 20-də dəvət olunduğu Naxçıvan Polis İdarəsində bildiriblər.**

F.Əsgərov Naxçıvan polisinə İ.Nəsibovun dabanı ilə ayaq barmağını, stəkan atmaqla çeçələ barmağını sındırması haqda polisə şikayət edib. Polis bu şikayəti qəbul edərək İ.Nəsibova adıçəkilən cinayət işini qaldırıb. İ.Nəsibov bu cinayət işi ilə bağlı sentyabrın 22-də yenə də polis idarəsinə dəvət edildiyini deyib. Həm də polis nəzarəti və ya həbsə alına biləcəyini istisna etməyib.

**İ.Nəsibov "Yeni Müsavat"a açıqlamasında son vəziyyəti şərh edərək dedi ki, onu Naxçıvan şəhər Polis İdarəsinə çağıraraq barəsində açılmış cinayət işi ilə tanış ediblər:** "İttiham aktında qeyd edilmişdi ki, Cinayət Məcəlləsinin 227.1-ci maddəsi ilə cinayət işi açılıb. Polis idarəsində həbs-qətimkan tədbiri seçmişdilər. Polis nəzarəti formasında. Sonra izahat almaq istədilər bununla bağlı.



İlqar Nəsibov

Mən də zərərçəkmiş kimi verdiyim ifadələrin üstündə dayandım. Əlavə izahata ehtiyac olmadığını bildirdim. Dedim ki, mənim müalicə hüququmu əlimdən almısız. Müalicə olunmalıyam, başımdan zədələr almışam. Müalicə hüququmun pozulması mənə qarşı işgəncənin bir növüdür".

**Müsahibimiz bildirdi ki, bu mərhələdən sonra ona vəkil təyin edilib. Amma İ.Nəsibov vəkilin xidmətindən istifadə etməyib. Naxçıvanda müstəqil vəkil olmadığını vurğulayan hüquq müdafiəçisi bu səbəbdən də öz hüquqlarını özünün müdafiə edəcəyini dedi:** "10 günə işi yekunlaşdırıb, məhkəməyə yollayacaqlar. Bilirdik ki, bu işin nəticəsi belə olacaq".

**İ.Nəsibov daha sonra baş vermiş insidentin təfərrüatlarını da açıqladı. Xatırladaq ki, F.Əsgərovla yaşadıqları insidentdən sonra hüquq müdafiəçisi ilə danışmaq imkanımız olmamışdı. Buna səbəb onun səhhətindəki problemlər idi. İ.Nəsibov bildirdi ki, hər şey F.Əsgərovun ona avqustun 21-də, axşam saat 8-in yarısı zəng etməsi ilə başlanıb:** "Bu adam mənə 8-in yarısı zəng elədi. Təkid elədi ki, görüşək, danışaq. Mən ondan sonra ofisə getdim. Bu başladı mənə dərdini danışmağa. Mən də ona qulaq asırdım. Ona tez-tez zənglər, mesajlar gəlirdi. Birdən qayıtdı ki, "bəs sənin ofisinin yanında mənimlə problemi olan adamlar var. Çağır bura, ağsaqqal kimi danış". Mən də ona dedim ki, problemini bu ofisə gətirmə, lazım deyil. Bundan sonra Fərid qəfil ayağa durdu, gicgahımdan zərbə vurdu. Necə vurubsa huşum özümdən gedib. 2 saat sonra ayılmışam. Ayılanda da qan içində idim. Gördüm ki, 3-4 nəfər başımın üstündə dayanıb, Fərid Əsgərov da ağlayır ki, gör səni nə günə qoydular, indi bu işi mənim üstümə atacaqlar".

**Müsahibimiz dedi ki, döyülmə nəticəsində 2,5 litr qan itirib. Ardınca həyat yoldaşı Məlahət Nəsibovaya zəng vurduğunu xatırladan hüquq müdafiəçisi F.Əsgərovun həmin hadisədən sonra qaçıb gizləndiyini dedi:** "Hadisədən 1 ay keçəndən sonra da məndən şikayət verib. Mənim sifətimdə 10-a yaxın qırıq, tikiş var. Fərid Əsgərov iddia ərizəsində yazıb ki, guya mən onun ayaq barmağını sındırmışam. Əlinin çeçələ barmağını da nəyləsə zədələmişəm. Mən də dedim ki, əgər onun barmaqlarında nəsə problem olubsa, bu, məni döydüyü zaman baş verib".

**Hüquq müdafiəçisi vurğuladı ki, bu günə qədər F.Əsgərovla düz 2 dəfə üzləşmə olub. Üzləşmə zamanı baş vermiş hadisəni olduğu kimi danışdığını xatırladan müsahibimizə görə, qarşı tərəf hər zaman çarpaz ifadələr verib:** "Hiss edirdim ki, onu təlimatlandırıblar. Çünki ifadələrində ciddi ziddiyyətlər var idi. Deyirdi ki, guya mən birinci dəfə söyüş işlətmişəm və dava bu səbəbdən baş verib".

**İ.Nəsibov bu hadisədən hər cür nəticə gözləyə biləcəyini dedi. Onun sözlərinə görə, hər şeyi zamana buraxıb, baş verənləri izləmək lazımdır:** "Heç nə demək mümkün deyil. Günahım olmaya-olmaya bu maddəni mənə qoymaq hakimiyyətin içindən gələn sifarişdir".

Xatırladaq ki, avqustun 21-də İ.Nəsibov ofisində aralarında F.Əsgərov da olan bir qrup şəxsin fiziki zorakılığına məruz qalaraq vəhşicəsinə döyülüb. Bir neçə gün Naxçıvanda müalicə alıb. Daha sonra müalicəsini davam etdirmək üçün Türkiyəyə gedib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 237 (5946) 23 sentyabr 2014



# Akif Nağı prezidentə müraciət etdi

## “Görün iş nə yerə çatıb ki, şəhid ailəsi, məcburi köçkün haqsızlıqlara dözməyərək xaricə getmək istəyir”

**Akif Nağının sədrlik etdiyi Qarabağ Azadlıq Təşkilatı Ağsuda məskunlaşmış məcburi köçkün, şəhid ailəsinə qarşı haqsızlıqlarla bağlı prezident İlham Əliyevə müraciət edib.**

**Müraciətdə deyilir:** “Şəhid ailəsi, Kəlbəcərdən məcburi köçkün Məmmədova Gözəl Süleyman qızına qarşı edilən haqsızlıqlarla bağlı Sizə müraciət edirik. Gözəl Məmmədovanın həyat yoldaşı Əli Məmmədov Qarabağ müharibəsində fəal iştirak edib, döyüşlərin birində həlak olub. Gözəl Məmmədova 1993-cü ildən Ağsu şəhərində, ”Qərənfil" uşaq bağçasında məskunlaşıb. O, rayonda fəal ictimai iş aparır, ədalətsizliklərə və nöqsanlara qarşı həmişə vicdanlı vətəndaş mövqeyi tutur, xüsusilə də vətənpərvərlik işinin gücləndirilməsi istiqamətində əlindən gələni etməyə çalışır, bu yöndə yol verilən nöqsanların aradan qaldırılması üçün təşəbbüslər edir". **Müraciətdə təəssüflə qeyd olunur ki, rayon icra hakimiyyətinin rəhbərliyi qərəzli mövqe tutur, hətta mənəviyyatsızlığın o həddinə çatırlar ki, onun heysiyyəti ilə oynayır, təhqir edir, həyat yoldaşının şəhidliyini, özünün məcburi köçkünlüyünü lağa qoymaqdan da çəkinmirlər:** “Haqsızlıq o həddə çatıb ki, Gözəl Məmmədovanın məskunlaşdığı uşaq bağçasında rayon icra hakimiyyəti tərəfindən təmir işləri aparılır, orada məskunlaşmış bütün köçkünlərin otaqları təmir olunur, yalnız onun yaşadığı otağı təmir etməkdən imtina edirlər. Bununla şəhid ailəsindən intiqam aldıqlarını göstərmək istəyir, bu cür səviyyəsizlik və mənəviyyatsızlıq edirlər. Rayon rəhbərliyi ”Şəhid ailələri haqqında" Qanuna uyğun olaraq onu nə evlə təmin edir, nə də yaşadığı otağı təmir edir".

**Müraciətdə deyilir:** “Ola bilər ki, bu, Sizə xırda məsələ kimi görünsün. Amma bu, elə-belə məsələ deyil, dövlətçiliyə, torpağa, vətənə münasibət məsələsidir. Bu cür haqsızlıqlar insanın əhval-ruhiyyəsinə mənfi təsir göstərir, vətənpərvərlik ruhuna zərbə vurur. Görün iş nə yerə çatıb ki, şəhid ailəsi, məcburi köçkün Gözəl Məmmədova bu haqsızlıqlara dözməyərək ölkə vətəndaşlığından imtina edərək, xarici ölkələrdən birinə çıxıb getmək istəyir. İnanırıq ki, müraciətimizə diqqətlə yanaşacaq, bir şəhid ailəsinə, yurdundan didərgin salınmış bir məcburi köçkünə qarşı edilən haqsızlıqların aradan qaldırılması üçün tapşırıqlarınızı verəcəksiniz. Əvvəlcədən təşəkkürümüzü bildiririk”.

❑ Cavid TURAN

# Məmur övladlarına İnstagram zərbəsi...

## Sosial şəbəkələr bəzi məmurların vəzifələrini itirmələrinə səbəb olub; “papanın gül balaları”nın özbaşınalığı nəticəsində həyatını itirənlər də az deyil

**Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yüksək postlarda çalışan məmurların təkcə özləri deyil, övladları, yaxınları haqda yayılan məlumatlar daim ictimaiyyətin diqqət mərkəzindədir. Onlarla bağlı xəbərlər, qeyri-rəsmi söhbətlər, görüntülər daha çox diqqəti cəlb edərək, geniş müzakirələrə səbəb olur.**

Sirr deyil ki, ölkəmizdə məmur övladları əksərən cəmiyyət üçün nümunəvi olmurlar. Onların bəziləri valideynlərinin tutduğu vəzifəyə güvənərək, ciddi qanun pozuntularına yol verir, xoşagəlməz hadisələrlə gündəmə gəlirlər. Mətbuatda bahalı maşınları, “avtoşluq”ları ilə ad çıxaran, qiymətli qızıl-zinət əşyaları ilə öyünən, bahalı villalarını sosial şəbəkələrdə açıq-aşkar reklam edən məmur övladları və onların “şıltaqlıqları” gözdən yayınmır. Qiyməti yüz minlərlə ölçülən maşınlarla Bakıda avtoxuliqanlıq edən məmur balalarının yol verdiyi nöqsanlardan gələn zərbə özlərindən daha çox valideynlərinə dəyir. Məmurların işdən çıxarılmasında özlərinin yol verdikləri nöqsanlarla yanaşı, bir çox hallarda övladlarının da davranışları mühüm rol oynayır...

Əndazəni aşan həyat tərzi sürən bəzi məmur övladlarının özlərini ifşa etdikləri əsas yer isə sosial şəbəkələrdir. Onlar əsasən öyündükləri maşınlarını və dəbdəbəli saraya bənzəyən evlərini instagram səhifələrinə yerləşdirirlər. Təxminən 4 ay öncə nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, deputat Elton Məmmədovun oğlu Aynar Məmmədovun instagram səhifəsində yerləşdirilmiş fotolardan birində onun son model “BMW” avtomobili ilə Zığ şossesində saatda 238.2 kilometr sürət yığdığı avtomobilin bort kompüterinin göstəricilərinə əsasən nümayiş olunurdu. A.Məmmədovun instagram fotolarından məlum olurdu ki, onun kolleksiyasında “Lamborghini Aventador LP700-4" *(qiyməti 440 min 500 dollardan 650 min dollara qədərdir)*, ”Mercedes CLS 63" *(72 min dollar)*, “Ferrari” *(bu maşınların qiyməti 200 min dollardan başlayır)* kimi çoxsaylı dəbdəbəli superkarlar yer alır.

Yeri gəlmişkən, Aynar Məmmədovun rəsmi iş yeri Milli Məclisdir. Yəni o da məmur sayılır. Amma görünən budur ki, deputat oğlunun həyatında ən başlıca yeri qanun layihələri və seçicilər yox, bahalı maşınlar tutur. Buna görə də Aynar Məmmədov maşınlarının sayını getdikcə artırmaqla məşğuldur. Avtomobillərinin qiyməti 15.000 - 650.000 avro arasında olduğunu nəzərə alsaq görərik ki, Aynar Məmmədov üçün pul məsələsi o qədər də böyük problem deyil. İstədiyi avtomobili almağa qadirdir. Elton Məmmədov 10 ildir ki, deputatdır. Aylıq əmək haqqını 2000 manat olaraq hesablasaq 10 il ərzində 240.000 manat pul edir. Bu da sadəcə A.Məmmədovun “Maserati” markalı avtomobilinin qiymətini ödəyə bilər.

Deputatın digər oğlu Elnur Məmmədov isə daha “təvazökar” görsənir. Çünki onun 10-LZ-100 dövlət nömrə nişanlı avtomobillərinin sayı daha azdır.

**Nissan GTR600 Hennessey 150.000 avro**

**Nissan GT-R 140.000 avro**

**BMW X5 60.000 avro**

**Lexus IS Series 50.000 dollar**

**Porsche Panamera 250.000 avro.**




Bu avtomobillərin qiymətləri ümumi hesablandığı zaman 650.000 avro edir. Bu qədər pulları haradan qazanmaqları naməlumdur. Elnur Məmmədov daha çox idman sahəsi ilə maraqlanır və bir neçə ay öncə kiq-boksinq üzrə turnirin qalibi olub.

Məmur övladlarının facebook və “İnstagram” səhifələrində paylaşdıqları şəkilləri işi o yerə çatdırmışdı ki, prezident bir müddət öncə buna sərt reaksiya verərək, “qudurğan” və “harınlamış” məmur övladları kimi ifadələr işlətmişdi.

Hətta oliqarx məmurlar öz uşaqlarını sosial şəbəkələrdən istifadəyə həsrət qoymuş, yalnız sadə həyat tərzini sürmələrini ifadə edən şəkillər yaymaq, adi insanlar kimi yaşadıqlarını ehtiva edən fikirlər paylaşmaq icazəsi vermişdi.

Məmur övladlarının özbaşınalığı o yerə çatıb ki, günün günorta çağı öz bahalı avtomobillərini paytaxtın küçələrində nümayiş etdirməkdən çəkinmirlər. Onların bu “qəhrəmanlığı” indiyə qədər neçə günahsız insanın həyatlarını itirmələrinə səbəb olub. Doğrudur, bəzi məmurlar məhz övladlarının bu özbaşınalıqları nəticəsində ciddi cəzalandırılaraq, vəzifələrindən azad olunublar. Amma üzdə olan budur. Qanları batırılan insanlar da az deyil.

Övladlarına görə vəzifələrindən azad edilən və ciddi şəkildə cəzalandırılan bəzi məmurları sizlərə təqdim edirik.

Xalq artisti, məşhur tarzən Ağasəlim Abdullayevin ailə faciəsinə *(həyat yoldaşı və nəvəsinin ölümü)* səbəb olmuş məmur övladının törətdiyi qəzadan çox yazılıb. Belə ki, xalq artistinin ailəsinə ölüm gətirən bahalı “Mercedes-Benz G-55"in sürücüsü Xalid Mədətov və onun məmur atası Mübariz Mədətov cəzasız qalmadı. Oğlunun bu səhvi nəticəsində Mübariz Mədətov ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədr müavini vəzifəsindən azad edildi.

Məhkəmənin hökmü ilə X. Mədətov 5 il nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə, 12 il həbs cəzasına məhkum edildi.

Övladının yol verdiyi nöqsana görə vəzifəsindən azad olunan məmurlardan biri də sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovdur. Ötən ilin yanvar ayında oğlu Vüqar Ələkbərovla İsmayıllı sakinləri arasında yaranan insident sonrada həmin rayonda böyük etirazlara səbəb oldu.

Mətbuatda “İsmayıllı hadisələri” kimi işıqlandırılan bu hadisə zamanı eks nazirin oğluna məxsus “Çıraq” hoteli və onun bir neçə bahalı avtomobili yandırılıb. Nazirin həmin rayonun icra başçısı olan qardaşı Nizami Ələkbərov da bu hadisələrdən sonra tutduğu vəzifədən azad olundu.

Bir neçə ay öncə Zığ şossesində avtoxuliqanlıq edən polis əməkdaşı Tural Həsənovun atası, Dövlət Gömrük Komitəsinin Yevlax Gömrük İdarəsinin rəisi Əliməmməd Həsənov da övladının ictimai yerdə qaydaları kobudcasına pozduğuna, qanunlara hörmət etmədiyinə görə tutduğu vəzifədən azad edilib.

Həmçinin daxili işlər naziri, general-polkovnik Ramil Usubovun əmri ilə T. Həsənov da polis orqanlarından xaric olunub.

Övladının törətdiyi qəzaya görə işdən çıxarılanlardan biri də Tərtər rayon icra başçısını keçmiş birinci müavini Vidadi Bəylərov olub. Ötən il V. Bəylərovun yeniyetmə oğlu Elxan Bəylərlinin törətdiyi avtomobil qəzası nəticəsində bir nəfər ölüb.

Bir neçə müddət işsiz qalan Vidadi Bəylərova bu yaxınlarda yeni vəzifə verilib.

Tərtər rayonuna yeni icra başçısı təyin edilən Müstəqim Məmmədov tələbə yoldaşı Vidadi Bəylərovu Tərtər Rayon Telekommunikasiya Qovşağının rəisi təyin edib.

Övladının sosial şəbəkədə dəbdəbəli həyatlarını nümayiş etdirməsi bir prokuroru da işindən etdi. Bakı Şəhər Prokurorluğunun İstintaqa nəzarət şöbəsinin rəisi Ramiz Nəbiyevin oğlu Elvin Nəbizadə xeyli sayda pulları və müxtəlif avtomobilləri sosial şəbəkədə nümayiş etdirib.

1988-ci il təvəllüdlü, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunu olan Elvin Nəbizadənin fotosunu paylaşdığı “Volkswagen” və Rusiya istehsalı olan “Niva” markalı avtomobillər onun özünə məxsus olub. Digər “Jeep” markalı bahalı avtomobil isə atası Ramiz Nəbiyevə məxsus olub. “Lexus” markalı avtomobilin sahibi isə Elvin Nəbizadənin böyük qardaşıdır. Prokurorun oğlu yaşadıqları lüks evin fotosunu da sosial şəbəkədə yayıb.

Bütün bunlarla bağlı mətbuatda yazılandan sonra onun atası öz ərizəsi ilə vəzifəsindən azad olunub.

Bir müddət öncə Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun oğlu Elnur İbrahimovun facebook və instagram səhifələrində bahalı katerlərini, həmçinin şəxsi təyyarədə şəkillərini yayması komitə sədrinin başına iş açmışdı.

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 237 (5946) 23 sentyabr 2014

# Azərbaycan "hücum diplomatiyası"nı davam etdirir

## Qarabağ danışıqlarının yeni mərhələsinə rəsmi Bakı ciddi hazırlaşır

**Qarabağ probleminin həlli ilə bağlı danışıqların yeni mərhələsində masa üzərində hansı təkliflərin olacağı haqda hələlik ictimaiyyətə heç bir açıqlama verilməyib. Təbii ki, indidən bunun açıqlanması da doğru hesab oluna bilməz, çünki bu, diplomatik qaydalara uyğun deyil. Ancaq şübhəsiz ki, həm vasitəçilərin, həm də danışıqlar prosesində bu və ya digər formada iştirak edən qüvvələrin hansısa yeni bir ideya və ya təkliflə çıxış edəcəyi gözlənilir. Görünən budur ki, bu dəfə yeni təkliflərin ortaya qoyulmasını diqtə edən tərəf Azərbaycandır.**

Rəsmi Bakının həm davranışları, həm rəsmilərin dilindən səslənən bəyanatlar bütün dünyada son xəbərdarlıq kimi qəbul olunub. Yəni söhbət ondan gedir ki, Azərbaycan artıq səbrinin tükəndiyini, mövcud status-kvonun davam etməsi ilə barışmayacağını, sülh danışıqları nəticə verməzsə, müharibə yolu ilə torpaqlarını azad edəcəyini konkret olaraq ifadə edib. Avqust ayının əvvəllərində ermənilərin törətdiyi təxribatların qarşısı alınarkən Azərbaycanın nümayiş etdirdiyi əzmkarlıq bütün dünyaya bir siqnal oldu.

Bunu anlayan həmsədr ölkələr və beynəlxalq təşkilatlar güman ki, danışıqların yeni mərhələsində yalnız Azərbaycan tərəfinin haqlı mövqeyini özündə ehtiva edən təkliflərdən başqa çıxış yolu olmadığının da fərqindədirlər. Görünən budur ki, münaqişənin çözülməsi ilə bağlı danışıqlar prosesində iştirak edən tərəflər Azərbaycan və Ermənistan rəhbərlərinin təmaslarını artırmağa çalışırlar. Avqust ayının əvvəlində prezidentlərin Soçi görüşü, daha sonra ölkə başçılarının NATO sammiti çərçivəsində təmasları, ardınca Fransa prezidentinin Azərbaycan və Ermənistan prezidentləri ilə birgə oktyabrın sonuna görüş təyin etməsi bəlli faktlardır.

Bu yöndə daha bir addım atılıb; Kremlin mətbuat xidməti Rusiya prezidenti Vladimir Putinin IV Xəzər sammiti çərçivəsində sentyabrın 29-da Həştərxanda Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan prezidentləri ilə görüşəcəyinə dair məlumat yayıb. Heç şübhəsiz ki, Putinin Azərbaycan prezidenti ilə görüşündə Qarabağla bağlı da müzakirələr aparılacaq...

Belə bir ərəfədə Azərbaycanın danışıqlar mərhələsinə çox ciddi hazırlaşdığı və "hücum diplomatiyası"nı daha da gücləndirdiyi müşahidə olunur.

Son günlər xarici siyasətlə məşğul olan Azərbaycan rəsmilərinin Qarabağla və danışıqlar məsələsi ilə bağlı verdiyi açıqlamalar da buna sübutdur.

Azərbaycan bu zaman kəsiyində BMT, NATO, AŞ PA tribunalarından istifadə edərək özünün sərt və konkret mövqeyini ifadə edib.

Yeri gəlmişkən, sentyabrın 22-də Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov rəhbərlik etdiyi nümayəndə heyətinin müşayiəti ilə BMT Baş Assambleyasının 69-cu sessiyasında iştirak etmək məqsədilə Nyu-Yorka işgüzar səfərə yola düşüb.

Bu çıxış zamanı XİN başçısının Qarabağla bağlı kəskin çıxış edəcəyi proqnozlaşdırılır...

Azərbaycanın "hücum diplomatiyası"nın indiyə qədərki mərhələdə verdiyi nəticələr də göz önündədir. Azərbaycan Ermənistanı elə bir şəkildə "dalana dirəyib" ki, düşmən ölkənin oktyabrın 10-da Avrasiya İqtisadi İttifaqına üzv olmaq planlarını pozmağa müvəffəq olub.

Virtualaz.org xəbər verir ki, bu haqda Ermənistanın müxalif "Aykakan Jamanax" qəzeti yazıb.

Qəzetin yazdığına görə, Qazaxıstan XİN-in təmsilçiləri diplomatik kanallarla Ermənistan və Rusiyanı məlumatlandırıblar ki, ola bilsin oktyabrın 10-da Minskdə keçiriləcək görüşə qədər rəsmi Astananın Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyünə dair yekun mövqeyi hazır olmasın.

Məlumata görə, Qazaxıstan XİN bildirir ki, onların yekun mövqeyi ancaq oktyabrın 15-də hazır olacaq. Bu isə o deməkdir ki, Qazaxıstan oktyabrın 10-da Ermənistanın "Putin ittifaqına" daxil olmaq planlarını iflasa uğradacaq.

Xəbərdə bildirilir ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyünü hazırlamaqla məşğul olan erməni diplomatları bundan təşvişə düşərək Rusiya XİN və Putin administrasiyasının nümayəndələri ilə məsləhətləşmələrə başlayıblar.

Rusiyanın Prezident Administrasiyasından bildiriblər ki, onlar Qazaxıstan prezidenti Nursultan Nazarbayevin mövqeyindən narahat olublar. Kremldən deyiblər ki, Rusiya rəhbərliyi Ermənistanın oktyabrın 10-da Avrasiya İqtisadi İttifaqına üzvlüyünü təmin etməkdə qətiyyətlidir.

Xatırladaq ki, bu ilin yazında Avrasiya İttifaqının təsis olunduğu Astana sammitində Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycan prezidenti İlham Əliyevin məktubunu elan etdi. Nazarbayev bildirdi ki, rəsmi Bakı Ermənistanın ittifaqa üzvlüyünün ancaq indiki sərhədləri çərçivəsində mümkün olduğunu bildirir. Nazarbayev digər sammit iştirakçılarını bu mövqeni diqqətə almağa çağırdı.

O zaman Nazarbayevin çıxışı Ermənistan prezidenti Serj Sərkisyanı möhkəm pərt etmişdi və sammiti izləyən jurnalistlər onun sifətinin necə əyildiyini görmüşdülər. Məsələnin mahiyyəti bundan ibarətdir ki, Ermənistan Avrasiya İttifaqına üzv olandan sonra işğal altında saxladığı Dağlıq Qarabağla öz arasında gömrük postu qoymalıdır.

Ermənistan hökuməti isə bildirir ki, sərhəddə gömrük postu qoymaq fikrində deyil. Doğrudur, Sərkisyan Ermənistanın ittifaqa Dağlıq Qarabağla birgə daxil olmasının mümkün olmadığını bildirib, ancaq sərhəddə gömrük postunun qoyulması məsələsi hələ açıq qalır.

Qazaxıstan prezidenti Nursultan Nazarbayev isə Ermənistanın üzvlüyü məsələsində Azərbaycanın maraqlarını müdafiə edib və belə görünür ki, oktyabrın 10-da Sərkisyan Minskdə növbəti dəfə pərt olacaq və İlham Əliyevin diplomatiyasının daha bir zərbəsini üzərində hiss edəcək.




***

Bu arada Fransa prezidenti Fransua Olland da Dağlıq Qarabağ nizamlanmasına dair danışıqlara da maraqlı açıqlama verib.

Olland Dağlıq Qarabağ nizamlanmasına dair danışıqlarda uğur əldə olunmasını arzulayır. Bu barədə Ollandın Ermənistanın dövlət başçısı Serj Sarkisyana Müstəqillik günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir. "Trend" xəbər verir ki, məlumatı Ermənistanın "News.am" agentliyi yayıb.

**Məktubda deyilir: "Arzu edirəm ki, Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri kimi cəlb olunduğu Dağlıq Qarabağ nizamlanmasına dair danışıqlar yaxın gələcəkdə uğurla başa çatsın. Bu məqsədlə sizi oktyabrın sonunda Parisdə qəbul etməyə şadam".**

Azərbaycanın apardığı siyasətin fonunda beynəlxalq miqyasda baş verən digər bir hadisə isə Böyük Britaniya parlamentindəki Liberal Demokratların aparıcı senatoru baronessa Zahidə Mənzur azərbaycanlı məcburi köçkün və qaçqınların öz evlərinə qayıtmasını nəzərdə tutan "Many Happy Returns" (MHR) kampaniyasını dəstəkləməsidir.

Avropa-Azərbaycan Cəmiyyətindən "Trend"ə verilən məlumata görə, baronessa bu kampaniyaya dəstək verdiyni bəyan edib.

Dəstəyini www.manyhappyreturnsidp.com vasitəsilə açıqlayan Z.Mənzur deyib: **"Azərbaycanlı didərginlərin vəziyyəti ilə bağlı məlumatların tirajlanmasında MHR kampaniyasına uğurlar arzulayıram. Ümid edirəm ki, məcburi köçkün və qaçqınlar tezliklə evlərinə qayıdacaqlar".**

Qeyd edək ki, ingilissayağı təbrik mesajı əsasında adlandırılan "Many Happy Returns" kampaniyasının diqqət mərkəzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanı olan 1 milyondan çox azərbaycanlı məcburi köçkün və qaçqın dayanır. Bu kampaniya, həmçinin azərbaycanlı məcburi köçkün və qaçqınların öz evlərinə dönmək arzusuna istinad edir...

***

**Dağlıq Qarabağla bağlı danışıqların yeni mərhələsi müzakirə olunduğu - başqa sözlə, mövcud həssas vaxtda Şotlandiyada keçirilən müstəqillik haqqında referendum və onun nəticələri də diqqət edilməli məsələdir. Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bununla bağlı maraqlı fikirlər səsləndirib. O qeyd edir:** "Bu, ilk hadisədir ki, Ermənistanın prezidenti, xarici işlər naziri və Dağlıq Qarabağın separatçı rejiminin rəhbərliyi operativ münasibət bildirdilər. Bu, ermənilərin Şotlandiya referendumundan gözləntilərinin baş tutmaması ilə əlaqəlidir. Şotlandiya referendumunun nəticəsi Ermənistan rəhbərliyinə və dünya ermeniliyinə yeni təzyiq dalğası yarada bilər: Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalmalıdır. Razılaşdırılmış referendum ssenarisi hazırlamaq olar.

Şotlandiya ilə qalan Böyük Britaniya əhalisinin sosial-iqtisadi parametrləri arasında fərq cüzidir. Ermənistanla *(Dağlıq Qarabağdakı erməniləri də nəzərə almaqla)* Azərbaycanın adambaşına ÜDM-ləri arasındakı fərq 3 dəfədən çoxdur.

Şotlandiyada keçirilən müstəqillik haqqında referendumda Ermənistan tərəfinin əsas "stavka"sı xalqların sərbəst şəkildə öz müqəddəratını təyin etməsi hüququnun reallaşmasınadır. Bu prizmadan Şotlandiyada keçirilən referendumun Dağlıq Qarabağda 1991-ci ilin dekabrın 10-da keçirilən və heç kəsin tanımadığı referendumla müqayisəli təhlilini aparaq:

**1) Plüralistik demokratiya.**

Şotlandiya referendumunda Böyük Britaniyanın tərkibində qalmaq istəyənlərlə Böyük Britaniyadan ayrılmaq istəyənlər öz mövqelərini azad və sərbəst şəraitdə ifadə etdilər.

Dağlıq Qarabağda, Ermənistanda və dünya ermeniliyində heç kim bu vaxtadək Dağlıq Qarabağın Azərbaycanın tərkibinə qayıtmasının mümkünlüyü mövzusunda şərh verməyib, yazı yazmayıb, müzakirə açmayıb.

**2) Referendumun subyekti.**

Şotland xalqı və ya milləti mövcuddur. Rəsmi dil ingilis dili olmasına baxmayaraq şotlandların özlərinin ayrıca dili var. Şotland xalqı həm də ayrıca dini inanca malikdir.

"Dağlıq Qarabağ xalqı", "Dağlıq Qarabağ ermənisi" adlı xalq və ya millət yoxdur. Dağlıq Qarabağdakı ermənilərin dili Ermənistan ermənilərinin dilindən tərkibindəki türk-fars qarışıqlarına görə cəmi 15% fərqlənir. Din baxımından tam eynidirlər. "Dağlıq Qarabağ xalqı" ermənilərin beynəlxalq aləmi çaşdırmaq üçün yaratdıqları saxtalıqlardan biridir. Diaspor ermənilərinin dili, Ermənistan ermənilərinin dilindən 80% fərqlidir. Amma bunu "erməni xalqı" adlandırırlar. Dili 15% fərqlənən "Dağlıq Qarabağ erməniləri"ni isə ayrıca etnos kimi təqdim edirlər.

**3) Qarşılıqlı münasibətlər tarixi.**

Şotlandların ingilislərlə qonşuluq tarixi müharibələr tarixidir. 1200 il ərzində 30 dan çox iri müharibə baş verib. Xırda müharibələri nəzərə almırıq. Amma bu, şotlandların son 300 ildə Böyük Britaniya imperiyasının tərkibində yaşamasına zərrə qədər də maneçilik etməyib.

Ermənilərin Azərbaycan arealında mövcudluq tarixi təxminən 200 ili əhatə edir...

**4) Referendumun keçirilmə şəraiti.**

Şotlandiyada müxtəlif millətlərin və dinlərin təmsilçilərinə qarşı referendumda heç bir təzyiq edilmədi.

Dağlıq Qarabağda əvvəlcə yerli azərbaycanlı əhali soyqırıma məruz qaldı, deportasiya olundu, sonra referendum keçirildi. Dağlıq Qarabağ ermənilərində və Ermənistanda azərbaycanlılara qarşı ksenofobiya indiyədək mövcuddur.

**5) Müstəqillik ideyasına münasibət.**

Şotlandiyada keçirilən referendumda müstəqillik məsələsi təbii, səmimi və könüllü qoyulmuşdu.

Dağlıq Qarabağ erməniləri üçün müstəqillik məcburi ideyadır: Dağlıq Qarabağ erməniləri həmişə azərbaycanlılara düşmənçilik mövqeyində dayanıblar. Osmanlı imperiyasında və İranda öz günahları ucbatından başlarına açılanlar əsasında uydurma tarix yaradıblar. Həmin uydurma tarixi ermənilər özləri ilə birlikdə Azərbaycan ərazisinə daşıdılar. Ona görə Dağlıq Qarabağ ermənilərinin o dövrdəki aktivliyində antiazərbaycançılıq əsas istiqamətlərdən biri idi. Sonradan Dağlıq Qarabağ erməniləri Azərbaycandan ayrılıb Ermənistanın tərkibinə keçmək fikrinə düşdülər... Dağlıq Qarabağ erməniləri birbaşa Ermənistana birləşməyin mümkün olmadığını anladılar. Ona görə müstəqillik ideyasından sui-istifadə etdilər.

Ermənistanda və Dağlıq Qarabağda keç kim gizlətmir ki, Dağlıq Qarabağ erməniləri müstəqillik əldə etdikdən dərhal sonra Ermənistanın tərkibinə birləşmək haqda qərar qəbul edəcək.

**6) Obyektiv nəticəli referendum.**

Demilitarizə olunmuş Dağlıq Qarabağda ermənilər və azərbaycanlıların 10 il birgə yaşamasından sonra obyektiv nəticəli referenduma ümid etmək olar. Bunun üçün əvvəlcə Serj Sarkisyan Dağlıq Qarabağ erməniləri və azərbaycanlıların görüşünə qoyduğu qadağanı aradan qaldırmalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI



# “Xanəndə” dilənçi dərdini “Yeni Müsavat”a danışdı

## Dilənçi Zeynəb: “Mən anadan olandan dilənirəm, bu bizim adətimizdir”

**Bazar günü işimizə həmişəki kimi başlayıb kompüterin arxasına keçib yazı yazırdıq. Bu zaman bayırdan gələn yanıqlı bir səs bizi bir anlıq işimizdən ayırıb pəncərəyə tərəf getməyə vadar etdi. Bu səs 25-30 yaşlarında yanında və belində iki uşaqla oxuyaraq dilənən qadının səsi idi. Onun səsindəki kədər və yanğı bizi onunla həmsöhbət olmağa vadar etdi. Məhəlləyə düşüb qadının səsinin izi ilə arxasınca getdik.**

Tək istəyimiz qadına pul verib onunla söhbət etmək, onu bu gənc yaşında, körpə uşaqları ilə dilənməyə nəyin vadar etdiyini, həyat hekayəsini öyrənmək idi. Cəhdimiz alındı. Binadan onun üçün atılan qəpikləri yerdən toplayan bu qadına yaxınlaşıb istəyimizi bildirdik. Başındakı yaylıq və belindəki uşaqla bizə qaraçıları xatırladan qadından öncə haralı olduğunu soruşduq. Tamamilə başqa, qəribə bir dildə danışan qadın Azərbaycan dilində elə danışırdı ki, onu çətinliklə başa düşmək olurdu. Adının Zeynəb olduğunu deyən 28 yaşlı dilənçi Azərbaycan kürdü olduğunu dedi. Nəyə görə dilləndiyini soruşduqda isə qardaşı xəstə olduğu üçün dilənmək məcburiyyətində qaldığını bildirdi. Belinə qalın bir kəlağayı ilə bağladığı uşağa baxanda onun küləkdən və aclıqdan halsız vəziyyətə düşdüyünü anlamaq çətin deyildi. Belindəki uşağın öz uşağı olduğunu deyən qadın onun hələ 4 aylıq olduğunu bildirdi. Yanındakı 8-9 yaşlarında, saçı pırtlaşıq, üzü çirkli olan qızcığazın da öz uşağı olduğunu və yanında gəzdirməklə ona da bu “sənəti” öyrətdiyini deyən Zeynəb bunun onların həm də adəti olduğunu bildirdi: “Mən anadan olandan dilənirəm. Bu bizim adətimizdir. Həm də imkanımız yoxdur. Yığdığımız pulları kor qardaşımın müalicəsinə xərcləyirik. Onun dərdindən çöllərə düşmüşük. Özümüz Bərdədə yaşayırıq. Bakıda kirayədə qalırıq”.

**Belə gözəl və yanıqlı səslə oxumağı ona kimin öyrətdiyini soruşduqda dilənçi qadın bunu ona heç kimin öyrətmədiyini dedi:** “Biz tərəflərdə hər kəs oxuyaraq dilənir. Biz heç kimə yalvarmırıq ki, pul ver. Sadəcə, oxuyuruq vəssalam. Oxumağı da özümüz öyrənmişik. Bunun üçün hansısa dərs almamışıq”.

**Zeynəbdən özü və uşaqları üçün hansı arzularının olduğunu, uşaqlarının çox körpə olduğunu və onlara özü ilə birgə niyə belə zülm etdiyini soruşduq. O, yorğun və ümidsiz baxışlarla “imkan yoxdur, nə edim?!” cavabını verdi:** “Evin kirayə pulunu dilənib yığdığımız qəpik quruşla veririk. Özümüzə yemək almağa bəzən heç pul qalmır. Bəzən yığdıqlarımızı da polis əlimizdən alır. Bizi harada gördülər tutub pul istəyirlər. Verməyəndə isə polis bölməsinə aparırlar. 20-40 manat alıb buraxırlar. Bəzən bir gündə yığdığımızı elə onlara veririk. Əgər yerində verməsək, bizi Xətaidəki polis bölməsinə aparırlar. Orada bizi 3-4 gün saxlayırlar, döyürlər. Sonra da pul alıb buraxırlar”.

Sonda Zeynəb adlı bu dilənçi qadına “bizim üçün qısa nə isə oxuya bilərsinizmi” dedikdə, qadın “nəzir verin oxuyum”, cavabını verdi. Qadına bir az əvvəl ona pul verdiyimizi xatırlatdıqda, Zeynəb o pulun danışmaq üçün olduğunu, indikini isə oxumaq üçün istədiyini dedi. Biz də qadına oxuması üçün yenidən “nəzir” verdik. Dilənçilərin işlətdiyi və demək olar ki, hər gün eşitdiyimiz alqış tipli sözlər deyib yanıqlı səsi ilə oxumağa başladı. Daha sonra öz yoluna davam etdi...

Onun danışdıqlarının doğru və yalan olduğunu deyə bilmərik. Kim bilir, bəlkə də o, sadəcə olaraq, asan qazanc əldə etmək üçün dilənir və ya bunu özünə sənət hesab edir. Bəlkə də doğrudan da çarəsizdir. Amma hər halda, səsindəki kədər və yanğı istəyərək bu “sənəti” seçmədiyini deməyə əsas verir.

❑ **Günel MANAFLI**
**Foto, Nərgiz LİFTİYEVA**






## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



ORİJİNAL AKSESUARLAR
Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
“SƏDƏRƏK” TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*



**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı , 1 ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq ücün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**
**Əlaqə nömrəsi : (050)-214-40-53**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


**Başsağlığı**

**Müsavat Partiyasının Şəki rayon təşliatı təşkilatın üzvü Şahid və Fuad qardaşlarına əzizlər, “Turkistan” qəzetinin baş redaktoru gənc fəal**
**Fuad Abdurrəhmanlının**
**faciəli ölümü ilə bağlı kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər
BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*
*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində "Space" telekanalının "Etiraf" verilişinin aparıcısı, dələduzluq ittihamı ilə həbs olunan İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. İ.Mirzəyevin hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir. Redaksiyamıza işdə adı zərərçəkən kimi keçən şəxslərdən biri olan Aynur Əhmədovanın məktubu və iş üzrə tərtib olunan ittiham aktı daxil olub.**

# Məşhur teleaparıcının heyrətamiz cinayət dosyesi...

## İlham Mirzəyev əli hər yerdən üzülən insanları necə aldadırmış...



A.Əhmədova məktubunda İ.Mirzəyevin vergi cinayətlərinin araşdırılmamış qaldığını, talama cinayəti üzrə ona ittiham elan edilmədiyini qeyd edir. O, teleaparıcının məhkəmə qarşısına xırda maddələrlə çıxarılmasına diqqət çəkərək bildirir ki, işə baxan hakimlə İlham Mirzəyevin çox yaxşı münasibətləri var və buna qədər də bu hakim teleaparıcının iddiası əsasında qəzetlərə qarşı qərar qəbul edib.

Zərərçəkənin redaksiyamıza təqdim etdiyi ittiham aktında yer alan epizodları oxuduqca teleaparıcının qəbuluna gedən və əli hər yerdən üzülmüş, övlad həsrətində olan insanların pullarını necə mənimsəməsi sadəcə ikrah doğurur.

İttiham aktından aydın olur ki, 10 aprel 2014-cü ildə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi İ.Mirzəyevi saxlamasaydı, o, bu gün də sahibi olduğu falçılıq klinikasında iş başında olacaqdı. Efirdən söylədiyi yalanlarına uyanlar qapısını kəsdirib ondan min bir dərdlərinə əlac umacaq, son qəpiklərini verib nəticə gözləyəcəkdilər...

### "Şirinlik yaradacağam və sizi bir-birinizə qovuşduracağam"

**Həmin gün məlum əməliyyatın keçirilməsinə əsas verən müraciəti hazırda işdə adı zərərçəkən kimi keçən A.Əhmədova edib. İstintaqçılar məsələni araşdırıblar və belə bir ittiham aktı tərtib ediblər. İttiham aktında adı keçən zərərçəkənlərin ad-soyadlarını etik səbəblərdən yazmırıq. Baş prokurorun 1-ci müavini Rüstəm Usubovun təsdiqlədiyi ittiham aktından seçmələri təqdim edirik:**

- Zərərçəkənlərdən biri olan A.H adlı qadın ifadəsində göstərib ki, subaydır, Nəsimi rayonu ərazisində yerləşən "Moskva" univermağında qızıl-zinət əşyalarının alğı-satqısı ilə məşğul olan A.X adlı oğlanla qızıl-zinət əşyaları alarkən tanış olublar. A.X-dan bir oğlan kimi xoşu gəlib, münasibətlərində A.X-nın da ondan xoşunun gəldiyini hiss edib. Fikirləşib ki, A.X ilə daha yaxından münasibəti yaransın və gələcəkdə belə bir insanla ailə həyatı qursun. O eşidib ki, cavan qızlar, xanımlar ailə həyatı qurmaq, xoşu gələn insanla yaxın münasibət yaratmaqdan ötrü falçı yanına gedirlər. Falçı onlara "şirinlik duası" yazır, bunun nəticəsində qızlar istədiyi oğlanla ailə həyatı qurur, xoşbəxt olurlar.

O eşidir ki, "İlhaMed" Tibb Klinikasının direktoru İlham Mirzəyev falçılıqla məşğul olur, bəxt açır, elə dua yazır ki, oğlanı qızın ayağına gətirir, oğlan qıza elə bağlanır ki, ömürlük ondan əl çəkmir. Hələ bu məsələdən əvvəl o, İlham Mirzəyevi televizorda veriliş apararkən görmüş, onu ekstrasens, öncəgörücü kimi tanımış və onun gələcəkdə baş verəcək hadisələrdən xəbər verdiyini, falçılıqla məşğul olduğunu eşitmişdir. O, imkanlı insanla ailə həyatı qurmaq, gələcəkdə daha yaxşı ömür sürmək istəyib və bu niyyətlə də A.X adlı qızıl alverçisi ilə evlənməyinə kömək göstərməsindən ötrü İlham Mirzəyevə müraciət etmək qərarına gəlib. 2 aprel 2014-cü il tarixdə o, Bakı şəhəri, Nərimanov rayonu ərazisində "Cıdır" atçılıq stadionunun arxa tərəfində yerləşən yeni inşa olunmuş çoxmərtəbəli binanın ikinci mərtəbəsində fəaliyyət göstərən "İlhaMed" Tibb Klinikasına gələrək klinikanın direktoru İlham Mirzəyevə müraciət edib. İlham Mirzəyev otağında gəlişinin məqsədini danışıb. İlham Mirzəyev ondan həyatı barədə soruşub, sorğu-sual edib, o isə subay olduğunu, dörd ay əvvəl anasını itirdiyini, sevdiyi oğlanla ailə həyatı qurmaq, oğlanla münasibətlərinin yaxınlaşmasını istədiyini danışıb. İlham Mirzəyev özü ona bildirib ki, "Sən narahat olma, hər şey yaxşı olacaq. Mən həmin sevdiyin oğlanı sənin ayağına gətirəcəyəm. Elə edəcəyəm ki, sizin münasibətləriniz yaxşılaşacaq. Mən sizin münasibətlərinizdə şirinlik yaradacağam və sizi bir-birinizə qovuşduracağam".

### "Oğlan it kimi sənin ayağına gələcək..."

İlham Mirzəyev elə danışıb, adama elə sözlər deyib ki, adam onun bütün sözlərinə inanıb. Adama elə gəlib ki, bu insan həqiqətən də hansısa qeyri-adi gücə, bacarığa malikdir. İlham Mirzəyev deyib ki, "narahat olma, elə edəcəyəm ki, o oğlan it kimi sənin ayağına gələcək, ömürlük səninlə bir yerdə olacaq". Hətta İlham Mirzəyev ona tam əminliklə demişdir ki, "əgər 15 gün müddətində mən dediyim iş görə bilməsəm, o oğlan ayağına düşməsə, mən İlham Mirzəyev olmaram". İlham Mirzəyev söhbətin əvvəlində özü haqqında elə danışmışdır ki, guya xeyirxah insandır, ondan yaxşı insan yoxdur, onun əsas məqsədi insanlara kömək etmək, onların xoşbəxt olmasında vasitəçilik etməkdir, pul onun üçün heç nədir. İlham Mirzəyev demişdir ki, "mənim üçün əsas sənin xoş günündür". O düşünmüşdür ki, gör, bu insan necə də yaxşı insandır.

Beləcə, o, bir neçə dəfə "İlhaMed" Tibb Klinikasına İlham Mirzəyevin yanına gedib və onun qəbulunda olub. İlham Mirzəyev hər dəfə onunla bu cür danışıb və onu tam inandırıb ki, sevdiyi insanı onunla qovuşduracaq. Hər dəfə də oraya gedərkən İlham Mirzəyevin qəbuluna düşmək üçün kassaya 50 manat pul ödəyib və bunun müqabilində kassadan ona qəbz verilib, hər dəfə qəbula girdikdə İlham Mirzəyev pulun ödənilməsinə dair qəbzi ondan alıb. Növbəti dəfə bu məqsədlə qəbula gəldikdə İlham Mirzəyev puldan söhbət açıb və bildirib ki, "bu iş elə-belə başa gəlmir, başqalarına bu işi 4 min avroya edirəm, sənin üçün də hörmətə bu işi 3 min avroya görərəm".

Bir də İlham Mirzəyev ondan sevdiyi oğlanın və özünün ayrı-ayrı fotoşəkillərini istəyib və deyib ki, pulla birlikdə həmin fotoşəkilləri də gətirməlidir. O, 3 min avro pulu, onun və sevdiyi oğlanın fotoşəkillərini İsrail dövlətinə göndərəcək ki, oğlanla onu qovuşdursunlar, sevdiyi oğlan gəlib ayağına düşsün. İlham Mirzəyev hətta bildirib ki, ondan alacağı 3 min avro pulun hamısını şəkillərlə birlikdə İsrailə göndərəcəyi səbəbindən pulu avro ilə istəyir və deyib ki, bu iş həll olunandan sonra onun özünə də ayrıca nə istəsə hörmət edər. İlham Mirzəyevin sözündən elə çıxıb ki, guya verəcəyi 3 min avrodan ona bir qəpik də qalmır, hamısını İsrailə göndərəcək.

### "Obijayeş..."

İlham Mirzəyev ondan sevdiyi oğlanın fotoşəklini də istəyib. O, "WhatsApp" proqramındakı profilindən A.X-nın fotoşəklini çıxarıb əldə edib. Özündə olan milli pulu valyutadəyişmə məntəqəsində avroya dəyişdirib 1600 avro pul əldə edib və həmin pulu özünün və A.X-nın ayrı-ayrı fotoşəkillərini İlham Mirzəyevə verib. İlham Mirzəyev bildirib ki, pulun qalan hissəsini də sabah gətirib versin, çünki İsrailə pulun hamısını göndərəcək. İlham Mirzəyev ondan A.nın şəklini alıb baxmış və sevdiyi şəxsin bu insan olduğunu bir daha soruşmuşdur. O, "hə" dedikdə, İlham Mirzəyev bildirib ki, "narahat olma, 15 günə kimi sevdiyin oğlanla səni qovuşduracağam". O, İlham Mirzəyevin söylədiyi kimi bu işi belə qısa müddətdə görə biləcəyindən təəccüblənmiş və ondan "doğrudan?" deyə soruşub. İlham Mirzəyev isə ona rus dilində "obijayeş" deyə cavab verib. Sözündən elə çıxıb ki, onun bu qabiliyyətinə şəkk-şübhə etməsin.

### "Əlini qoy döşünün üstünə..."

O, həmin gün pulu və fotoşəkilləri İlham Mirzəyevə verib evə gəldikdən sonra götür-qoy edib. Fikirləşib ki, görəsən, bu insan həmin işi görə bilər, yoxsa yox? Söhbət əsnasında bir-iki nəfər tanışı ilə bu barədə ümumi danışıb, tanışları bunun yalan söhbət olduğunu, falçılığın boş, cəfəngiyyat olmasını və bu cür insanların onun kimi sadəlövh, hamıya inanan adamları tez bir zamanda aldadıb toruna salaraq pullarını ələ keçirdiklərini söyləmişlər. Bu söhbətdən sonra anlamışdır ki, İlham Mirzəyevin də ona söylədikləri, verdiyi vədlər boş yalandır. Bu cür sözlərlə onu aldadaraq 3 min avro pulunu ələ keçirmək istəyir. O, tam qərara gəlib ki, vermiş olduğu 1600 avro pulunu geri tələb etsin. Bu məqsədlə İlham Mirzəyevin mobil telefonuna həmin gün iki dəfə zəng vurub. Lakin zənglərinə cavab verməyib. Halbuki 3-4 gün əvvəl o, İlham Mirzəyevin bu nömrəsinə zəng vurub, İlham Mirzəyev özü telefonda onun zəng etdiyini bilib, geriyə, ona zəng vurub bu iş barədə danışmış, hətta "əlini qoy döşünün üstünə" deyərək ona 100 faiz ümid verib. Yəni İlham Mirzəyev telefon nömrəsini bilmiş, bu dəfə zənglərinə cavab verməyəndən sonra ona qarşı şübhələri daha da artıb, tam əmin olub ki, bu insan fırıldaqçıdır və onu aldadıb".

Bundan sonra zərərçəkən İlham Mirzəyev barəsində hüquq-mühafizə orqanlarına şikayət etmək qərarına gəlib...

*(davamı gələn sayımızda)*

❑ **E.MƏMMƏDƏLİYEV**



# Tovuzda qədim şəhər aşkarlandı

## Kəşf edilən Abdal şəhərinin 2-3 min yaşı var; şəhər sasanilər tərəfindən dağıdılıb

## Cəlaləddin Qasımov: "20 ildir ki, bu şəhəri axtarırdım"

**Hər bir ölkə keçmişi ilə fəxr edir. Keçmişi olmayan ölkənin gələcəyi olmaz. Bu baxımdan Azərbaycan qədim tarixə malik bir ölkədir. Keçmişi zəngin olduğu üçün gələciyi də parlaq görünür. Zəngin xəzinəni xatırladan torpaqlarımız ölkəmizin qədimiliyini bir daha sübut edir. Məhz bu amillərə görə hər zaman dünya ölkələrinin diqqəti Azərbaycanda olub.**

Ölkəmiz həcmi böyük olan kitabı xatırladır. Hər vərəqlədikcə qədim diyarları özündə əks etdirən şəhər, abidələr kəşf edilir. Bütün bunlar dediklərimizə əyani sübutdur.

Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmiş araşdırmaçı-tarixçi Cəlaləddin Qasımov tərəfindən qədim şəhərlərimizdən biri olan Tovuzda Abdal şəhəri kəşf edilib. Bu şəhər indiki Avdal kəndindən 8 km məsafədə, Avdal çayının baş tərəfində, Şəmkirlə sərhəddə yerləşir. Belə ki, ordan Şəmkirə dağların arası ilə 4 km yol var. Bir tərəfdə isə Gədəbəy rayonudur.

**Cəlaləddin Qasımov etdiyi kəşfin tarixçəsi ilə bağlı bunları deyib:** "BDU-da oxuyarkən belə bir şəhərin olduğunu təxmin etmişdim. 20 ildir ki, bu şəhəri axtarırdım. Nəhayət 20 gün bundan öncə tapdım. Burada yerləşən dərə əvvəllər Hunna adlanıb. Sonralar tədricən Xınna halına gəlib və hazırda bu adda tanınır. Mənbələrdə göstərilir ki, abdallar Qarabağ zonasında yaşayıblar. Mən fikrimdə qalaraq, kəşf etdiyim yerə getdim. 8 saata yaxın üzüyuxarı dağlara piyada qalxdım. Kəşf etdiyim şəhərin tarixi 2-3 min ilə gedib çıxır. Bu barədə AMEA-ya şəkillər vermişəm. Ən uğurlu işlərimdən biri Çingiz xan haqqında romanımdır. Dağların içərisində 4 saray olduğunu göstərmişəm. Həmin saraylardan biri tapıldı. Digərlərinin olduğuna əminəm. Bu barədə mətbuatda xəbərlər gedib. Digər sarayların tapılması ilə bağlı işlər davam edir. Tovuzda 32 qala gəzmişəm. Ondan sonra bu şəhərin olduğunu aşkarladım. O şəhərin fundamentinin qalıqları qalıb. Bunların çoxu torpağın altındadır. V əsr Roma tarixçisi də Abdal tayfaları barədə yazıb. Araşdırmalarım onu göstərir ki, Atillanın ən yaxın sərkərdələri də alban və abdal tayfaları olub".

Tarixçi kəşf etdiyi şəhərin dağıdılmasından da danışıb: "Abdal şəhəri IV əsrdə sasanilər, sonralar ərəblər tərəfindən işğal olunub. Bu barədə araşdırmalarım davam edir. Bu şəhər Tovuz ərazisində yerləşir. Azərbaycanda 4 şəhərdə Abdal adlanan yer var. Bu yerlərin hər birini gəzmişəm. Alban tarixini bütün ölkələr oxuyur. Albaniyanın sonradan türkləşdiyini deyirlər. Amma qədim Albaniya dövlətində əsas aparıcı tayfa abdallar olub. Türkdilli tayfalardır. Hətta Xətai çox şeirlərində abdal tayfasına məxsus olduğunu bildirib. Şeirlərinin son bəndlərinin çoxunda bunu açıq-aşkar göstərib".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT

Son səhifə

N 237 (5946) 23 sentyabr 2014


# Tısbağa yolda tıxac yaratdı

45 kiloluq tısbağa Amerikanın Florida ştatındakı Sarasota şəhərində ciddi tıxaca səbəb olub. Sürücülər hadisə yerinə polisləri çağırıblar. Polis Ron Lokun sözlərinə görə, heyvanı yoldan çıxarmaq üçün bir neçə iri cüssəli şəxsin yardımından istifadə olunub. Bundan sonra tısbağanı yük maşınının kuzovuna qoyaraq polisə aparıblar. Bu haqda informasiya isə facebook sosial şəbəkəsində yayılıb. Hüquq-mühafizə orqanları heyvanın sahibini sosial şəbəkə vasitəsilə tapmağa çalışıblar. Bildirişin yayımından bir neçə saat sonra heyvanın sahibi Rayan Adams səhifədə şərh yazıb. Kişi məlumat verib ki, heyvanın adı Buldozerdir. Onun sözlərinə görə, tısbağa bağçadakı torpağı eşərək ordan uzaqlaşmağa nail olub.





## Aparıcı 33 saat efirdə qaldı

**Norveçin TV2 kanalının aparıcısı Kari Qenqedal 33 saat fasiləsiz efirdə olmaqla dünya rekorduna imza atıb. Bütün bu saatlarda o, tamaşaçılara hava proqnozunu təqdim edib. Telemarafondan öncə aparıcı bunları deyib: "Bu, hər bir sinoptikin ən böyük arzusudur. Çünki sinoptiklər hər gün efirdə cəmi 2,5 dəqiqə görünə bilirlər".**

Qenqedal öz verilişini Oslonun Domkirkeplassen meydanındakı şüşə studiyasında aparıb. Dünya rekordunun müəyyənləşməsi ilə bağlı qaydalara uyğun olaraq, teleaparıcıya hər 60 dəqiqəlik efir işindən sonra 5 dəqiqəlik fasilə icazəsi verilib. Uğurlu rekorddan sonra Qenqedal pivə içməyə gedəcəyini bəyan edib: "Ancaq bu yolla öz uğurumu qeyd edə bilərəm".

## Telefonu yellə, "zaryadka" yığsın...

**Amerikali alimlər təcili vəziyyətlərdə cib telefonunu yelləyərək "zaryadka" yığmasını təmin edən sistem üzərində işləyirlər. ABŞ-dakı Virginia Tech Universitetindən Shashank Priya və heyəti cib telefonlarında səs və hərəkəti enerjiyə çevirə biləcək ip ucları tapıblar və onu təkmilləşdirməyə çalışırlar. Onların gəldiyi ilkin nəticələrə görə, batereyası bitən telefonları əldə bir neçə dəqiqə yelləməklə enerji yığmalarını təmin etmək mümkün olacaq. Amma hələlik bu enerjinin qısamüddətli olacağı ilə bağlı faktlar əldə edilib. Alimlər onun bir neçə saatlıq olması üçün yeni ip ucları axtarırlar.**

# Marixuanadan hazırlanan sous satışdadır




**Amerikanın marixuananın qanuni satışına icazə verilən ştatlarında yeni bir məhsul bazara çıxarılıb. Bu, tərkibində marixuana olan piza sousudur. Podey Pizza adını daşıyan sousun hər bankasında 300 milliqram marixuana var. Bu təamdan dadmaq istəyənlər 20 dollar ödəmək və həkim reseptini göstərməklə arzularına çata bilərlər. Sousu hazırlayan firmanın nümayəndələri bildirib ki, onun tərkibini hazırlamaq üçün xeyli əziyyət çəkiblər. Məqsəd sousun zəhərləyici tərkibə malik olmaması idi. Texnoloqlar isə deyir ki, bu tərkibdə marixuana hətta ağır çəkili insanlarda da effekt verir. Kampaniya bu dadı almaq üçün bir çox könüllünün təcrübədə iştirakından yararlanıb.**

ABŞ marixuananın satışına qismən icazə verilən ölkələr sırasındadır. Bəzi ştatlarda isə marixuananın istifadəsinə tibbi məqsədlər üçün icazə verilib. O, kəskin ağrılarla müşayiət olunan xəstəliklərdə, əzələ ağrılarında, ürəkbulanmalarda, çəki azalması kimi hallarda dərman kimi istifadə oluna bilir. Bundan başqa, Kannabis onkoloji xəstələr, skelerozlar, QİÇS, epilepsiya, depressiyadan əziyyət çəkənlərin də dərmanıdır.



## 3 yaşından balacalar televizora baxmamalıdır

**İngiltərənin məşhur psixoloqlarından olan Aric Siqman valideynlərə məsləhət görüb ki, uşaqların televizora baxdıqları saata müəyyən məhdudiyyətlər gətirsinlər. Onun dediyinə görə, yaşı 3-dən aşağı olan uşaqlar isə ümumiyyətlə televizora baxmamalıdır. Sigman deyib ki, kompyuter, "ağıllı" telefonlar, habelə televizor şişmanlıq, ürək xəstəliyi və diabet riskini artırır: "Bunların xaricində daim ekran qarşısında olmaq ciddi psixoloji pozğunluqlara və diqqət dağılmasına da səbəb olur". Psixoloq onu da deyib ki, ekran başında keçirilən müddət uşaqların sosial münasibətlər qurmasına neqativ mənada təsir göstərir. Belə ki, televizordan əlavə, uşaqlar 5 ayrı ekranın hücumuna məruz qaldıqları üçün beyinləri yüklənir. Bundan başqa, psixoliq televizoru da "elektrik dayə" adlandırıb.**




**QOÇ** - Bütün işləriniz qaydasında getdiyindən kimlərəsə yalan vəd verməyin. Qətiyyən bacarmadığınız işin qulpundan yapışmayın. Əsəbi anlarda dostlarınız arasında sakitləşməyə çalışın.

**BUĞA** - Kifayət qədər təzadlı ərəfədir. Hər addımı ölçüb-biçməyə çalışın. Mövqeyinizə zidd hərəkətlərə yol verməyin. Astroloji göstəricilər saat 14-dən sonra kiməsə güzəştə getməyi məsləhət görmür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas diqqətinizi maliyyə məsələlərinə yönəldəsiniz. Bilirsiniz ki, qlobal işləriniz pulsuz keçmir. Bu səbəbdən kiməsə borc vermək fikrinə düşməyin. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin.

**XƏRÇƏNG** - Qarşınızda kifayət qədər mistik bir gün durur, anlaşılmaz hadisələr çox olacaq. Passivlik müstəvisində qərar tutan ailə-sevgi münasibətlərinə yenidən baxın. Mümkün qədər bütün neqativlikləri minimuma endirin.

**ŞİR** - Ehtiyatlı olun, səhhətinizlə bağlı xoşagəlməzliklər baş verə bilər. Əlalxüsus da saat 12-16 arası özünüzü maksimum qorumalı, əsəblərinizi cilovlamalısınız. Bu gün istənilən səfəri təxirə salsanız, yaxşıdır.

**QIZ** - İndi sizə mübahisələrə girişmək, böyük və müəmmalı məsələlər barədə müzakirələr aparmaq yolverilməzdir. Yaxşısı budur, adi işlərin həlli ilə məşğul olasınız. Əks halda, çəkdiyiniz əziyyətlər hədər gedəcək.

**TƏRƏZİ** - Bürcünüzün romantikaya olan hədsiz həvəsi çox güman ki, bu gün təmin olunacaq. Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Bir az səmimi olun, dünyamızı, insanları daha çox sevin.

**ƏQRƏB** - Gün ərzində enerji sərf etdiyiniz istənilən sahədə uğurlar sizi tərk etməyəcək. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Artıq daxili süstlüyünüz və fəaliyyətlə bağlı gərginliyiniz arxada qalacaq. Ətrafınıza yığışan yeni dost-tanışlar məqsədlərə yetişməkdə sizə yardımçı olacaqlar.

**OĞLAQ** - Bütün vacib işlərinizi saat 16-ya qədər tamamlamağa çalışın. Əmin olun ki, həmin vaxtda qarşınızda duran vəzifələrin əksəriyyətini həyata keçirə biləcəksiniz. Sonrakı saatlarda isə istənilən riskdən imtina edin.

**SUTÖKƏN** - Əgər bu təqvimdən zövq alıb rahatlanmaq istəyirsinizsə, mütləq səfərə çıxın. Bununla siz stress və ağrılarınızı aradan qaldıra, enerjinizi daha da saflaşdıra bilərsiniz. Ailə-sevgi məsələlərində xırdaçılığa yer verməyin.

**BALIQLAR** - Özünüzü gərginliyə salmayın. Uzun-uzadı kiməsə, nəyisə izah etmək enerji itkinizdən savayı bir iş deyil. Əgər bu kimi lüzumsuz işlərlə məşğul olsanız, ixtiyarınızda olan tarixdən zövq almayacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Əyri qədəh içkiyə həvəsləndirir



**Mütəxəssislər hesab edirlər ki,qədəhin forması spirtli içkilərin qəbul olunma tezliyinə və miqdarına təsir edir. Belə ki, şəkli dəyişdirilmiş məişət qabları miqyasın idarə olunmasını çətinləşdirir. 18-40 yaş arası içki aludəçisi olan 160 könüllü üzərində aparılan tədqiqatlar göstərib ki, məhz şəkli dəyişdirilmiş qədəhlərdən içki qəbul edənlər iki dəfədən artıq həvəsli olur və demək olar ki, onun nə zaman dolub boşalmasının fərqinə belə varmırlar. Məhz içkinin miqdarını təmin etmək üçün ən faydalı düz tərəfli stəkanların olduğu aşkar edilib. Ancaq mütəxəssislər sağlam olmaq üçün bu stəkanların vitamin və minerallarla zəngin olan meyvə şirələri və mineral təbii sularla doldurulmasının tərəfdarıdırlar.**

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600